www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 oktyabr 2014-cü il Cümə axşamı № 249 (5958) Qiymət 40 qəpik

**Xəbər**

## Bakıda məşhur mağaza partladı; bir ölü, 4 yaralı

yazısı səh.2-də

**Gündəm**

### PKK-Hizbullah qarşıdurması Türkiyəni qana boyadı



Güney-doğudakı iqtişaşlarda 18 nəfər öldü; terror hörgütü Atatürkün heykəlinə od vurdu; ABŞ İŞİD-i havadan zərbələrlə geri oturtdu

yazısı səh.13-də

### Arif Hacılı 4 müşavir təyin etdi

yazısı səh.6-da

### ADP-dən cəbhəçilərə sərt cavab verildi

yazısı səh.3-də

### Müsavatda cəza tədbirləri olacaq

yazısı səh.6-da

### Jurnalist Fərahim İlqaroğlunu döyən şəxs istintaqdakı ifadəsini danmaq istəyir

yazısı səh.12-də

### Sənaye məhəllələrinin yaradılması haqda fərman verildi

yazısı səh.2-də

### Səfər Əbiyevin köməkçisinin kodlaşmış biznes obyektləri...

yazısı səh.5-də

### Rza Hacıyev prokurorluqda ifadə verib?

yazısı səh.3-də

### Ermənistan üçün ən pis ssenari reallaşmağa başlayıb

yazısı səh.11-də

### Hüquq müdafiəçisi icra başçısının müavinini ittiham etdi

yazısı səh.15-də

### İstiqlalçı deputat prezidentə məktub yazdı

yazısı səh.10-da

### Ucarda dəhşətli avtoqəza; 5 ölü

yazısı səh.2-də

### Azərbaycanda başdaşının qiyməti qalxdı

yazısı səh.2-də

## Deputat haqq qoydu; 9 manat + 30 litr

# ELTON MƏMMƏDOV BAKI AVTOVAĞZALINDA ÜSYAN YETİŞDİRİR

Nəqliyyat nazirinin qardaşı sürücülərdən hər gün maşınlarını ona məxsus avtoyuma məntəqəsində yudurtmağı və yanacağı onun "zapravka"sından doldurmağı tələb edir; bundan narazı qalanlar etirazlara hazırlaşırlar, ciddi aksiyalar gözlənilir



yazısı səh.5-də

## "Freedom House" rəsmi Bakını sanksiyalarla təhdid edir

"Rusiyaya sanksiyalar tətbiq ediləcəyinə də inanmırdılar..." - FH-nın prezidenti Devid Kramer rəsmi Bakını sanksiyalara cəlb etmək üçün çalışacaqlarını bəyan edib

yazısı səh.8-də



**Prezident 9 ayın yekunlarına həsr olunmuş iclas keçirdi**

yazısı səh.9-da



*Qubad İbadoğlu:*

**"Müsavat dəyişməsə, bu hakimiyyət dəyişməyəcək"**

yazısı səh.4-də



*Siyavuş Novruzov:*

**"Həqiqətən də çətinliklər, təzyiqlər var, lakin biz bu yoldan dönməyəcəyik"**

yazısı səh.7-də



# Prezident sənaye məhəllələrinin yaradılması haqda fərman verdi

**Prezidenti İlham Əliyev "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" fərman imzalayıb. APA-nın məlumatına görə, fərmana əsasən, sənaye məhəllələrinin fəaliyyətinin təşkili və tənzimlənməsi "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinə həvalə edilib.**

Nazirlər Kabineti İqtisadiyyat və Sənaye Nazirliyi ilə birlikdə 3 ay müddətində "Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə"nin layihəsini hazırlayıb Azərbaycan prezidenti ilə razılaşdırmaqla təsdiq etməlidir, İqtisadiyyat və Sənaye Nazirliyi isə sənaye məhəllələrinin fəaliyyətinin təşkili, tənzimlənməsi və həyata keçirilməsi, məhəllələrin iştirakçılarının fəaliyyətinin dəstəklənməsi *(məsləhət, treninq, peşə hazırlığı xidmətlərinin, güzəştli kreditlər verilməsi və səmərəli fəaliyyət üçün digər xidmətlərin göstərilməsi)*, habelə məsləhətçilərin cəlb edilməsi ilə bağlı zəruri tədbirlər görülməsini təmin etməlidir.

Nazirlər Kabineti ilə İqtisadiyyat və Sənaye Nazirliyi bu fərmanın icrası ilə bağlı görülən işlər barədə ildə iki dəfə Azərbaycan prezidentinə məlumat verməlidir.

Fərmanda bildirilir ki, sənaye məhəllələrinin yaradılması haqqında qərarı İqtisadiyyat və Sənaye Nazirliyinin təklifi əsasında Azərbaycan prezidenti qəbul edir. Sənəddə qeyd edilir ki, sənaye məhəlləsi - sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik olan, kiçik və orta sahibkarlar tərəfindən məhsul istehsalı və xidmət göstərilməsi üçün istifadə edilən ərazidir.

# Azərbaycanda başdaşının qiyməti qalxdı



**Bölgələrdə qəbir daşlarının qiyməti bahalaşıb. "Qafqazinfo" xəbər verir ki, Bərdə, Ağdam və Tərtər rayonlarında son 4 ayda qəbir daşı sexlərində qiymət artımı yaşanır və özəl qəbir sexlərində qiymətlər 20-25 faizə qədər bahalaşıb.**

Qəbir daşı satışı ilə məşğul olan sahibkarların sözlərinə görə, bahalaşmaya səbəb əsasən xarici ölkələrdən gətirilən qranit və mərmərin qiymətinin artmasıdır.

Məzar daşlarının qiyməti ölçüsünə, dizaynına, rənginə, işlənməsinə görə dəyişir. Onların qiymətləri isə ayrı-ayrı sexlərdə bir-birindən cüzi ya da tamam fərqlənir. Müxtəlif daş sexlərində apardığımız araşdırmaya görə, ən ucuz olan sadə əhəngdaşından hazırlanan qəbir daşları üçün qiymət 300-400 manatdır. Həmin daşlar daş qırıntılarının üyüdülüb sementlə qarışdırılması və müəyyən qəliblərə salınması yolu ilə hazırlanır. Rayon kəndlərində belə qəbir daşlarına daha çox ehtiyac var.

Bununla bərabər bahalı daşlara da tələbat az deyil.

Yerli sakinlərin sözlərinə görə, orta təbəqənin nümayəndələri əsasən ağ mərmərdən olan 600 - 800 manat arası olan daşları sifariş edir. İmkanlı şəxslər isə 1500 manatdan başlayaraq 5 min manata qədər olan daşlara üstünlük verir.



# Bakıda mağaza partladı; bir ölü, 4 yaralı

**Bakıda mağazada partlayış olub. APA-nın məlumatına görə, hadisə saat 17.30 radələrində Biləcəri qəsəbəsində, Bakı Beynəlxalq Avtovağzalı yaxınlığında yerləşən "Army" marketdə qeydə alınıb. Fövqəladə Hallar Nazirliyi (FHN) Bakıda mağazada baş vermiş partlayışla bağlı məlumat yayıb.**

APA-nın nazirliyin saytına istinadən verdiyi məlumata görə, Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsində hündür mərtəbəli yaşayış binasının birinci mərtəbəsində partlayış hadisəsi baş verib.

Dərhal FHN-in xilasetmə qüvvələri hadisə yerinə cəlb edilib. İlkin məlumata əsasən, dağıntılar altından bir nəfər kişi cəsədi aşkar edilərək çıxarılıb, dörd nəfər xəsarət alan şəxs isə Təcili Tibbi Yardım Xidmətinə təhvil verilib.

# Müsavat qurultayının bəyanat və qətnamələri yayıldı

## "Müsavatın yeni Məclisi və MNTK-sı legitim deyil"

**Müsavatın 8-ci qurultayı yekunlaşsa da, nəticələrlə bağlı narazılıqlar səngimək bilmir. Partiyanın Mərkəzi Nəzarət və Təftiş Komissiyasının (MNTK) keçmiş üzvü Əlövsət Talışxanlı musavat.com-a açıqlamasında deyib ki, qurultay say komissiyasının hesabatından sonra yeni MNTK və Məclisə səlahiyyətlərin təsdiqini səsə qoyulmalı idi.**

Ə.Talışxanlı qeyd edib ki, qurultay günü səsvermə olmadı: "Çünki bülletenlər tam sayılmadığından qurultayın ikinci gününə keçirildi. Qurultayın ikinci günü, yəni Müsavatın qərargahında da bu səsvermədə yetərsay olmayıb. Belə ki, 197 nəfər yerinə, 140-142 nəfər səsvermədə iştirak edib. Qurultay öz növbəsində köhnə Məclisə səlahiyyət verməmişdi ki, yeni MNTK və Məclisin səlahiyyətlərini təsdiq etsin. Yeni seçilmiş Məclis və MNTK legitim olmadığından onların keçirdiyi bütün tədbirlər səlahiyyətsiz sayılmalıdır. Yeganə legitim qurum köhnə Məclis və köhnə MNTK-dır".

❑ EMİL

**Müsavat Partiyasının VIII qurultayında bir sıra qətnamələr və bəyanatlar qəbul olunduğu haqda xəbər verilib. Onlardan biri Azərbaycandakı sosial-iqtisadi vəziyyətlə bağlıdır.**

Sənəddə hakimiyyətin apardığı iqtisadi siyasət tənqid edilir, digər sahələrdə olduğu kimi, iqtisadi və sosial sahələrdə də ciddi problemlərin qaldığı bildirilir. Qurultay bu problemlərdən çıxmaqdan ötrü hesab edir ki, ölkə iqtisadiyyatında təxirəsalınmaz dərin və hərtərəfli islahatlar aparılmalıdır.

Partiyanın sabiq başqan İsa Qəmbərin hesabat məruzəsi ilə bağlı qəbul edilən qətnamədə isə bildirilir ki, Azərbaycan dövlətçiliyinin memarı olan Musavat Partiyası 2001-ci ildə daha bir ilkə imza atıb, bir nəfərin iki dəfədən artıq ardıcıl olaraq partiya başqanı seçilməsinə nizamnamə məhdudiyyəti qoyub: "Siyasi mədəniyyətimizə əhəmiyyətli töhfələrdən biri olan bu yeniliyin təşəbbüsçüsü Müsavat Partiyasının başqanı İsa Qəmbər olub... İsa Qəmbərin başqanlığı dövründə Müsavat ideologiyası siyasi cəhətdən təşkilatlanıb, partiya yenidən ümummilli partiyaya çevrilib. Onun fəaliyyətinin nəticəsi olaraq Müsavat bu gün də Azərbaycanın ən nüfuzlu müxalifət partiyasıdır və iqtidarda olmasa da, proseslərə təsir göstərməkdə davam edir».

Siyasi məhbuslarla bağlı bəyanatda partiya Azərbaycanda təməl insan haqlarının məhdudlaşdırılması, siyasi məhbusların sayının son zamanlar sürətlə artması, bu nöqsanların aradan qaldırılması və siyasi məhbusların qeyd-şərtsiz azadlığa buraxılması barəsində beynəlxalq təşkilatlar səviyyələrdə səslənən irad və tələblərə şərik çıxır. Bütün vicdan və siyasi məhbuslar siyahısına daxil edilən şəxslərin tez bir zamanda həbsdən azad olunmasını Azərbaycan hakimiyyətindən tələb edir.

Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı qəbul edilən bəyanatda torpaqlarımızın 21 ildir işğal altında qalmasına görə məsuliyyəti ilk növbədə hakimiyyətdəki Əliyev rejiminin daşıdığı qeyd olunur. Müsavat münaqişənin sülh yolu ilə həlli variantlarının tükənmədiyini bildirir və bunun üçün partiyanın "Uğur" paketində əksini prinsiplərin həyata keçirilməsini vacib sayır.

Avroatlantik inteqrasiya ilə bağlı qətnamədə partiya xalqın və dövlətin maraqlarını nəzərə alaraq, Azərbaycanın demokratik gələcəyini mütərəqqi dünyaya inteqrasiyada gördüyünü bir daha bəyan edir, siyasi partiya olaraq öz fəaliyyətini bundan sonra da Azərbaycanın Avroatlantik məkana inteqrasiya istiqamətində davam etdirəcəyinə inamını ifadə edir.

❑ Hazırladı: NURLAN

# Ucarda dəhşətli avtoqəza; 5 ölü

**Ucarda ölümlə nəticələnən dəhşətli yol qəzası baş verib. APA-nın yerli bürosunun məlumatına görə, hadisə dünən saat 17:00 radələrində Bakı-Qazax yolunun rayon ərazisindən keçən hissəsində qeydə alınıb.**

Sürücüsü hələlik məlum olmayan "VAZ-21099" markalı minik avtomobili ilə "MAN" markalı yük avtomobili toqquşub. İlkin məlumata görə, qəza nəticəsində minik avtomobilində ikisi azyaşlı olmaqla, 5 nəfər ölüb.

Faktla bağlı Baş Dövlət Yol Polisinin istintaq və təhqiqat şöbəsində araşdırma aparılır.



# Bakıda daha bir nəfər özünü yandırdı

**Bakıda bir nəfər özünü yandıraraq, intihar etməyə cəhd edib. Hadisə yerində olan şahidlərin musavat.com-a verdiyi məlumata görə, 40-45 yaşlarında şəxs Rəşid Behbudov küçəsində özünü yandıraraq intihara cəhd edib.**

Səbəb olaraq da bildirib ki, övladlarını görmək istəyir. Amma bacanağı buna imkan vermir. Onları atalarından ayırıb. Buna görə də özünə qəsd etmək istəyib, ancaq ətrafdakılar alovu söndürüblər.

❑ Musavat.com

# Azərbaycan üzərindən 3 ton heroin daşıyan sürücü həbsdən buraxıldı

**Gürcüstanın baş prokurorluğu Azərbaycan üzərindən keçməklə 3 ton maye heroin daşıyan yük maşını sürücüsünü həbsdən azad edib. Prokurorluq narkotik maddələrin qanunsuz əldə edilməsi və daşınmasında, beynəlxalq tranzitində ittiham olunan sürücü Quram Tetsxladzenin barəsində cinayət işinə xitam verib.**

İstintaq müəyyən edib ki, sürücü yükün daşınması barədə təklifi bu il iyulun 3-də Türkiyə vətəndaşı Bayram Coşqunidən alıb. Coşquni gürcü sürücüyə yükün maye sabundan ibarət olduğunu bildirib. "İstintaq müəyyən edib ki, Tetsxladze yükün narkotik maddə olmasını bilməyib və bunu müəyyən edə bilməzdi" deyə prokurorluq bildirir.

Gürcüstan prokurorluğunun məlumatına görə, bu iş üzrə hazırda Yevgeni Qorqadze və Türkiyə vətəndaşı Şefik Semizoğlu həbsdədir, Bayram Coşquni isə axtarışdadır. Narkotik yüklənmiş maşın İrandan yola çıxıb, Azərbaycan ərazisindən keçib və Gürcüstan ərazisində saxlanılıb. İstintaq 3 ton maye heroinin "Taliban"a məxsus olduğunu, Əfqanıstandan göndərildiyini və Gürcüstandan keçərək Moldovaya çatdırılmalı olduğunu müəyyən edib. Virtualaz.org-un məlumatına görə ehtimal ki, yük oradan Avropaya ötürüləcəkdi.

Prokurorluq bildirir ki, Gürcüstan hüquq-mühafizə orqanları yükün tranzit olaraq keçdiyi ölkələrin hüquq-mühafizə orqanları ilə əməkdaşlıq şəraitində narkomafiyanın digər üzvlərinin aşkar edilib saxlanılması yönündə işləri davam etdirir.

❑ E.HÜSEYNOV

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


Nazim Veyisov

# Şəmkirin icra başçısı vəzifəsindən azad edildi

**Nazim Veyisov Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib. APA-nın məlumatına görə, Azərbaycan prezidenti İlham Əliyev bununla bağlı müvafiq sərəncam imzalayıb.**

Dövlət başçısının digər sərəncamı ilə Alimpaşa Adil oğlu Məmmədov Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

Alimpaşa Məmmədov bundan əvvəl Bakı Şəhər Vergilər Departamentinin rəisi vəzifəsində çalışırdı, o, vergilər naziri Fazil Məmmədova yaxınlığı ilə seçilən şəxslərdəndir.

# Ombudsmanın nümayəndələri həbsdəki QHT rəhbərləri ilə görüşdülər

**Ombudsmanın İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Qrupunun (MPQ) üzvləri Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Bakı İstintaq Təcridxanasına (BİT) və 2 saylı cəzaçəkmə müəssisəsinə qısamüddətli başçəkmələr həyata keçiriblər.**

Ombudsman Aparatının mətbuat xidmətindən APA-ya verilən məlumata görə, başçəkmə zamanı BİT-də saxlanılan Leyla Yunusova, İntiqam Əliyev, Rəsul Cəfərov və Anar Məmmədli ilə görüş keçirilib. Görüş zamanı adıçəkilən şəxslərin saxlanılma şəraiti və onlarla rəftarın vəziyyəti araşdırılıb.

Bundan əlavə, 2 saylı cəzaçəkmə müəssisəsinin karantin otağında saxlanılan İlqar Məmmədov da qəbul edilib və vəziyyəti araşdırılıb. Görüş zamanı İ.Məmmədov 2 saylı cəzaçəkmə müəssisəsində hər hansı pis rəftara məruz qalmadığını bildirib.

Qeyd edilib ki, adıçəkilən şəxslərin qaldırdığı məsələlərin araşdırılması və qanunvericilik çərçivəsində tədbir görülməsi üçün ombudsman tərəfindən Ədliyyə Nazirliyinin rəhbərliyinə müraciət olunub.

YENİ MÜSAVAT
N 249 (5958) 9 oktyabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



**Sabiq polis rəisi Rza Hacıyev prokurorluqda dindirilib. Redaksiyamıza daxil olan məlumata görə, R.Hacıyevi Türkiyədə, "Mardan Palace" hotelində 24 yaşlı Arzu Zeynalovanı öldürməsi haqda yayılan məlumatlarla bağlı dindiriblər. Hələlik şahid qismində dindirilən sabiq rəisin istintaqa cəlb olunma ehtimalının böyük olduğu da bildirilir.**

# Rza Hacıyev prokurorluqda ifadə verib?

## Baş Prokurorluğun sözçüsü: "İstənilən şəxs çağırılıb şahid qismində dindirilə bilər"

"Yeni Müsavat"ın əməkdaşı məlumatı dəqiqləşdirmək üçün Baş Prokurorluğun mətbuat xidməti ilə əlaqə saxlayıb. Xidmət rəhbəri Eldar Sultanovun sorğumuza cavabını təqdim edirik: "İbtidai araşdırma zamanı istintaq zərurəti yarandıqda iş üzrə hər hansı əhəmiyyət kəsb edən hallardan xəbərdar olan istənilən şəxs çağırılıb şahid qismində dindirilə bilər. İstintaq zamanı şahid qismində dindirilən şəxslər barədə məlumatların yayılması ibtidai araşdırmanın maraqlarına zidd olduğu hallarda bu barədə məlumatların yayılması cinayət-prosessual qanunvericiliyin tələblərinə görə yolverilməzdir. Belə ki, qanunvericiliyin tələblərinə görə ibtidai araşdırma məlumatları yalnız müvafiq olaraq müstəntiqin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun icazəsi ilə, ibtidai araşdırmanın maraqlarına zidd olmadığı və cinayət prosesinin digər iştirakçılarının hüquq və qanuni mənafelərini pozmadığı halda jurnalistlər tərəfindən yayıla bilər".

Sorğumuza verilən cavabda Rza Hacıyevin istintaqa çağırılaraq dindirilməsi təkzib olunmur.

Məlumat üçün deyək ki, sentyabrın 20-də R.Hacıyevin Türkiyədə bir qadını öldürməsi haqda məlumat yayılıb. Həmin vaxt musavat.com-a etibarlı mənbədən daxil olan məlumatda bildirilirdi ki, Telman İsmayılovun ("AST Telman"-red.) Antalyadakı "Mardan Palase" hotelində Rza Hacıyevin tanışı olduğu bildirilən qadının meyiti aşkarlanıb. 24 yaşlı Arzu Zeynalovanın bədənində zorakılıq əlamətləri olub. Məlumatda polis rəisinin qadına həmin xəsarətləri yetirməkdə şübhəli bilindiyi də qeyd olunurdu. Qaynağımız isə iddia edirdi ki, R.Hacıyev qadını döyərək öldürüb. Polis polkovniki olan R.Hacıyev bu ilin fevralında Neftçala Rayon Polis Şöbəsinin rəisi vəzifəsindən yaş həddi ilə bağlı azad olunaraq təqaüdə göndərilib. O, sonuncu iş yeri olan Neftçala RPŞ-yə Bakının Sabunçu Rayon Polis İdarəsinin rəisi vəzifəsindən çıxarılandan aylar sonra, 2009-cu ildə təyin olunmuşdu. 2008-ci ildə R.Hacıyevi Sabunçu RPİ-nin rəisi vəzifəsindən evində baş verən müdhiş oğurluğa görə çıxarmışdılar. Həmin vaxt R.Hacıyevin sürücüsü polis rəisinin ailə üzvlərindən biri ilə evdən qızıl-zinət və xeyli pul götürərək Rusiyaya qaçmışdılar. Sonradan R.Hacıyevin ümumilikdə 1 milyon manatlıq mal-pulunun oğurlandığı bildirildi. Bu hadisənin sorağı ölkə rəhbərliyinə çatandan sonra ən yuxarı səviyyədə R.Hacıyevin tutduğu vəzifədən azad edilməsi istənilmişdi. Arqument kimi isə "öz evini qoruya bilməyən rəis rayonu necə qoruya bilər" fikri səsləndirilmişdi.

R.Hacıyev bu xəbərlə bağlı APA-ya açıqlamasında deyilənləri təkzib etmişdi. O, Türkiyədə sonuncu dəfə bu ilin yazında olduğunu demişdi. Sabiq rəis hazırda Bakıda istirahət etdiyini söyləmişdi. Digər bir məlumatda isə R.Hacıyevin öldürdüyü iddia olunan qadının Bakıdakı "Qurd qapı"sı deyilən ərazidə yerləşən qəbiristanlıqda dəfn olunduğu iddia edilirdi. Bildirilirdi ki, A.Zeynalovanın dəfni üçün qəbir yerinin alınmasına sabiq polis rəisi 8 min manat xərcləyib. A.Zeynalova polis rəisi ilə illər əvvəldən tanış olub və Türkiyəyə istirahətə birgə gediblər. Oradan A.Zeynalovanın meyiti gətirilib.

**Mövzuya qayıdacağıq.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# ADP-dən cəbhəçilərə sərt cavab verildi

## Taliyət Əliyev: "Təhqir və şantaj eləmək üçün bunlara bir bəhanə lazımdır"

**AXCP fəalı, jurnalist Xaliq Bahadır "Azadlıq" qəzetinin dünənki sayında ADP-ni və onun sədri Sərdar Cəlaloğlunu növbəti dəfə hədəfə götürən geniş məqalə yazıb. X.Bahadır ADP-ni və Sərdar Cəlaloğlunu xalqımızın keçmişini gözdən salmaqda ittiham edib: "Ən azı demokrat partiyasının başçısı olaraq bu adam xalqı dünəni-bu günü ilə birləşdirməyə çalışmaq yerinə açıq-aydın onsuz da parçalanıb-bölünmüş xalqın daha da parçalanıb-bölünməsinə yönəlik çalışmalarda bulunur. Bu adam elə bil keçmişimizə - tariximizə yalnız keçmişimizi - tariximizi gözdən salmaq üzünün aktiv fiqurantlarından olduğu bugünkü intriqaları keçmişlərə daşımağa, bu yolla xalqı bir daha bölüb-parçalamağa çalışır".**



Taliyət Əliyev

**ADP sədrinin müavini Taliyət Əliyev** "Yeni Müsavat"a açıqlamasında Xaliq Bahadıra və onun kimilərinə heç vaxt cavab vermək fikrində olmadığını, sadəcə olaraq, bəzi cəbhəçilərin facebookda yeri gəldi gəlmədi ağızlarına gələni yazıb paylaşmaqla Sərdar Cəlaloğlunu aşağılamalarına münasibət bildirdiyini dedi: "Onların facebookda Sərdar bəyi aşağılamaları bir dəfə yox, dəfələrlə olub. Mən dəfələrlə onların poçtuna yazmışam ki, bu cür qeyri-etik davranışları yığışdırsınlar, sosial şəbəkə cəngəllik, meşə şəbəkəsi deyil. Kim bunların xoşuna gəlməyən bir tənqidi fikir işlətsə, bunlar özlərini meşədəki kimi hiss edərək ağızlarına gələni yağdırırlar. Mən bunu dəfələrlə cəbhəçilərə irad tutmuşam, təəssüf ki, xeyiri yoxdur. Onlara xəbərdarlıq da eləmişəm ki, Əli Kərimliyə zəng edib deyəcəyəm bu cür adamları yığışdırsın. Sərdar Cəlaloğlunun yazısını, müsahibəsinin özünü oxumadan başlayırlar ona münasibət bildirməyə, təhqirlər yağdırmağa. Xaliq Bahadır da belələrindəndir. Xaliq Bahadır Əli Kərimlidən başqa hər kəsi agent görür. Bu adam "agent axtaran" funksiyasını yerinə yetirir. Mən Xaliq Bahadırın yazılarını nadir hallarda oxuyuram. Çünki o yazıların çıxdığı "Azadlıq" qəzetinin ancaq bir nəfərin şəxsi diqtəsi altında işləyən qəzet olduğunu bilirəm".

**T.Əliyevin sözlərinə görə, Xaliq Bahadır onu və Sərdar Cəlaloğlunu faktiki olaraq şərləyib:** "Deyib ki, guya mən Sərdar bəyin tapşırığı ilə onun əleyhinə fikirlər işlətmişəm. And olsun Allaha, mənim yazdığım statusdan heç Sərdar bəyin xəbəri olmayıb. Mən onlarla bağlı heç bir sayta və qəzetə açıqlama verməmişəm. Sadəcə, facebookda bir statusum olub. Orada isə heç kim aşağılanmayıb. Bu adamlar özləri bir nəfərin diqtəsi ilə yazdıqları, danışdıqları üçün elə bilirlər hər kəs diqtə ilə yazır, danışır. Təhqir və şantaj eləmək üçün bunlara bir bəhanə lazımdır. Bunların adətidir, birinə bir tənqidi fikir bildirdinsə, səni agent, satqın, xalq düşməni elan edəcəklər. Bu, bunların əxlaqından irəli gəlir. Bunlar kimi düşünməyən, bunların dediklərini təsdiqləməyən bunların gözündə düşməndir. Xaliq Bahadır bundan sonra da nə yazır-yazsın. Jurnalistdir, özü bilər. Amma onun yazdıqlarının cəbhəçilər tərəfindən facebookda canfəşanlıqla paylaşılmasına etiraz edirəm və dəfələrlə etmişəm. Dəfələrlə onlara yazmışam ki, bu məsələni yığışdırın. Mən bu adamları başa düşə bilmirəm ki, bunların məqsədi nədir, bunlar nə etmək istəyir! Bir tərəfdən deyirsən ki, müxalifət bir yerdə olmalıdır, o biri tərəfdən bütün dəstənin vasitəsilə hər kəsi agent, satqın adlandırırsan. İnsanlar bunu necə başa düşsün".

❑ **E.SEYİDAĞA**

# Dövlət üçün Dilqəm-Şahbaz sınağı



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Azərbaycan ərazisində işğalçı qüvvələrin girov götürdüyü iki həmvətənimiz - Şahbaz Qulyev və Dilqəm Əsgərov üzərində qondarma məhkəmə prosesi başlayır. Erməni tərəfinin diversant kimi təqdim etdiyi soydaşlarımız olduqca ağır maddələr üzrə - casusluqda, qətldə, "sərhədi qanunsuz keçmək"də ittiham olunurlar.**

Birinci absurd odur ki, "məhkəmə" Xankəndində - Azərbaycanın hüquqi ərazisi sayılan şəhərdə keçiriləcək. Beynəlxalq hüquqa, insan haqlarına ən böyük həqarət də zatən, budur - dünya birliyinin tanımadığı saxta qurum dünya birliyinin tanıdığı dövlətin vətəndaşlarını elə onun öz qanuni ərazisində "sərhədi qanunsuz keçmə" və başqa ağır ittihamlarla mühakimə etməyə hazırlaşır. Halbuki Dilqəmlə Şahbazın saxlandığı rayon saxta "DQR"in ərazisinə belə daxil deyil.

Ancaq nə olsun, əlimiz bu quldur-reket birləşmələrinə hələ ki çatmır. Ərazimizə soxulan işğalçı qruplaşma iki günahsız vətəndaşımız üzərində öz "qanunları" əsasında uydurma mühakimə təşkil eləmək istəyir. Bu, təbii ki, məhkəmə deyil, əksinə, məhkəmə adına, hüququn özünə həqarətdir, lap dəqiqi, haqq-hesab çəkməkdir, Azərbaycan torpaqlarında azərbaycanlılar üzərində, Azərbaycanda Azərbaycan üzərində, tanınmayan bir qurumun BMT üzvü, tanınan bir dövlət üzərində məhkəmə qurmasıdır.

Təbii ki, həm də siyasi məsələdir. Separatçı rejimin öz varlığını bu yolla dünyaya tanıtmağın, guya bölgədə daha bir erməni dövlətinin baş tutduğunu nümayiş etdirməyin növbəti cəhdidir. Bu üzdən erməni tərəfinin "proses"i maksimum uzadacağı və ondan özünü reklam üçün yararlanacağı şübhə doğurmur. O da qətiyyən istisna deyil ki, "məhkəmə"dən sonra separatçı rejim soydaşlarımızla bağlı rəsmi Bakını məhz Xankəndinə müraciətə vadar eləməklə presedent yaratmağa, Azərbaycanı fakt qarşısında qoymağa ümid edir.

Amma mümkünmü? Saxta qurumun, dünya birliyinin tanımadığı bir "dövlət"in çıxardığı məhkəmə hökmü də qeyri-legitim sayılacaq və tanınmayacaq. Belə bir rejimlə hüquqi yazışma, üstəlik, ona xahiş-minnətdə bulunma onu tanımağa bərabər olardı. Azərbaycan məsələnin məhz bu tərəfindən - legitimlik amilindən möhkəm yapışıb indidən prosesi pozmağa, yaxud dayandırmağa çalışmalıdır.

Vasitələr müxtəlif ola bilər: 1. Məsələ ciddi şəkildə Minsk Qrupu həmsədrləri qarşısında qoyula bilər. 2. İşin Avropa Məhkəməsinə verilməsinə çalışıla bilər. 3. Sərt tələblər irəli sürülə bilər ki, əgər öz ölkəsində, öz doğmalarının məzarlarını ziyarətə gedərkən saxlanılan və işgəncələrə məruz qalan, biri öldürülən, yerdə qalan iki azərbaycanlı üzərində isə başlayacaq qondarma və qeyri-legitim proses dayandırılmasa Ermənistanla, onun prezidenti ilə hər hansı danışıq aparılmayacaq. O sırada Serj Sərkisyanla bu ayın axırı Parisdə nəzərdə tutulan görüşdən imtina da oluna bilər. 4. Şahbaz Quliyevin Rusiya vətəndaşı olduğunu nəzərə alıb məsləyə Rusiyanın fəal müdaxiləsinə nail oluna bilər və s.

Azərbaycan dövləti bütün mümkün vasitələrlə qətiyyət göstərib münaqişə tarixində üzləşdiyi ilk belə yuridik sınaqdan qalib kimi çıxmağı bacarmalıdır. Çünki bu, ondan ötrü öncəliklə nüfuz və prinsip məsələsidir. Azərbaycan gerçəksən də bölgənin ən qüdrətli, favorit dövlətidirsə, o zaman tezliklə öz vətəndaşlarına sahib çıxmağı bacarmalı, real nəticəyə nail olmalıdır.

Hər şey qırağa dursun, axı söhbət erməni girovluğunda olan iki azərbaycanlının taleyindən, onların yolunu gözləyən insanların üzüntülərindən gedir. Separatçı rejimin incə şəkildə düşünülmüş bu məkrli məhkəmə tamaşası, özbaşınalığı hər vəchlə durdurulmalıdır.

Azərbaycanın buna siyasi-diplomatik potensialı çatar. Necə ki, Xankəndindəki Xocalı aeroportu məsələsində erməni tərəfinin arzusu gözündə qoyuldu, necə ki, Ramil Səfərov məsələsində dövlət öz əzmini göstərdi, Dilqəm-Şahbaz sınağından da o, üzü-ağ çıxmalıdır. Vaxt gedir.

YENİ MÜSAVAT
N 249 (5958) 9 oktyabr 2014

**Müsavat Partiyasının son qurultayı və başqanlıq seçkiləri hələ də siyasi gündəmin əsas mövzularından biridir. Başqanlığa namizəd Qubad İbadoğlunun və onun tərəfdarlarının seçkilərlə bağlı iradları, eləcə də qarşı tərəfin buna cavabları ittiham səviyyəsində davam edir. "Yeni Müsavat"ın ötən sayında Müsavat başqanı Arif Hacılı bunlarla bağlı danışıb.**



# "Müsavat dəyişməsə, bu hakimiyyət dəyişməyəcək"

## Qubad İbadoğlu: "6 oktyabr toplantısını təyin etməsəydim, bəlkə də hər gün onlarla insan Müsavat Partiyasından istefa verərdi"

### "Bizi partiyadan çıxarmaq istəyirlərsə, buyurub çıxarsınlar"

*Bu dəfə isə redaksiyamızın qonağı olan Q.İbadoğlu son proseslər haqda danışdı və ünvanına söylənən ittihamlara cavab verdi.*

***- Qubad bəy, qurultay sonrası müzakirələr davam edir. Fikir atışmaları, mesajlar... Bir sözlə, təzyiq yüksəlib. Əslində bütün bunların səbəbi seçki nəticələrindən narazı qalmanızdır?***

- Problem ondan ibarətdir ki, biz Müsavat Partiyasında status - kvonun saxlanmasında maraqlı deyilik. Mənim də Müsavat başqanlığına namizədliyinə qoşulmağımın əsas səbəbi bu idi ki, uzun müddətdi, partiya içərisində verdiyimiz təkliflər müzakirəyə çıxarılmırdı. Mən də bu şərtlərlə razılaşıb, partiya daxilində fəaliyyətimi Divan üzvü olaraq davam etdirirdim. Qərarlarımızın bəziləri müavinlikdə həll olunmuş məsələlərin üzərində qurulurdu. Düşündüm ki, yeni siyasi platforma ilə başqanlıq yarışına girim. Qazanmaq şansım da yüksək idi. Seçki gününə qədər də mənim seçilmə şansımı yüksək qiymətləndirirdilər, yerlərdən də kifayət qədər dəstək qazanmışdıq. Seçki günü də müəyyən qüsurlar oldu, ədalətlilik prinsipi pozuldu. Müsavat başqanlığında müəyyən nəticə alındı. İndi isə Müsavat Partiyasında fəaliyyətimizi davam etdirmək niyyətindəyik. Biz istəyirik ki, bizim təkliflərimiz nəzərə alınmaqla, Müsavat Partiyasının yeniləşməsi, güclənməsi üçün bu prosesə cəlb olunaq. İki məqsədimiz var:

1. Göstərmək istəyirik ki, Müsavat Partiyasına mənafe məqsədilə gəlməmişik, məqsəd yalnız Müsavat başqanlığına gəlmək deyildi, məqsəd həm də onun güclənməsinə töhfə vermək idi.

2. Hətta mən Müsavat Partiyasında sıravi üzv olsam da, onun fəaliyyətinə töhfə vermək əzmindəyəm. Mənim hazırladığım 5 bəndlik təkliflər paketi mənə dəstək olmuş qurultay nümayəndələrinin iştirakı ilə müzakirəyə çıxarıldı. Qərara gəldik ki, bunu partiya rəhbərliyinə təqdim edək, eyni zamanda rəhbərliyə onu dəyərləndirmək üçün vaxt ayıraq. Bu, normal bir şeydir. Niyə 3 ay vaxt nəzərdə tutulub? Çünki 3 ay sonra yeni il başlanır və təkliflərimizin yeni ildən reallaşması daha yaxşı olar. Təkliflərin bir qismi idarəçiliklə, bir qismi partiyanın gələcək fəaliyyətinin müəyyənləşdirilməsi ilə bağlıdır. Gələcək siyasəti ilə bağlı istəyirik ki, bir analitik mərkəz formalaşdırılsın.

***- Təkliflərlə yanaşı, seçkinin pozuntularla müşayiət olunması ilə bağlı dediyiniz iradlar da var və bu, heç də sadə iddia deyil.***

- Biz fikirləşdik ki, bu da demokratik prosedurlardan biridir. Mən onsuz da əvvəldən bilirdim ki, Müsavat ideal seçki keçirə bilməyəcək. Çünki ideal seçki keçirmək üçün bizdə o mühit yoxdur, insanlarımız da buna hazır deyil. Amma fikirləşirdim ki, Müsavatın seçkisi başqa seçkilərə örnək olacaq... Seçki günü seçkiyə haram qatan kifayət qədər faktlar var əlimizdə.

***- Video və audiogörüntülər...?***

- Bəli, video, audiogörüntülər, fotolar. Bunu biz Müsavat qərargahında öz tərəfdarlarımızın iştirakı ilə nümayiş etdirmişik. Seçkinin gizliliyi pozulub. Səsvermə tək deyil, birgə aparılıb. Bunlar hamısı çəkilib. Elə video var ki, seçki komissiyasının üzvü Gülağa Aslanlı zala daxil olur və görür ki, zalda adamlar səs verir. Onları səsləyir ki, gedin, kabinələrdə səs verin. Görüntülər var ki, kabinələrdə bir yox, iki-iki səsvermələr olub. Bunlar inkarolunan faktlar deyil. Seçkinin nəticəsi də bəllidir. Arif Hacılı yetərsaydan 3 səs artıq toplayıb. Bundan başqa, seçkidən əvvəl və seçki dövründə müəyyən antitəbliğat vasitələrindən istifadə olunub. Demokratik qaydalarda mən bunu da qəbul edirəm. Amma namizədlərdən biri haqda "bu, hökumətin adamıdır, hökumətə işləyir" təbliğatını aparmaqla müzakirəni bu müstəviyə çəkdilər. Özü də bunu o adam haqda deyirlər ki, onun bank hesabları həbsdədir, üzərində cinayət işi var. Bu, hökumətin mənə münasibətinin göstəricilərindən biridir. İkinci təbliğat da o oldu ki, İsa Qəmbər indiki şəraitdə Arif Hacılını daha məqbul namizəd hesab edir. Rayon təşkilatlarına sədrləri tərəfindən təzyiqlər oldu ki, İsa Qəmbərin namizədinə səs verin.

***- Sizin daha öncəki açıqlamalarınızda da o əhvalı hiss etmək olur ki, siz İsa Qəmbərin seçki boyunca Arif Hacılını gizli dəstəklədiyini düşünürsüz. Fikrinizcə, bu, belə idi?***

- Təbii, hiss olunurdu. İsa Qəmbər özü də bunu təsdiqlədi. Dedi ki, əgər mən açıq şəkildə dəstək versəydim, fərq böyük olardı. Bu, o deməkdir ki, gizli şəkildə dəstəyini verib. Bizim əsas narahatçılığımız ondan ibarət idi ki, İsa bəy tərəflərin heç birinə açıq şəkildə dəstək verməsin. Amma sonradan İsa Qəmbərin adından sui-istifadə hallarına yol verilənda mən bunu toplantıda da qaldırdım. Buna qarşı heç bir fəaliyyət görülmədi, daha da genişləndi. Təsirlər nəticəsində məlum nəticə ortaya qoyuldu. Hətta bununla belə, mən bu məsələnin geniş müzakirəsini istəmədim. Düşündüm ki, faktları toplayaq, qruplaşdıraq, təşkilat komitəsinin fəaliyyətində, seçki günündə baş verənləri qruplaşdırıb arayış hazırlayaq. Bunu da hazırladıq və geniş müzakirəyə yox, partiyanın strukturlarına müzakirə üçün vermək niyyətindəydik.

***- Siz seçkinin nəticələrinin ləğvini istəyirsiz?***

- Xeyr, istəmirik. Biz bu seçki pozuntularına obyektiv münasibət, qiymət tələb edirik. Məsuliyyəti olanlara partiya cəzası verilsin. Demirik ki, onları güllələsinlər, assınlar. Xəbərdarlıq etsinlər, yeri gələndə partiyadan çıxarsınlar. Biz istəyirik ki, bu, növbəti seçkilərdə təkrarlanmasın, gələcək işimizə də ziyan vurmasın. Təəssüf edirəm ki, biz dialoq təklif etdiyimiz halda qarşı tərəf heç polemikaya girmək istəmir, çox aqressiv yanaşır buna. Bizim tərəfdarlarımızla görüşə qədər onlar yazırdılar ki, Qubad İbadoğlu tərəfdarları ilə partiyadan istefa verməyə hazırlaşır. Amma biz belə fikirdə deyilik. Müsavat Partiyasının bütövlüyü naminə həmişə barışdırıcı mövqedə olmuşam. Ona görə də Müsavat Partiyasında qalıb, mübarizəmi davam etdirmək istəyirəm. Təkliflər paketi, daxili araşdırma hazırlamağımın səbəbi də məhz budur. Mən 6 oktyabr toplantısını təyin etməsəydim, bəlkə də hər gün onlarla insan Müsavat Partiyasından istefa verirdi. Onlar mənim mövqeyimi gözlədilər. Mən də onların fərdi müraciətlərinə hər zaman cavab vermişəm ki, darıxmayın, bizim qərarımız birgə olacaq. Ona görə də yığışıb qərar verdik ki, partiyanın müasirləşməsi, dəyişməsi, güclənməsi üçün təkliflər paketi hazırlayaq.

***- Sizi həm də onda ittiham edirlər ki, Müsavat Partiyasından maliyyə hesabatı tələb etməklə rəhbərliyi təhdid edirsiz...***



### "Ədalətli seçki olsaydı, mən uduzmayacaqdım"

- Mənim elə siyasi platformamda da var idi ki, mən partiyanın başqanı seçiləndə partiyanın fəaliyyətində şəffaf və hesabatlılıq məsələsini ön plana çəkəcəm. Çünki 10 ildən artıqdır ki, Azərbaycanda şəffaflığın artırılması ilə bağlı mübarizə aparıram. Mən Beynəlxalq Şəffaflıq Təşəbbüsünün İdarə Heyətinin üzvüyəm. Əsas partiyanın maliyyəsi üzvlük haqlarından formalaşır. Mən özüm də üzvlük haqqı verən üzvlərdən olmuşam. Amma mənə heç vaxt hesabat verməyiblər ki, bu alınan maliyyə hara və nəyə xərclənir. Bunu bilmək istəyərəm. Demirəm ki, burda böyük maliyyədən söhbət gedir. Amma biz bilməliyik ki, partiyaya verdiyimiz vəsait hara xərclənir.

***- Amma gəlin etiraf edək ki, bu mənzərənin özü hakimiyyətin əlinə oynayır. Hakimiyyət öz media orqanlarında bundan Müsavat, müxalifət əleyhinə istifadə edir və cəmiyyətə də "bizi qeyri-demokratik seçki keçirməkdə ittiham edənlər özləri normal seçki keçirə bilmir" mesajını ötürürlər. Bu, sizi narahat etmir?***

- Təbii, narahat edir. Lakin indiki halda başqa alternativ görmürəm. İllərdir bunu qapalı müzakirə etsək də, hər hansı nəticə olmayıb. İndi mən sizə sual verirəm: sizcə, Müsavatın illərdir status kvosunu saxlaması hakimiyyətin maraqlarına uyğundur, yoxsa Müsavat Partiyasının dəyişməsi, yeniləşməsi, yeni nəfəsin olması? Əvvəl-axır bu dəyişiklik baş verməlidir. Partiyadaxili diskussiyaları aşmaq lazımdır ki, hakimiyyət bundan istifadə edə bilməsin. Biz nə təklif edirik? Deyirik ki, oturaq, Müsavatın indiyə qədər qapalı qapı arxasında gedən müzakirələri davam etdirək. Müzakirəyə, təkliflərimizə qeyri-adekvat yanaşırlar, ittiham edirlər. Yaxşı, biz neyləyək? Başqanlığa namizədlərin çıxışına baxın, görün kimin hakimiyyətə münasibəti necədir.

***- Son müsahibələrinizdən birində "qardaşlar məsələsi"nə toxunmusuz. Daha doğrusu, iradlarınıza Arif Hacılının qardaşları tərəfindən cavab verilməsinə... Hətta Müsavatın ailə partiyasına çevriləcəyi ilə bağlı narahatlığınızı da bölüşmüsüz. Konkret nədən gedir söhbət?***

- Müsavat Partiyasında bir ailənin üzvü olan bir neçə nəfər var. Ən yaxşı nümunə Abbaslı ailəsidir. Başxanım müəllimə, özü, uşaqları... Amma mən bir dəfə görmədim ki, Tural Abbaslı ilə bağlı məsələyə Başxanım müəllimənin münasibəti olsun. Halbuki indi ailə üzvü olub da, Müsavat Partiyasının üzvü olmayan şəxslər mənim və tərəfdarlarım tərəfindən verilən hər bir açıqlamaya sosial şəbəkə və mətbuatda reaksiya verirlər.

***- Demokratiya bunu tələb etmir? Müzakirəyə qoşulmaq üçün mütləq Müsavat üzvü olmaq lazım deyil axı..***

- Bilirsiz, Müsavat üzvü olanın qeydlərini biz ailədən olsa da, nəzərə almağa, polemikaya çevirməyə hazırıq. Amma partiyanın üzvü olmayan, partiyadan kənarda durub, onun idarəçiliyinə qarışan şəxslərin fikirlərinə münasibət bildirmək istəmirik.

***- Söhbət Arif Hacılının Əhrar Partiyasının sədri olan qardaşı Vaqif Hacıbəylidən gedir, hə?***

- Bəli. O, başqa bir partiyanın sədridir. Bu da partiyanın nüfuzuna xələl gətirir. Müsavatı belə təqdim eləmək olmaz. Çünki o, bir ailənin, kəsimin partiyası olmayıb.

***- Qubad bəy, mübarizədə hara qədər gedəcəksiz?***

- Biz mübarizəmizi davam edəcəyik. Partiyadan çıxmaq niyyətində deyilik. Bizim mübarizəmiz Müsavatın güclənməsi ilə bağlıdır. Hələ də ümidlərimizi itirməmişik. Güman edirik ki, qarşı tərəf hələ də emosiyaların təsiri altındadır, 6 oktyabr toplantısından sonra müəyyən bir isterika keçirir. Düşünürük ki, bir müddət lazım ola bilər. Bir müddətdən sonra görəcəklər ki, haqsızdılar, müzakirələr üçün imkan yaradacaqlar.

***- Arif Hacılı "Yeni Müsavat"a son müsahibəsində partiyanın iradəsi ilə hesablaşmayanların cəzalandırılma ehtimalını da istisna etməyib. Bu cəzalandırılma partiya sıralarından çıxarılma ola bilər?***

- Bizi partiyadan çıxarmaq istəyirlərsə, buyurub çıxarsınlar. Ona görə də mübarizəmizi aparacağıq. Təəssüf ki, belə fikirlər təkcə Arif Hacılıya məxsus deyil. Partiyanın müəyyən strukturlarında təmsil olunanlar da düşünürlər ki, onların fikirləri ilə razılaşmayanlar partiyadan çıxarılmalıdır. Bununla nəyə nail olacaqlar? Göstərəcəklər ki, bu hakimiyyətlə aralarında bir fərq yoxdur. Hər ikisi plüralizmə, fikir ayrılığına qarşıdır.

***- Nə zamansa Arif Hacılını başqanınız olaraq qəbul etmə ehtimalı yoxdurmu? Məsələn, araşdırmalarınız yekunlaşandan sonra və əgər qarşı tərəfin əks-arqumentləri güclüdürsə...***

- Biz deyirik ki, seçki pozuntuları ilə bağlı əlimizdə faktlar var, bunu araşdırın. O araşdırma və izahatlar bizi qane edəcəksə, daha tutarlı faktları varsa, ortaya qoysunlar.

***- Qane etsə...?***

- Qane etsə, təkliflərimiz qəbul olunsa, Müsavat Partiyası ilə əməkdaşlıq üçün açıq və hazırıq. Bizim Müsavat Partiyasını parçalamaq, zəiflətmək niyyətimiz yoxdur. Əksinə, onu gücləndirib, xalqla yaxınlaşdırmaq məqsədimiz var.

***- Çox adam düşünür ki, Qubad İbadoğlu Müsavat başqanlığına namizədliyini verməklə hakimiyyətin layihəsini oynadı və... uduzdu...***

- Hər halda, hesab edirəm ki, ədalətli seçki olsaydı, mən uduzmayacaqdım. Ədalətli, azad seçkilərdə mən uduzmağı da şərəf hesab edirəm. Amma seçki günü və ondan sonra baş verənlərdən məyusluq keçirdik. Biz iddia etmirik ki, səslər səhv sayılıb, Arif Hacılının səsini Qubad İbadoğluna sayıblar və ya əksinə. Səslərin sayılması şəffaf olub, media onu müşahidə edib. Sadəcə bizim əlimizdə audio, videogörüntülər var, onların araşdırılmasını istəyirik. Arayışı hazırlamışıq, ayın 10-da təqdim edəcəyik. Mən mübarizəmi davam edir. Mübarizəm Müsavatın başqanı olmaq uğrunda yox, Müsavatın dəyişməsi, güclənməsi, yeniləşməsi uğrundadır. Çünki Müsavat Partiyasından xalqın böyük gözləntisi var. Müsavat dəyişməsə, bu hakimiyyət dəyişməyəcək. Azərbaycanda ilk növbədə dəyişiklik Müsavatdan başlanmalıdır.

**Sevinc TELMANQIZI**

# Deputat haqq qoydu; 9 manat + 30 litr

**Nəqliyyat naziri Ziya Məmmədovun deputat qardaşı Elton Məmmədova məxsus Bakı Beynəlxalq Avtovağzal Kompleksində əməlli-başlı üsyan yetişir.**
**Bu barədə “Yeni Müsavat”a avtovağzalda çalışan əməkdaşlar məlumat veriblər. Onların sözlərinə görə, avtovağzaldan rayonlara işləyən avtobusların və taksilərin sürücülərinə yeni haqq qoyulub.**



# Elton Məmmədov Bakı Avtovağzalında üsyan yetişdirir

## Nəqliyyat nazirinin qardaşı sürücülərdən hər gün maşınlarını ona məxsus avtoyuma məntəqəsində yudurtmağı və yanacağı onun “zapravka”sından doldurmağı tələb edir; bundan narazı qalanlar etirazlara hazırlaşırlar, ciddi aksiyalar gözlənilir

Bakı Beynəlxalq Avtovağzal Kompleksi E.Məmmədovun təsisçisi olduğu “Bakı XXI Əsr” MMC-nin sifarişi ilə inşa olunub və bu MMC tərəfindən idarə edilir. Kompleksin daxilində başqa obyektlərlə yanaşı, “Bakı XXI Əsr” MMC adlı yanacaqdoldurma, avto yuma və təmir məntəqələri də fəaliyyət göstərir.

İrili-xırdalı bütün maşınların, avtobusların sürücülərinə tapşırıq verilib ki, avtonəqliyyat vasitəsinin təmiz olub-olmamasından asılı olmayaraq, hər gün avtovağzala girərkən “Bakı XXI Əsr” MMC-nin ofisinə onların həmin avto yuma məntəqəsində yuduzdurulmasına dair qəbz təqdim etsinlər.

Bu qəbzin qiyməti isə 9 manatdır. Amma sürücülərə qoyulan haqq bununla bitmir. Onlardan həmçinin hər reys öncəsi “Bakı XXI Əsr” MMC-yə məxsus yanacaq doldurma məntəqəsindən 30 litr yanacaq dolduraraq, onun qəbzini ofisə təqdim etmək tələb olunur. Bundan əlavə, taksi və avtobus sürücüləri rayonlara çıxarkən hər reys öncəsi ofisə bir neçə manat ödəyirlər.

Bu isə sürücülərdə ciddi narazılıq yaradıb. Əsasən də onlar kompleksin ərazisində fəaliyyət göstərən yanacaqdoldurma məntəqəsindəki yanacağın keyfiyyətindən narazıdırlar. Sürücülərin sözlərinə görə, həmin yanacaqdoldurma məntəqəsindəki yanacağın keyfiyyəti çox aşağıdır. Amma sürücülər hər reys qabağı həmin məntəqədən 30 litr yanacaq doldurmağa məcbur edilirlər. Keyfiyyətsiz yanacaq isə onların maşınlarının mühərrikində, digər detallarında ciddi problemlər yaradır, sürücüləri əlavə xərcə salır. Sürücülər “Yeni Müsavat”ın müxbirinə bildirirlər ki, bütün bunlara görə avtovağzalda dözülməz şərait və ciddi narazılıq yaranıb. Onlar bununla bağlı dəfələrlə “Bakı XXI Əsr” MMC-nin rəhbərliyinə müraciət etsələr də, qoyulan tələblər aradan qaldırılmayıb.

Buna görə də sürücülərin narazılıqları üsyan həddinə çatıb. Sürücülər son hədd kimi tətilə və etiraz aksiyalarına başlamaq yolunu seçiblər. Yaxın vaxtlarda avtovağzalda ciddi aksiyaların olacağı gözlənilir.

Qeyd edək ki, əvvəllər də avtovağzalda bir sıra ciddi problemlər olub.

Bakı Beynəlxalq Avtovağzal Kompleksini idarə edən və deputat Elton Quliyevə məxsus “Bakı XXI Əsr” MMC ofşor zona sayılan Böyük Britaniyanın Vircin adalarında qeydiyyatdan keçib. Bu fakt AzadlıqRadiosunun araşdırmalarının nəticəsində ortaya çıxmışdı.

Məlumat üçün qeyd edək ki, Vircin adaları dünyada mövcud olan ofşor zonalardan biridir.

Ofşor vergidən tamamilə azad olunmuş və nəzarəti zəif olan zonalardır. Burada qanunvericilik həm şirkətin təsisçilərini, həm də maliyyə mənbələrini gizlətməyə imkan verir. Beynəlxalq hesabatlarda maliyyəsi narkotik, silah alveri və çirkli pulların yuyulmasından əldə edilən şirkətlərin ofşor zonalarda qeydiyyatdan keçdiyi bildirilir.

E.Məmmədov özü də mətbuata açıqlamasında “Bakı XXI Əsr” MMC-nin təsisçisi olduğunu təsdiqləyib. “Bakı XXI Əsr” MMC isə sırf biznes, qazanc əldə etmək məqsədilə təsis olunub və hazırda da bu işlə məşğuldur, böyük layihələr həyata keçirir. Hansı ki, qanunla deputatın bizneslə məşğul olması qadağandır.

E.Quliyev deyib ki, deputat kimi kommersiya fəaliyyəti ilə məşğul ola bilməsə də, hansısa bir şirkət təsis etməsində heç bir problem yoxdur.

Şirkətin niyə Vircinya adalarında qeydiyyatdan keçməsinə gəlincə, deputat deyib ki, burda heç bir problem yoxdur. Beynəlxalq hüquq çərçivəsində şirkət qeydiyyata alınıb. Deputat şirkətin başqa təsisçilərinin olduğunu desə də, onların adını açıqlamaqdan imtina edib. Hələ “əl-Cəzirə” telekanalının 2009-cu ildə yaydığı məlumata görə, 80 milyon dollara başa gələn Bakı Beynəlxalq Avtovağzal Kompleksinin daxilində 1500 mağazadan ibarət ticarət mərkəzi, irili-xırdalı onlarla kafe, “Comfort İNN” hoteli, 720 yerlik avto dayanacaq və digər obyektlər fəaliyyət göstərir.

E.Məmmədov qanunları ciddi şəkildə pozaraq hər il bu obyektlərdən milyonlarla manat qazanc əldə edir.

Üstəlik də, onun adamları orada çalışan sürücülərin boynuna zorla haqq qoyurlar, onlardan qanunsuz pullar alırlar.

**Mövzunu diqqətdə saxlayacağıq.**

**Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

❑ **Teymur HƏSƏNLİ**

# Səfər Əbiyevin köməkçisinin kodlaşmış biznes obyektləri...

## Elçin Xəlilov hərbi hissəyə ayrılan mal-materialları özünün biznes strukturlarına daşıtdırırmış

**Sabiq müdafiə naziri Səfər Əbiyevin köməkçisi, ictimaiyyətin zəlzələşünas alim kimi tanıdığı “N” saylı məxfi hərbi hissənin sabiq komandiri Elçin Xəlilovun korrupsiya əməlləri haqda yeni detallar ortaya çıxıb. E.Xəlilov Cinayət Məcəlləsinin 308.2. və 179.3.2. maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək Respublika Hərbi Prokurorluğunun təqdimatı əsasında barəsində üç ay müddətinə həbs-qətimkan tədbiri seçilib.**

Analitik.az xəbər verir ki, elmi fəaliyyət sahəsində yüksək titullara malik E.Xəlilovun uzun müddət cavabdeh olduğu sahəyə nə MN-dən, nə də Hərbi Prokurorluqdan heç kimsə müdaxilə etməyib. Buna səbəb kimi, onun keçmiş nazir S.Əbiyevlə çox yaxın, xüsusilə “özəl münasibətlərinin” olması göstərilir. E.Xəlilovun tabeliyinə aldığı hərbi hissənin bütün maliyyə-texniki fəaliyyətini yalnız özü yönəltməsi, illərlə MN-dən bu hissəyə adi yoxlamanın belə gəlməməsi onun “toxunulmazlığı”nın təminatı olub. Zakir Həsənovun müdafiə naziri təyin olunmasından az sonra E.Xəlilovun paxırları açıldı...

E.Xəlilovun tabeliyindəkilərə “məxfi”, “xüsusi əhəmiyyətli” kimi təqdim etdiyi fəaliyyətinin əslində dövlət əmlakını mənimsəmə, talama və vəzifədən sui-istifadədən başqa bir şey olmadığı məlum oldu.

Rəsmi ittihama görə, Elçin Xəlilov Müdafiə Nazirliyinin Elmi-Tədqiqat Mərkəzinə rəhbərlik etdiyi müddət ərzində vəzifə səlahiyyətlərini aşmaqla külli miqdarda dövlət əmlakını talayıb. Bu, hələ 2013-cü ilin yay aylarında baş vermişdi. Məlumata görə, fəaliyyəti dövründə E.Xəlilovun dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına öz şəxsi biznesini qurmaq, mal-materialın, avadanlıqların şəxsi məqsədləri üçün istifadə etmək halları aşkar olunub. Tabeliyində olanlar belə onun əslində hansı fəaliyyətlə


Elçin Xəlilov

məşğul olduğunu, hərbi hissələrdən əmlak və avadanlıqların tapşırılan istiqamətlərə nə məqsədlə aparıldığını bilmirlərmiş. Bunun hesabatını ondan soruşan olmayıb. Əyninə hərbi forma geyinməsə də, tabeliyində olanlar ona “polkovnik”, bəziləri isə “general” deyə, müraciət edirmişlər. Nazirlə xüsusi yaxınlığından əlavə, adlı-sanlı alimin “çox mühüm” bir şəxs olduğu və rəhbərlik etdiyi sahədə verdiyi tapşırıqların sözsüz icra olunduğu bildirilir. Bakı şəhərinin və respublikanın müxtəlif yerlərində dövlətə məxsus obyektlərin şəxsi məqsədləri üçün istifadə edildiyinə dair məlumatlar var. E.Xəlilov bu obyektləri xüsusi adlarla kodlaşdırıbmış. “Gəmi”, “Qusar”, “Zəlzələ-1", ”Zəlzələ-2", “Dəniz”, “Çaykənarı” və s. kod adları ilə işarələnən məntəqələr, sən demə, E.Xəlilovun və qohumlarının şəxsi obyektlərinin, biznes qurumlarının yerləşdiyi məkanlar imiş... “Komandir”in tapşırığı ilə tikinti materialları, avadanlıqların daşındığı “obyektlər”in onun özünə və qohumlarına məxsus evlər, villalar və biznes obyektləri olduğu yoxlamadan sonra üzə çıxıb.

Onun özünə yaxın buraxdığı 1-2 nəfər olub ki, “obyekt”lərin əsl təyinatını bildiklərindən, işlərin bölgüsünü, avadanlıqların daşınmasını məhz onlar həyata keçiriblər. Müdafiə Nazirliyinin yoxlama materiallarının prokurorluğa təqdim edilməsindən sonra isə həmin adamlar da “yoxa çıxıb”lar. E.Xəlilov onlara bir müddət “gözdən uzaq” olmağı tapşıraraq, özünün bütün məsələləri yoluna qoyacağını vəd edib...

Məlumata görə, həbsindən 2 ay əvvəl Müdafiə Nazirliyinə dəvət olunan E.Xəlilova nazirliyin daxili yoxlaması nəticəsində rəhbərlik etdiyi hərbi hissədə 3 milyon manata yaxın yeyintinin olması bildirilib.

❑ **E.HÜSEYNOV**

# İnsanlığın ulduz saatı



**Hüseynbala SƏLİMOV**

**Hər dəfə Nobel mükafatı təqdim olunmağa başlayanda adama elə gəlir ki, bəşəriyyət irəliyə doğru daha bir addım atır. Ona görə ki, Nobel mükafatı bir növ böyük kəşflərin təsdiqi, hamı tərəfindən etiraf və qəbul olunmasıdır...**

Bu vaxta qədər Nobel komitəsi cəmi bir dəfə səhv edib - belə ki, mükafat alan elmi kəşflərdən biri elmin sonrakı inkişafı nəticəsində rədd edilib, kəşfin yanlış olduğu bəlli olub. Digər hallarda isə buna təsadüf olunmayıb...

Biz Nobel mükafatının həmişə elmi tərəfindən söhbət açırıq. Bu da təbiidir, o səbəbdən ki, Nobel komitəsinin qərarından sonra biz də özümüz üçün yeni ədiblərin və alimlərin adlarını kəşf edirik...

Amma bu prosesin başqa tərəfi də var. Ona görə də təsadüfən bu yazını oxuyacaq (hərçənd buna heç inanmırıq) iş adamlarına bəri başdan bir sual və bir ismarış ünvanlamaq istərdik. Siz adınızın əbədiləşməsini istəyirsinizmi?

Bilirsiniz, adama qalan bu dünyada qoyub getdiyi addır-son anda bu dünyadan heç kim özü ilə heç nə aparmır...

Nobel əgər bu mükafatı təsis etməsəydi, ola bilsin, tarixdə epizodik olaraq anılacaqdı. Amma indi hər il yüzlərlə adam bu adın təntənəsinə toplaşır. Özü də indi dünyada tək Nobel mükafatı məşhur deyil. Çoxlu sayda digər mükafatlar da təsis olunub.

Hər bir varlı adam, iş adamı adını bu formada əbədiləşdirə bilər. Yetər ki, bu işi səlahiyyətli bir qrupa həvalə etsin. Maraq üçün deyək ki, hətta Ermənistanda da akademik Viktor Ambartsumyanın adına iki ildən bir təqdim olunan beynəlxalq mükafat təsis edilib.

Üstəlik, rusiyalı milyardçılar da tədricən özlərini bu sferada sınamaq istəyirlər. Ötən il onlardan biri fundamental fizika sahəsində beynəlxalq mükafat təsis etmişdi.

Amma bu işin bir incəliyi də var - belə təşəbbüslər ardıcıl olmalıdır ki, epizodik xarakter daşımasın, bir növ, oturuşa bilsin. Həvəsə düşən və şöhrət axtaran çox olur. Amma çox az mükafat da öz təsdiqini tapır...

Bu, məsələnin bir tərəfidir. Digər tərəfi odur ki, bu vaxta qədər yalnız iki müsəlman alimi-pakistanlı fizik və misirli kimyaçı Nobel mükafatına layiq görülüb. Amma 113 il ərzində bu, olduqca azdır desək, yəqin ki, bir o qədər də ifrata varmarıq...

Bəzən bu faktın “şit”, bayağı izahlarına təsadüf edirsən. Amma onların heç biri normal məntiq qarşısında duruş gətirmir. Bu faktın əslində bir izahı var və onu da açıq demək lazımdır: təəssüf ki, müsəlman ölkələrində elmə yetərincə diqqət ayırmırlar...

Deyilənə görə, ərəb xəlifələrindən biri İsgəndəriyyə kitabxanasını yandırmaq əmrini verərkən deyibmiş ki, əgər orada yazılanlar Quranda varsa, onda onlara ehtiyac yoxdur, əgər orada yazılanlar Quranda yoxdursa onlara, ümumiyyətlə, ehtiyac yoxdur...

Təbii ki, bu, yüz illər bundan əvvəl olub. Amma münasibət çox az dəyişib. Varlı müsəlman ölkələri varmı? Var. Bəs onda problem nədədir? Ondadır ki, elmə ehtiyac görmürlər, fikirləşirlər ki, neft-qaz əbədi olacaq...

Bəzi ölkələrdə elmin rüşeymləri var. Azərbaycan da belələrindəndir. Amma o, hansı gündədir? Azərbaycanlı alimlər arasında hətta NATO-nun elmi qrantlarını alanlar var. Amma ümumi fon çox bərbaddır. Bu yaxınlarda teleşouların birində bir akademik və bir professor üzərriyin fövqəlgücü haqqındakı “mülahizə”lərini zorla bir psixoloqa sırımağa, ona təlqin etməyə və tamaşaçıları inandırmağa çalışırdılar ki, üzərrikdə qeyri-adi qabiliyyət var...

Bu kadrlara baxanda, doğrusu, bir qədər utanc hissi keçirdim. Amma bunun özü də bir dərs idi. Bəlkə bundan sonra azərbaycanlı jurnalistlərin Bakı neftinin sayəsində varlanmış Nobelin adına təsis olunan mükfatdan niyə birini bizim azərbaycanlı alimlərə verilmədiyi haqda gileylərini az eşidərik...

Amma bütövlükdə isə Nobel mükafatlarını alanların adlarının açıqlandığı gün bəlkə də bəşəriyyətin ulduz saatıdır. Bu günlərdə hamımız bir boy ucalırıq və özümüzün bəşəriyyətə aid olmağımızdan qürur duyuruq...

Amma hər millət özünə bir sual da verməlidir: biz bəşəriyyət üçün nə etmişik? Bəşəriyyətin elm və bilik xəzinəsini nə qədər zənginləşdirmişik?

Yoxsa bəşəriyyətin nano-texnologiyaların sirlərinə vaqif olmağa çalışdığı bir vaxtda müsəlmanların alnına hələ uzun müddət üzərriyin “fiziki- kimyəvi xassələr”ini araşdırmaq yazılıb?..



# İsa bəyin peşmançılığı

Elşad PAŞASOY
epashasoy@yahoo.com

## Və ya təyyarə kimi Bakı

**Adam hərdən düşünür ki, sanki birilərinin məqsədi sürətlə bu ölkəni həm onun vətəndaşlarının, həm də xaricilərin gözündən salmaqdır. Daha nələrdə ifrata getmirlər? Qədim İçərişəhərin əsrlərdən qalma daş döşəməsini söküb müasir daş örtüklər döşəməklə, yaxud tarixi binaların üstünü qaşıyıb ağartmaqla müasir dünyaya inteqrasiya etdiklərini düşünənlər kaş ki, bir gün bunun kökündən yanlış olduğunu biləydilər...**

Gömrük ölkənin qapısıdır, orda üzləşdiyin münasibət daxil olduğun ölkə haqqında təsəvvürlərin formalaşmasında açar rolunu oynayır. Gərək Azərbaycana gələn və ya burdan gedən şəxsə ölkənin "alaqapı"sında - gömrüyündə elə münasibət göstərilsin ki, o, bir daha bu ölkəyə dönmək istəsin, şairin "cənnət görmək istəyən Azərbaycana gəlsin" sözlərini eşidəndə ən azı ironiyalı təbəssüm nümayiş etdirməsin.

Baş redaktorumuz Rauf Arifoğlunun Bakı aeroportunda üzləşdiyi situasiya barədə feysbuk statusu əslində ciddi bir probleme işıq salıb. "Gömrükçülər ovçu kimi marığa yatıb...Başqa harada var, təyyarədən düşənləri *(əşyalarını və həm də özlərini)* yoxlayıb şəhərə buraxmaq? Bəzilərini iki dəfə aparatdan keçirib, sonra da əl detektoru ilə diqqətlə yoxlayırlar. Bakı da təyyarədi?".

Bu statusun sonunda sadəcə "şərsiz" yazmaq da olardı. Çünki iqtidardakıların sevdiyi ifadə ilə desək, analoqu olmayan hadisədir. Xarici ölkədə hərtərəfli, özü də "ovçu kimi marığa yatanlar" tərəfindən yox, normal, mədəni formada yoxlanandan sonra təyyarəyə minirsən, Bakıya eniş edib yenidən kəmərini çıxarır, ayaqqabılarına kimi soyunursan...Bu, nə deməkdir? Allah eləməmiş, kiminsə terror niyyəti olsa, elə bunu təyyarədə həyata keçirər, daha niyə özünü tələyə salsın. Yaxud ölkəyə hansısa təhlükə yaratmaq istəyən şəxs daha ayaqqabısında bomba daşımaq ki...

Mümkündür ki, kimlərsə ölkəyə qızıl-zinət əşyaları, yaxud brilyant daşınmasından ehtiyatlanır, axı hər şey monopoliyadadır. Ancaq bununla bağlı yoxlamaları da normal şəkildə, insanı incitmədən, onun heysiyyatına toxunmadan, məxfi formada həyata keçirmək mümkündür. Müasir texnikanın bu qədər inkişaf etdiyi dövrdə nəsə axtarmaq üçün mütləqmi ayaqqabını soyundurub camaatın corablarının rənginə baxmaq lazımdır? Axı biz inkişaf etmiş ölkəyik, kosmosa ikinci peykimizi göndərməyə hazırlaşırıq, ölkənin girişində bu cür davranmağımız bizi tanımağa gələn əcnəbiləri xəyal qırıqlığına uğradır.

Bayaq Rauf Arifoğlunun statusunun əslində şərhə ehtiyac olmadığını qeyd etmişdim. Ancaq şərhlər bölümündə İsa Yaşar Tezelin qeydlərini görüncə, düzü, pərt oldum. Azərbaycan Kültür Dərnəyinin başqan yardımçısı olan İsa bəy az öncə Müsavatın qurultayında iştirak etmək üçün başqan Cəmil Ünalla bərabər Bakıya gəlmiş, "Yeni Müsavat"ı da ziyarət etmişdi. Köksündə böyük Azərbaycan sevdasını daşıyan bir insanı hava limanından incik yola salmaq yumşaq desək, günahdır. İsa Yaşar Azərbaycanla Türkiyəyə fərq qoymur, bu ölkələri eyni dərəcədə sevir, insanları, elə o gömrük işçiləri ilə bərabər. Elə isə bu, nə münasibət? Baxın, Bakıdan geri dönərkən İsa bəy əl çantasındakı "Azərbaycanın 1000 mahnısı" adlı kitaba görə sorğu-suala məruz qalıb. Niyə? Səbəb nəymiş? Bu kitabla bağlı suallar verəndə utanmayıblarmı? Sonra da deyirik erməni diasporu belə güclüdür, ermənilər daha çox təbliğ olunur...Sonra da deyirik "Sarı gəlin" erməni mahnısı kimi təqdim olunub. Sən Azərbaycan mahnılarını təbliğ edən kitabın Türkiyəyə aparılmasına belə maneə olursansa, bu mahnıların bizə məxsus olduğundan əlbəttə, dünya xəbər tuta bilməyəcək.

Guya ki, Azərbaycanın təəssübünü çəkirlər, antikvar əşyaların xaricə aparılmasına imkan vermirlər. Novella Cəfəroğlunun bağışladığı, üstündə də etiketi olan qədəhi az qala "qaçaqmal" kimi təqdim edib müsadirə etmək istəyirmişlər. Onda İçəri Şəhərdəki antikvar dükanlarının da qapadılmasına göstəriş verilsin, əgər hədiyyə olunmasına icazə verilmirsə.

Ancaq gömrükdə baş verənlər prezidentin 4 il əvvəl (2010-cu il 6 aprel tarixli) imzaladığı 2010-2014-cü illərdə turizmin inkişafına dair dövlət proqramına qarşıdır. Həmin sənəddə milli sənətkarlıq və suvenir məhsullarının istehsalının təşviqi, xarici turistlər üçün milli mətbəx, incəsənət, sənətkarlıq və Azərbaycanın tarixi-mədəni abidələri haqqında məlumat toplusunun yaradılması və təbliği barədə konkret tapşırıqlar əksini tapmışdı. Azərbaycana gələn qonaq Bakıdan bir suvenir alırsa, bu, elə ölkəmizin xaricdə təbliğidir. Necə ki, Gürcüstana gedən ordan bir buynuz, ya xəncər gətirir, gərək gürcülər də buna qadağa qoysun ki, "buynuz antikvardır".

Və...nəticə budur. İsa Yaşar Tezel özünə söz verib: "Qismət olsa, Bakıya yenidən gəlsəm, burdan bir çöp də almayacağam..." Heç yaxşı sonuc deyil. Azərbaycandan alınan hər bir əşya həm də vətəndaşlarımız üçün əlavə qazanc deməkdir. Ən böyük itkimiz odur ki, ölkəmizi normal qiyafədə tanıtmaq imkanını əldən veririk, kimlərinsə ambisiyalarının, yarıtmaz iş fəaliyyətinin nəticəsində. Hansı ki, milyonlar xərcləyərək sərgilər, müxtəlif simpoziumlar keçirməklə ölkəmizi təqdim etməyə çalışırıq. Azərbaycanı tanımağa gələni isə ölkənin giriş-çıxış qapısında peşman edirik. İsa Yaşar demişkən "heyf, çox heyf..."

# Müsavatda cəza tədbirləri olacaq

**Müsavat Partiyasının başqanı Arif Hacılı "Yeni Müsavat"a dünənki müsahibəsində partiyada nizam-intizam qaydalarına əməl edilməli olduğunu, həmçinin nizamnamə pozuntusuna yol verilməsi hallarının müzakirəyə çıxarıla biləcəyini bildirib: "Müsavat Partiyasının ali orqanı olan qurultay seçkilərin nəticələri barədə qərar qəbul edib.**

Müsavat Partiyasının qurultayının qərarı Müsavat Partiyası üçün ən ali qərardır. Müsavat Partiyası qurultayının qərarı Müsavatın hər bir üzvünün iradəsini ifadə edir. Oktyabrın 6-da keçirilən toplantıda da bir sıra həqiqətə uyğun olmayan fikirlər səsləndirilib. Bu məsələlərlə əlaqədar da müzakirələr aparılacaq. Müsavat demokratik təşkilatdır. Biz daim plüralizmə şərait yaratmışıq, bundan sonra da belə olacaq. Ancaq su görmürəm. Kimlərsə təhqirə keçsəydi onu müzakirə edərdik. Ancaq düşünürəm ki, hətta onu da qəbul eləmək lazımdır. Çünki dünya standartı elədir ki, məsələn, Avropa Məhkəməsinin qərarlarına baxsaq ictimai diskussiyada artıq-əskik danışmaq, emosiya ilə fikirlər bildirmək olar. Əfsuslar olsun ki, bu, qaçılmazdır. Yəni bu təqdirəlayiq deolunmuş nəticələrini qəbul eləmirsə və "mənim başqanım Qubad İbadoğludur" deyirsə, bu, artıq nizamnamənin 7-ci maddəsinin pozulmasıdır. Amma həmin məsələ müzakirə olunarkən bu mövqeyi ortaya qoymuş adam yanlış mövqedə olub səhvə yol verdiyini deyirsə, bu halda həmin şəxsin partiya üzvlüyündən xaric edilməverir. MNTK da qərar verməmişdən əvvəl tərəfləri dinləməlidir. Hazırda MNTK işinə başlamayıb. Qurultayda 4 nəfər MNTK üzvü seçilib. Oktyabrın 11-də Məclisin yığıncağında yəqin ki, MNTK tam şəkildə formalaşar. MNTK 11 nəfərdən ibarət olmalıdır. Ancaq 8 nəfər seçilərsə belə, MNTK öz işinə başlaya bilər".



**Hikmət Hacızadə:** ""Nizam-intizam deyəndə hamını qorxu tutur ki, bu, "oturun aşağı" deməkdir"



**Gülağa Aslanlı:** "Növbəti Məclisdən sonra mən kimlər haqqında cəza tədbirləri görülməsinin vacibliyini bildirəcəyəm"

Müsavat Partiyasında nizam-intizam qaydalarına da əməl olunması üçün konkret tədbirlər görmək niyyətindəyik.

Hər bir Müsavat Partiyası üzvünün məhz Müsavat Partiyasının Nizamnaməsinə uyğun olaraq, qurultayın, Məclisin və Divanın qərarlarına uyğun fəaliyyət göstərməsini təmin edəcəyik".

A.Hacılının bu açıqlaması bir çoxlarında belə rəy yaradıb ki, yeni başqan nizam-intizam yaratmaq və nizamnamə pozuntusuna yol vermiş partiya üzvlərinin cəzalandırılması üçün addımlar atacaq. Bəs partiyanın tanınmış simaları bu addımlara ehtiyac duyurlarmı?

**Müsavat Məclisinin üzvü Hikmət Hacızadə hesab edir ki, nizam-intizam çox mücərrəd və təhlükəli bir məsələdir:** "Nizam-intizam deyəndə hamını qorxu tutur ki, bu "oturun aşağı" deməkdir. Amma belə baxanda nizam-intizam nizamnaməyə riayət eləməkdir. Nizamnaməyə isə hər kəs şübhəsiz ki, əməl eləməlidir. İntəhası hakim kimdir ki, sənə desin sən riayət eləyirsən, ya eləmirsən. Hələ ki Müsavatda hər şey sivil formada gedir. Etirazlar varsa da onlar sivil qaydada tərtib olunub formalaşdırılıb və təqdim olunub".

**H.Hacızadə onu da bildirdi ki, qurultaydan bu günə qədər ortaya qoyulan mövqelərdə, açıqlamalarda hələlik nizamnamə pozuntusu müşahidə etməyib:** "Mən nizamnamə pozuntuyil, amma buna görə kimisə cəzalandırmaq olmamalıdır. Yalnız dözmək lazımdır".

**Müsavat Partiyasının funksioneri Gülağa Aslanlı isə hesab edir ki, partiyanın inkişafı üçün nizam-intizam, nizamnaməyə əməl olunması vacib faktorlardandır. Hər bir partiya üzvü nizamnamənin tələblərinə əməl etməyə borcludur. Nizamnamə pozuntusuna yol verilməsi isə cəza tədbirlərini nəzərdə tutur:** "Hansı pozuntuya görə, hansı halda partiya üzvlüyündən xaric edilmənin nəzərdə tutulduğu barədə isə Mərkəzi Nəzarət Təftiş Komissiyasından daha dəqiq məlumat alınmalıdır. Çünki MNTK üzvləri təkcə nizamnamə ilə yox, MNTK-da olan təlimatlarla hərəkət edirlər. Həmin təlimatlar məndə yoxdur".

**G.Aslanlı qeyd etdi ki, nizamnamədə cəza tədbiri kimi xəbərdarlıq, töhmət və partiyadan xaric etmə tədbirləri nəzərdə tutulub:** "Hansının hansı halda tətbiq olunması ilə bağlı nizamnamədə heç bir tələb yoxdur. Bu, həmin məsələ müzakirə edilərkən nizamnamə pozuntusuna yol vermiş adamın davranışından da asılıdır. Məsələn, fərz edək ki, biri Müsavat Partiyasının Nizamnaməsinin 7-ci maddəsini pozur, həmin maddədə yazılır ki, Müsavat Partiyasının yuxarı orqanlarının qərarı özündən aşağıdakı orqanlar üçün məcburidir. Kimsə əgər Müsavatın ən ali orqanı olan qurultayın təsdiqsi məsələsi qoyulmaya bilər. Ona xəbərdarlıq və ya töhmət verilə bilər. Əgər 7-ci maddəni pozmuş adam məsələ müzakirə olunanda da mövqeyində qaldığını bəyan edərsə, bu halda MNTK-nın qərarı daha sərt şəkildə olmalıdır, həmin şəxsin partiyadan xaric olunmasına qədər cəza tətbiq edilə bilər. Bütün hallarda qərarı MNTK

**"Hesab edirsinizmi ki, artıq bəzi partiya üzvləri öz davranışları ilə partiyadan xaric olunmalarını haqq ediblər" sualına G.Aslanlı belə cavab verdi:** "Mən hesab edirəm ki, belə adamlar var. Müsavat Partiyasının növbəti Məclisindən sonra mən kimlər haqqında cəza tədbirləri görülməsinin vacibliyini bildirəcəyəm".

❑ Etibar SEYİDAĞA



# Arif Hacılı 4 müşavir təyin etdi

Oktyabrın 8-də Müsavat Partiyasının başqanı Arif Hacılı başqan müşavirlərinin təyini ilə bağlı sərəncamlar imzalayıb. Müsavat Partiyası Nizamnaməsinin 4.11-ci maddəsinə əsasən verilən sərəncamlara əsasən Müsavat Partiyası Səbayel rayon təşkilatının şura üzvü Elman Həsənəli oğlu Həsənov, Müsavat Partiyası Səbayel rayon təşkilatının şura üzvü Dadaş Rəşid oğlu Əhmədov, Müsavat Partiyası Məclisinin üzvü Cahangir Hüseyn oğlu Əmirxanlı və Müsavat Partiyası Məclisinin üzvü Azər Yavər oğlu İsmayıl Müsavat Partiyası başqanının müşavirləri təyin edilib.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 249 (5958) 9 oktyabr 2014

**Son zamanlar beynəlxalq təşkilatların Azərbaycana qarşı təzyiqləri artan tendensiya üzrə davam edir. Avropa Parlamentinin son qətnaməsinin ardınca Azərbaycan məmurlarının sanksiyalara məruz qoyulmasını təklif edənlərin sayı artır. "Freedom House" təşkilatının prezidenti Devid Kramer və ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Riçard Kozlariç Azərbaycan hakimiyyətinə sanksiyaların tətbiq edilməsinə çağırış edib. YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov "Yeni Müsavat"a kifayət qədər maraqlı detalların yer aldığı müsahibəsində təzyiqlərin mövcudluğunu etiraf etsə də, rəsmi Bakının öz yoluna davam edəcəyini söylədi.**

# YAP-çı deputatdan sensasion iddia və açıqlamalar

## "Çox böyük beynəlxalq skandal yaranacaq"

***- Siyavuş bəy, bəzi müşahidələrə görə Azərbaycana qarşı təzyiqlər sondan əvvəlki mərhələyə daxil olub və sanksiyaların bir addımlığındayıq. "Freedom House" təşkilatının prezidenti Devid Kramer və ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Riçard Kozlariç də Azərbaycan hakimiyyətinə sanksiyaların tətbiq edilməsinə çağırış edib. Vəziyyət doğrudanmı belə kritikdir?***

- Qəti şəkildə. Bu, mümkün deyil. Təbii ki, Azərbaycana təzyiq göstərmək niyyəti var. Azərbaycanın imzaladığı neft müqavilələrinin 20 illiyidir. TAP, Cənub Dəhlizi layihəsi Avropa İttifaqının iradəsindən kənar məsələdir. Bunu yeni komissar özü də qeyd elədi. Amma bununla yanaşı, Avropa İttifaqının Azərbaycanda çoxlu birgə layihələrinin olduğunu da vurğuladı. Yəni o təzyiqlər bütün məsələlərin məntiqi nəticəsidir. Azərbaycanın artan iqtisadi inkişafı, Azərbaycanda olan ictimai-siyasi sabitlik və bunu gözü götürməyənlər. Həm erməni lobbisi, həm Avropada müəyyən qüvvələr var, həm enerji sektorunda olan rəqabətin nəticəsidir.

O ki qaldı Kozlariçə, bu, kimdir, mənim başım çıxmır. Bu adam adi bir institut müəllimidir. O, vaxtilə Azərbaycanda bizneslə məşğul olmaq istəyirdi, ancaq imkan verilmədi. İstəyirdi ki, güzəştli şəkildə Azərbaycanın enerji sektorundan o da nəsə əldə eləsin. Amerika səfirlərinin bir çoxu elə Azərbaycanda qaldı və müddəti bitdikdən sonra ölkəsinə getmədi. O cümlədən başqa ölkələrin də səfirləri var ki, missiyasını başa vurandan sonra Azərbaycandan qayıtmayıblar. Onlar Azərbaycandakı şəraiti, burdakı biznes mühitini nəzərə alıb burda öz fəaliyyətlərini davam etdiriblər.

**"Bəzi qüvvələr istəyir ki, Azərbaycanı zorla dartıb antirus koalisiyasına qoşsun"**

***- Keçmiş səfir Eskuderonun YAP-a üzv qəbul olunduğu barədə də çox danışıldı...***

- Oğlu YAP-ın üzvüdür. O, birbaşa bizim Mərkəzi Aparata müraciət etmişdi, o da qəbul olunub. Səfirin özü isə... Bizdə vətəndaşlıq məsələsi var. Oğlu Azərbaycanda evlənib, biznes fəaliyyətində fəaliyyət göstərir və YAP-ın təəssübkeşidir.

***- Riçard Kozlariçlə hakimiyyət arasındakı problemin kökü hardadır?***

- Kozlariç təqribən 1997-ci ildə səfir işləyib. Onun üstündən 20 ilə yaxın vaxt keçib. Bu müddətdə Azərbaycanda olmayıb, burdakı dəyişikliklərdən məlumatı yoxdur. Sadəcə olaraq, müxtəlif şəxslərin məlumatı və özünün şəxsi qərəzi nəticəsində belə mövqe sergiləyir. Çünki enerji sektorundan bəhrələnmək istəyirdi, alınmadı deyə, bu gün Azərbaycana qarşı belə mövqe tutur və ayrı-ayrı təşkilatlardan da maliyyə dəstəyi alır.

***- Kozlariç enerji sektorundan necə bəhrələnmək istəyirdi ki?***

- O, enerji sektorunda öz adamlarını yerləşdirmək, müxtəlif layihələrdə iştirak etmək niyyətində idi. Bu da baş tutmayandan sonra Azərbaycana qarşı qərəzli mövqe tutmağa başladı. İndi də onun qərəzi açıq görünür.

***- Bakı həm Eskudero, həm Brayzaya şərait yaratdığı halda nədən Kozlariçin əməkdaşlıq təklifindən imtina edib?***

- Onların məşğul olduğu tamam başqa sahələrdir. Ancaq bunun arzu etdiyi və istədiyi sahə fərqli idi.

***- Bəlkə Kozlariç insan haqları və demokratiya məsələlərindən daha çox danışdığı üçün onunla körpülər qurmaq mümkün olmayıb...***

- O, Azərbaycanda olanda bir dəfə də olsun insan haqları və demokratiya haqqında danışmayıb. Dəfələrlə burda siyasi partiyalarla birgə, yaxud səfirlikdə, rəsmi qonaqlıqlarda görüşmüşük. Biz onu dəvət etmişik, o da bizi. Ancaq bu barədə söhbət olmayıb. Nədənsə Amerikaya qayıtdıqdan və arzuları həyata keçmədikdən sonra demokratiya və insan haqları yadına düşüb.

***- Ancaq Azərbaycandakı vəziyyətə tənqidi yanaşan təkcə o deyil. "Freedom House" təşkilatının prezidenti Devid Kramer də Azərbaycan hakimiyyətinə sanksiyaların tətbiq edilməsinə çağırış edib.***

- Bu təşkilatların ipi erməni lobbisinin əlindədir. İpi dartan kimi onlar başlayırlar. 20 ildir onlar eyni şeyləri təkrar edirlər. Biz onlara əhəmiyyət vermirik. Çünki bunlar başqa ölkənin ərazisində olan QHT-lərdir. Bir QHT başqa bir dövlətdəki vəziyyət haqqında hesabat verə bilməz. Bu mandatı ona heç kəs verməyib. Azərbaycanda 5 mindən artıq QHT var. Onda hərəsi durub desin ki, İngiltərədə, Amerikada vəziyyət belədir, bu, o ölkələrin vecinə olacaqmı? Yox.

***- Ancaq həmin QHT-lər beynəlxalq səviyyəli təşkilatlar kimi qəbul olunur...***

- Qəbul olunmur. Heç yerdə onlara BMT tərəfindən mandat verilməyib. BMT-nin özünün insan hüquqları ilə bağlı strukturu var. Bu barədə hansısa mövqe olanda artıq ciddi bir təşkilatın adından verilmiş bəyanat kimi qəbul olunur. Ancaq "Freedom House", yaxud "Human Rights Watch", nə bilim nə...5-6 dələduz yığışıb bir təşkilat yaradıb, ölkələr haqda bəyanat verirlər. Heç kəs buna əhəmiyyət vermir. Hər birinin idarə heyətində, katibliyində 2-3 erməni çalışır. Bu da bəllidir ki, o təşkilatlar məhz belə bəyanatlar verəcək.

***- Bəs Azərbaycan iqtidarı imkanlarından istifadə edib həmin təşkilatlara azərbaycanlıları yerləşdirə bilmir?***

- Bu, uzunmüddətli məsələdir. Erməni lobbisi bizim müstəqilliyimizdən 100 il qabaq Amerika və Avropanın siyasi çevrələrində yerləşib, kök atıb, müxtəlif ştatlarda onların bazaları, biznes sektorları var. Konqresmen və senatorlar da var ki, onlar bu ermənilərdən bilavasitə asılıdırlar. Ermənilər onların seçki fonduna azacıq da olsa, maliyyə yardımı göstərməklə proseslərdə iştirak edirlər. Sonradan gedib qapısını kəsir ki, mən sənin seçki fondunun formalaşmasında iştirak etmişəm. Tutaq ki, hər senatorun hesabına 3 min dollar pul keçirirsə, bu, Amerikada böyük pul sayılır. Pul köçürmədən sonra şərtlər və tələblər qoyurlar. Eyni zamanda işlədikləri təşkilatların Azərbaycan haqqında düzgün olmayan rəy formalaşdırmasına çalışırlar.



**Siyavuş Novruzov: "Bu təşkilatların ipi erməni lobbisinin əlindədir"**

***- Bu arada Azərbaycan məmurlarına qarşı sanksiyaların qəbul olunması məsələsi də müzakirə predmetidir, üstəlik, "Maqnitski Aktı" xatırlanır. Hökumət üzvlərinə qarşı sanksiyaların tətbiqi mümkündürmü?***

- O boş şeydir, düzgün olmayan fikirdir. Bir neçə nəfərin bu cür fikirlər səsləndirməsi, yaxud çağırış etməsi Azərbaycan üçün ciddi narahatlıq yaratmır. Azərbaycanda ciddi şəkildə insan hüquqları pozuntusu yoxdur. Bu ölkədə qanunu pozan, hərbi kəşfiyyata işləyən insanların məsuliyyətə cəlb olunması var. Məsələnin bir ucu da gedib onlara çıxacaq ki, ayırdıqları vəsaitlər hansı istiqamətə yönəldilib. Bu zaman çox böyük beynəlxalq skandal yaranacaq. Artıq Avropa təşkilatları haqqında konkret ifadələr var. Ona görə də bunlar canfəşanlıq edirlər ki, çirkin əməllərinin üstü açılmasın.

***- Belə çıxır ki, Azərbaycanda QHT rəhbərləri ilə bağlı məhkəmə istintaqı başlayanda xarici donor təşkilatların məhkəməyə çağırılması məsələsi də gündəmə gələcək?***

- Təbii. Çünki donor təşkilatlar ayrılan qrantın bir hissəsini bunlara verməyib. Özlərində saxlayıb mənimsəyiblər. Onlar da elə adamlar axtarır ki, həmin qrantdan hissə-hissə yesinlər. Həmçinin bunlara ayrılan qrantlar düzgün istiqamətdə yönəlməyib. Həm vergidən yayındırıb, həm də hansısa partiyanın saxlanmasına və ya qəzetlərin çapına sərf olunub. Yeyintilərin olması faktları artıq məlumdur. Elə təşkilat var ki, 150-180 min vergi borcu var. Amerika kimi bir dövlətdə vergini bir gün gecikdirsən, səni dərhal həbs edərlər. Hələ bunların pensiya fondu var, əmək müqaviləsi bağlanmalıydı. Heç biri olmayıb.

***- Hesab olunur ki, Obamanın Azərbaycanı tənqidindən sonra təpkilər daha da artacaq. Eyni zamanda Bakının Moskva ilə yaxınlaşması təzyiqlərin sərt mərhələyə keçməsinə təkan verə bilərmi?***

- Bəzi qüvvələr istəyir ki, Azərbaycanı zorla dartıb antirus koalisiyasına qoşsunlar. Lakin Azərbaycan müstəqil dövlətdir, indiyə qədər apardığı siyasətini davam etdirir, hər bir dövlətlə qarşılıqlı münasibətlərini davam etdirir. Vaxtilə Azərbaycanın ərazisində baza yerləşdirib İrana təzyiq göstərmək istəyirdilər, onda Bakı buna etiraz etdi. Baxmayaraq ki, İranla o qədər də isti münasibətlərimiz yox idi. Ancaq dedik ki, Azərbaycanın ərazisindən İrana qarşı istifadə oluna bilməz. Avropa və Amerikanın öz maraqları var, hansısa qərarlar qəbul edirlər. Azərbaycan isə ona etirazını bildirir ki, mən qarşılıqlı münasibətə üstünlük verirəm. Azərbaycan eyni zamanda Ukraynanın ərazi bütövlüyünü dəstəkləyib. Bu, bir daha göstərir ki, Azərbaycanın yürütdüyü müstəqil siyasəti bəzi dövlətlərin gözü götürmür. İstəyirlər ki, Azərbaycan əlaltı olsun, onların tapşırıqlarını yerinə yetirsin. Həqiqətən də çətinliklər, təzyiqlər var, lakin biz öz yolumuzla gedirik və bu yoldan dönməyəcəyik.

**"Həqiqətən də çətinliklər, təzyiqlər var, lakin biz öz yolumuzla gedirik və bu yoldan dönməyəcəyik"**

***- İŞİD-in Azərbaycan hakimiyyətini devirmək planının olması xəbəri necə, ciddiyə alınırmı?***

- O da bir xəbərdarlıqdır ki, İŞİD-ə də himayəçiliyi biz edirik, İŞİD-dən bir dəstə göndərə bilərik. Bütün hallarda Azərbaycan öz müstəqil siyasətini davam etdirəcək, Ermənistanı çıxmaq şərtilə qonşularla, böyük dövlətlər, beynəlxalq təşkilatlarla normal münasibətlərini qoruyub-saxlayacaq.

***- Siyasi məhbusların bir qrupuna beynəlxalq mükafat verilməsinə YAP-da münasibət necədir? Yeri gəlmişkən, bu ərəfədə əfv gözləntisi də var idi...***

- Əfvlə bağlı gərək prezidentə və Əfv Komissiyasına müraciət edilsin. Burda da araşdırma aparılır. Kimin əfv olunmasına qanunvericilik, törətdiyi əməl, bu əməldən peşmançılıq çəkməsi yol verirsə, əfv olunur. Əks təqdirdə, məsələ həll olunmamış qalır. Mükafatlara gəldikdə, aydın məsələdir, onlar ancaq o cür mükafatlar verə bilər. Onlar Mübariz İbrahimova, yaxud Xocalıda bütün ailəsini itirmiş kimsəsizə mükafat verməz. Bunlar ancaq özlərinin əlaltılarına, birgə maliyyə oğurladığı adamlara, ermənilərə işləyənlərə mükafat verər. Necə ki, ermənilər Əkrəm Əylislini Nobel mükafatına təqdim ediblər. Çünki onun "Daş yuxuları"nda islamçılıq, azərbaycançılıq təhqir olunub, ermənilər yüksəldilib. Bunlar əməlisaleh, düzgün, vətəninə, xalqına yox, satqına, xəyanətkara mükafat verirlər.

***- NİDA-çılar əfv müraciəti etsə də, müsbət nəticə olmadı...***

- Bu müraciətlərə baxılır. Adətən Qurban bayramında əfv olmur. Əfv əsasən Respublika günündə, Müstəqillik günündə, digər hallarda olur. Hələ qarşıda bayramlarımız var, yəqin ki, məsələyə baxılar.

***- Qarşıda 18 oktyabr bayramı da var...***

- Təbii, təbii...

**Elşad PAŞASOY**



# Yenə beynimizi xarab elədilər...

**Zamin HACI**
zaminhaci@gmail.com

**Bu il tibb üzrə Nobel ödülünü üç dənə alimə verdilər ki, indi onların adını burda yazmağımın önəmi yoxdur. Birincisi, guya biz onun adının Coni ya Meri olduğunu bilsək nə dəyişəcəkdir? Heç nə. Əsas odur adam öz icra başçısının, ərazi üzrə polisə çuğulçuluq eləyən şəxsin, məhəllə ağsaqqalı Məhiş kişinin, elçiliklərə aparılan yeddi taxta tumanlı Bəyim arvadın adını, canım sənə desin, halal dana əti satan qəssabın telefon nömrəsini bilsin. Yoxsa Nobel-mobel... Hamısı boş-boş şeylərdir, el ağzıyla desək.**

Ümumiyyətlə, dünya boşuna fırlanır, dolu olan bircə bizik. Misal üçün, dünyanın heç bir paytaxtında bu qədər eşşək boyda maşınlar yoxdur. O cümlədən, dünyanın heç yerində bu qədər bahalı eşşəklər yoxdur. Nə isə, bu ayrı mövzudur, yadıma salarsınız başqa vaxt danışaram.

İkincisi, mən ödülün nəyə görə verildiyini araşdırıb belə qərara gəldim ki, burda çox ciddi yanlışlıq vardır, hətta deyərdim burunlarından gəlsin Bakı neftinin pulu ki, onunla belə mükafat qayırılmışdır. Vallah... A kişi, o bir milyon dollar bizdə qalsaydı indi həmin pulla Yardımlı-Pensər-Soğanverdilər-Aybasanlı kənd yolunun təmirini eləyərdik, camaat qazı basıb on-on qırılardı. Yoxsa indi yol pisdir, beş-beş həlak oluruq. Belə də iş olarmı? Bu insafsızlıq, bu vicdansızlıq bir gün Skandinaviya məmləkətini dəryaya qərq edəcəkdir, görərsiniz. Mən sözümü dedim. Yazın bir qırağa, batanda rəhmətimi oxuyarsınız.

Bəs yanlışlıq nədir? Yazım, sən də bax. Hərçənd, özün də bilirsən mənim qəti yalanım olmaz.

Deməк, Nobel ödülünü insan beynində araşdırma aparan alimlərə veriblər. Elə xoruzun quyruğu burdan görükür! Bax, sənin camaatın başının içində nə işin var? Əlqərəz, bunlar guya tapıblar ki, insan beyni bir növ GPS sistemi *(peyk naviqasiya sistemi)* kimi çalışır, adam hərəkət elədikcə beyin öz içində xəritə cızır, istiqamət müəyyən edir, daha sonra burdan keçəndə yolu tanıyırsan. Beyin guya mövqeni insanın özündən asılı olmayaraq müəyyən edirmiş.

Bah... Yalansa atana lənət, Nobel Komitəsi! Siz hansı mövqedən danışırsınız? Gəlin bizim ölkəyə, tədqiqat aparın, əgər yüz adamdan heç olmazsa on nəfərinin beynində hər hansı mövqe olsa, klaviaturamı sındır, vur mənim başıma, bəlkə mənim də beynimdə bir mövqe yaranar.

Guya xəritə cızmaq, nə bilim, getdiyi yerləri içəridə "quşlamaq" söhbətinə gələndə, bunu hələ yüz il qabaq Mirzə Cəlil yazıbdır. Deyir eşşək eşşəkliyi ilə bir dəfə batdığı palçığa ikinci dəfə girmir, axı sən insansan, niyə özünü dəfələrlə batırırsan...

Ola bilsin dünyanın başqa yerlərində insanların beyni doğrudan da xəritə kimi çalışır, mövqe tutur. Ancaq biz belə irqçi nəzəriyyələri qəbul edə bilmərik. Üstəlik, regionun lider dövlətində yaşayırıq, hamı bizim paxıllığımızı çəkir ki, kaş "Təmiz Binəqədi" layihəsi bizdə də olaydı, biz də bulvarda öpüşəydik, arzuya bax, sevgilim, tellərindən incəmi və sairə... Bəs bizim beynimizin "GPS" sistemi niyə yoxdur? Niyə biz ortaya ağıllı, beyindən gələn mövqe qoya bilmirik?

Fikrimcə, bunun da əsas səbəbləri möhtərəm cənab prezidentin uğurlu daxili və xarici siyasəti ilə əlaqədardır. Misal üçün, ayrıca götürülmüş vətəndaş Məmmədağanın mövqeyinə nə ehtiyac vardır? Heç ehtiyac yoxdur. Cənab prezident, Yeni Azərbaycan Partiyası bizim hər birimizin əvəzindən ortaya mövqe qoyur, xəritə də cızır. Sənə qalan odur ki, tapşırığı alıb yola çıxasan. O sovet dövrünün şeiri vardı ha, bax vəziyyəti tam şəkildə orda ifadə ediblər: "Yolumuz Lenin yoludur, Partiyadır rəhbərimiz!"

Bu vəziyyətin əsas üstünlüklərindən biri isə odur ki, sən beynini işlətmirsən, öləndə o tərəfə sapsağlam, necə deyərlər, "sıfır kilometr" beyinlə gedirsən. Böcəklər də sevinir, dombalaq aşırlar, deyirlər növbəti azərbaycanlı gəldi, ay can, ay can... Yoxsa ingilis-mingilis öləndə goruna söyürlər.

Məncə, mükafat ləğv olunmalıdır. İndi söz Nobel Komitəsinindir.

# "Freedom House" rəsmi Bakını sanksiyalarla təhdid edir

## "Rusiyaya sanksiyalar tətbiq ediləcəyinə də inanmırdılar..." - FH-nın prezidenti Devid Kramer rəsmi Bakını sanksiyalara cəlb etmək üçün çalışacaqlarını bəyan edib

**"Bir çoxları Azərbaycana qarşı sanksiyaların tətbiq olunmasını mümkün hesab etmir, ancaq yeganə yol çalışmaqdır". Bu sözləri "Freedom House" azadlıq təşkilatının prezidenti Devid Kramer BBC Azərbaycancaya açıqlamasında deyib. Yada salaq ki, son həftələrdə Qərbin Azərbaycana ciddi sanksiyalar tətbiq edəcəyi ilə bağlı açıqlamalar bir neçə dəfə səsləndirilib.**

Azərbaycan iqtidarının ən sərt tədbirlər sırasına aid edilən sanksiyalar tətbiqi ilə üzləşməsinə səbəb kimi ölkədə insan haqları ilə bağlı durumun kəskinləşməsi göstərilir. İnformasiyalı qaynaqlar iddia edir ki, uzun illərdir Qərb institutları ilə sıx əməkdaşlıq edən Azərbaycan vətəndaşlarının siyasi səbəblərlə həbs edilməsi ciddi narazılıqlara səbəb olub. Həbs edilən bəzi şəxslərlə sərt davranılması, onlara fiziki işgəncə verilməsi Qərbin Azərbaycana indiyə qədərki yumşaq tənbeh siyasətini 180 dərəcə dəyişməsinə səbəb olub.

Ehtimal edilir ki, ən qısa zamanda Qərb institutlarının siyasi məhbus elan etdiyi şəxslərin azadlığa buraxılması ilə bağlı proses başlamasa, Azərbaycandan bir nazir də daxil olmaqla, hüquq-mühafizə, istintaq, məhkəmə, Penitensiar Xidməti təmsil edən yüksək çinli məmurlardan təxminən 15 nəfərə sanksiyalar tətbiq edilə bilər.

Oktyabrın 2-də "The American Interest" jurnalında çap olunan məqalədə cənab Kramer və ABŞ-ın Azərbaycandakı sabiq səfiri Riçard Kozlariç ABŞ Konqresini Azərbaycan məmurlarına qarşı sanksiyalar tətbiq etməyə çağırıblar: "Rusiya ilə bağlı da çoxları düşünürdü ki, sanksiyalar mümkün olmayacaq. Amma sonradan Maqnitski Aktı Rusiyaya da tətbiq olundu". Bu sözlərin müəllifi bir zamanlar ABŞ Dövlət Departamentində yüksək vəzifə tutan və Maqnitski Aktı üzərində işləyən Devid Kramer deyib ki, bundan yayınmağın sadə yolu var - dövlətlərin demokratik prinsiplərə sayğısı və üzərinə götürdüyü beynəlxalq öhdəliklərin yerinə yetirilməsi.

Onu da vurğulayaq ki, Maqnitski Aktı kimi tanınan qanun, vergi rəsmilərinin fırıldaqçılığını araşdıran vəkil Sergey Maqnitskinin 2009-cu ildə Moskva həbsxanasında ölümünə görə məsuliyyət daşıyan rəsmiləri cəzalandırmağı nəzərdə tutur. Maqnitski siyahısındakı 18 nəfər Amerikaya daxil ola bilməz və bu ölkənin bank sistemindən istifadə edə bilməz.

"Konqres sizin narahatlıqlarınızı bölüşürmü? Bunu Rusiya ilə olduğu vəziyyətlə müqayisə etmək olarmı", sualını cavablayan cənab Kramerin fikrincə, Konqresin Azərbaycan barədə narahatlıqları artmaqdadır.

"Sözün düzü, düşünürəm ki, Konqres üzvlərinin əksərənlərə fikir vermir. Məqaləni yazmağımızın səbəblərindən biri də elə bu idi. Amma məncə, ölkədə vəziyyətin pisliyi barədə məlumatlılıq artır", Devid Kramer deyir.

"Başa düşürəm ki, Azərbaycanın enerji potensialına görə və Azərbaycanın Əfqanıstandakı terrorçuluğa qarşı mübarizədəki roluna görə bunun üçün dəstək almaq çətin olacaq. Amma problem ondadır ki, hökumətin addımları biabırçı olmağa başlayıb və bunun nəticəsiz qalmayacağını göstərmək vaxtıdır".

**Devid Kramer onun və səfir Kozlariçin nəzərdə tutduğu sanksiyalar barədə daha ətraflı məlumat verib. Müəlliflərin fikrincə, Azərbaycanda ABŞ vətəndaşı Səid Nurinin bir həftəyə yaxın ölkədən çıxmasına imkan verilmədən sonra, Dövlət Departamenti öz saytında Azərbaycana getmək istəyən amerikalılara bu təhlükə barədə xəbərdarlıq etməlidir:** "İkincisi isə rejimdə ciddi insan haqları pozuntularına, o cümlədən fəalların, jurnalistlərin, müxalifətçilərin həbsinə görə məsuliyyət daşıyan şəxslərin dalınca düşmək vaxtıdır. Hökumət elə bilir ki, bu addımlara görə cavabdeh olmayacaq. Əgər nəticələr olmasa, onlar bunu etməyə davam edəcək".

> **"Azərbaycandan bir nazir də daxil olmaqla, hüquq-mühafizə, istintaq, məhkəmə, Penitensiar Xidməti təmsil edən yüksək çinli məmurlardan təxminən 15 nəfərə sanksiyalar tətbiq edilə bilər"**

Oktyabrın 2-də çap olunan məqalə "Bakıya qarşı sanksiyaların vaxtıdır" adlanır. Rəsmi Bakı bu çağırışa hələ ki münasibət bildirməyib. Azərbaycan hökuməti insan haqları pozuntuları barədə ittihamları rədd edir və fəalların qanun pozuntularına görə həbs olunduğunu deyir. Hökumət eləcə də beynəlxalq təşkilatları və xarici dövlətləri Azərbaycanın işlərinə qarışmaqda ittiham edir.

"Freedom House"un dünyada media azadlığına dair son hesabatına görə prezidentin sözçüsü Əli Həsənov təşkilatı "subyektiv" adlandıraraq Azərbaycana aid hissəsini tənqid edib. Əli Həsənov deyib ki, hesabatın Azərbaycanla bağlı hissəsi "qərəzli, şübhəli mənbələrə əsaslanan subyektiv mülahizələrin məhsuludur".

❑ **Aygün MURADXANLI**

# DİHM 12 oktyabr mitinqini müzakirə etdi

**8 oktyabr 2014- cü il tarixdə KXCP qərargahında Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinin (DİHM) toplantısı keçirilib. Toplantıda KXCP, Müsavat, ADP, Ümid, Azadlıq, VİP, Liberal Demokrat, AXP, BAP, Aydınlar Partiyası iştirak edib.**

Bu barədə müsavat.com-a DİHM-dən verilən məlumatda deyilir ki, toplantıda DİHM təmsilçilərinin Avropa İttifaqının Bakı nümayəndəliyində keçirdiyi görüşün nəticələri müzakirə edilib.



Həmçinin siyasi məhbuslarla partiya sədrlərinin görüşü ilə bağlı ədliyyə naziri və baş prokurora edilən müraciətlərə dair məlumat dinlənilib.

Bundan başqa, toplantıda 15 oktyabr 2014- cü il tarixdə, saat 12:00-da Müsavat Partiyasının qərargahında Avropa parlamentinin Azərbaycana aid qətnaməsinə həsr olunan dəyirmi masanın təşkilati- texniki məsələləri razılaşdırılıb.

Eyni zamanda 18 oktyabr 2014- cü ildə, saat 11:00-da Müstəqilliyik günü münasibətilə Əbülfəz Elçibəyin məzarının ziyarəti və istiqlalçı deputatlarla birlikdə tədbir keçirilməsi qərara alınıb.

Tədbirdə habelə 12 oktyabrda Milli Şuranın təşkil edəcəyi mitinqə münasibət müzakirə edilib. Mitinqin "Repressiyalara son, siyasi məhbuslar azad edilsin!" şüarı müdafiə edilib. Razılaşdırılıb ki, hər bir siyasi partiya mitinqdə iştirak məsələsini müstəqil həll etsin.

❑ **M.MAHRIZLI**



# "Ölkəmizə 19 milyard dollar sərmayə qoyulub"

## Prezidentin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası keçirilib

**Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.**

**APA-nın məlumatına görə, prezident bildirib ki, bu ilin 9 ayının sosial-iqtisadi inkişafı uğurlu olub, ölkəmizin inkişafı ilə bağlı inamlı addımlar atılıb.**

Dünyada maliyyə böhranının davam etdiyi bir vaxtda 9 ayda ümumi daxili məhsul 2,5 faiz, qeyri-neft sektoru isə 6 faiz artıb. İnflyasiya 1,5 faiz təşkil edib, əhalinin pul gəlirləri 5,4 faiz çoxalıb.

Bu il də büdcə xərclərinin kifayət qədər böyük olduğunu deyən İlham Əliyev qeyd edib ki, ilin əvvəlindən ölkəmizə 19 milyard dollar sərmayə qoyulub ki, onun da 11 milyard dolları daxili investisiyalardır. İlin əvvəlindən maliyyə resursları 3 milyard 600 milyon dollar artıb və Azərbaycanın valyuta ehtiyatı 53 milyard dollara çatıb.

Dövlət başçısı qeyd edib ki, Dünya İqtisadi Forumunun reytinq cədvəlində Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə artıq 38-ci yerdə qərarlaşıb. Bu dövrdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra olunub, doqquz ayda 100 mindən çox yeni iş yeri yaradılıb, bununla da son 10 ildə açılan iş yerlərinin sayı 1 milyon 300 minə çatıb. Ötən 9 ayda sosial layihələrin icrası davam etdirilib və investisiya portfelində bu layihələrə xərclənən vəsait kifayət qədər böyük olub. Bakı və ətraf qəsəbələrin inkişafına dair Dövlət Proqramı da uğurla icra olunur. Ölkədə infrastruktur layihələrinin icrasına xüsusi diqqət yetirilir.

Prezident vurğulayıb ki, artıq bir çox sahələrdə Azərbaycanın müsbət təcrübəsi öyrənilir. Bunu bu yaxınlarda Bakıda keçirilən Beynəlxalq Humanitar Forumda BMT İnkişaf Proqramının rəhbərinin səsləndirdiyi fikirlər də təsdiqləyib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasından təəssüfləndiyini deyən dövlət başçısı qeyd edib ki, mövcud status-kvonun yolverilməzliyi ilə bağlı səslənən fikirlərə Ermənistan məhəl qoymur, bu fikri səsləndirən qüvvələr isə təsirli addımlar atmır: **"Buna baxmayaraq, Azərbaycan bütün sahələrdə uğurla inkişaf edir, ordu quruculuğu yüksək səviyyədə həyata keçirilir. Təsadüfi deyil ki, üçüncü rübdə təmas xəttində baş verən hadisələr zamanı Azərbaycan Ordusu düşmənə layiqli cavabını verdi".**

İlham Əliyev nitqində keçən ay təməli qoyulan "Cənub" qaz dəhlizi layihəsi ilə bağlı fikirlərini də bölüşüb və bunu tarixi hadisə adlandırıb.

Sonra maliyyə naziri Samir Şərifov, ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov, gənclər və idman naziri Azad Rəhimov bu ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrlə bağlı məruzə ediblər.

İclasa yekun vuran prezident İlham Əliyev ilin sonunadək dövlət investisiya proqramının tam icra olunacağını, məktəblərin, uşaq bağçalarının və müasir səhiyyə ocaqlarının tikintisinin davam etdiriləcəyini deyib. Dövlət başçısı gələn ilin büdcəsində də hərbi xərclərə xüsusi diqqətin göstəriləcəyini qeyd edib, texniki baxımdan Azərbaycan Ordusunun dünyada güclü ordular sırasında olduğunu bildirib.

İ.Əliyev bu ilin sonuna qədər investisiya proqramının təsdiq edilməsinin vacibliyini vurğulayıb, müasir emal müəssisələrinin yaradıldığını, qeyri-neft sektorunun inkişafında xidmət və turizm sahələrinin xüsusi yer tutduğunu bildirib. Dövlət başçısı yaxın iki ildə Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tam istifadəyə veriləcəyini bildirib, bununla da Xəzərdə ən iri ticarət limanının yaradılacağını qeyd edib. Hava nəqliyyatının inkişaf etdiyini, keçən rübdə ilk dəfə olaraq Bakıdan Nyu-Yorka uçuşların təşkil edildiyini vurğulayan İ. Əliyev məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdiriləcəyini söyləyib, ekologiya məsələlərinin həllinə diqqət göstərilməsinin önəmini vurğulayıb. İlk Avropa Oyunlarına hazırlıqla bağlı bütün işlərin cədvəl üzrə uğurla getdiyini, təhlükəsizlik məsələlərinin diqqət mərkəzində olduğunu deyən prezident İlham Əliyev bu oyunların Yay Olimpiya Oyunları səviyyəsində keçiriləcəyini bildirib.

# Prezident seçkilərinin "ili çıxdı"

**Bu gün - 9 oktyabr Azərbaycanda prezident seçkilərinin bir ili arxada qaldı. Ötən ilin bu tarixində YAP-ın namizədi İlham Əliyevin seçkilərdə qalib gəldiyi elan olundu.**

Bu bir il ölkənin ictimai-siyasi, o cümlədən iqtisadi həyatında nə ilə yadda qaldı?

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlunun** fikrincə, geridə qoyduğumuz bir ildə ölkənin siyasi həyatında ciddi bir canlanma olmayıb. Siyasi analitikin sözlərinə görə, ümumi mənzərəyə nəzər yetirəndə passivlik hökm sürür: "Hakimiyyət özünü qorumaqda davam edir, müxalifətdə isə geriləmə var. Əgər ötən il seçkilərə müxalifət vahid namizədlə getməyə nail olmuşdusa, bu il blok dağılıb. Hərçənd, gözlənilən vahid namizəd obyektiv və subyektiv səbəblərdən gəlmədi. Müxalifət isə tələsik yeni vahid bir namizədlə seytnotdan çıxmağı bacardı. Bu il blokun dağıldığını görürük. Milli Şura AXCP-nin nüvəsi ətrafında dayana bilib, digər siyasi təşkilatlar qurumu tərk ediblər. Müsavatda isə qurultaydan sonra bir tələtüm var".

**E.Şahinoğlu iqtidarın bir ildə xarici siyasətində status-kvonu saxlamağı çalışdığını hesab edir:** "Hakimiyyətin xarici siyasətində təhlükəli istiqamətlər var. Son aylarda Rusiyaya meyllilik müşahidə olunur. Rəsmi Bakı ilə Kreml arasında əməkdaşlıq genişlənir, Moskvanın kənd təsərrüfatı məhsullarımıza tələbatı artır. Amma Rusiyaya bu şəkildə istiqamət götürmək təhlükələr yarada bilər.

Necə ki, başqaları ilə, Rusiyaya qarşı da balanslaşdırılmış siyasət lazımdır. Biz isə görürük ki, Rusiya haqda qapalı kluarlarda səslənən xoş fikirləri açıq şəkildə deməyə başlayıblar. Biz gözləyirdik ki, Rusiya Ermənistana təzyiq edərək Dağlıq Qarabağı qaytaracaq. Moskva bunu etmirsə, bu qədər ona yaxınlaşmaq da yanlışdır.

Qərbin isə Azərbaycanın daxili siyasətində yürütdüyü addımlarla bağlı sualları var. Eyni zamanda enerji təhlükəsizliyi, iqtisadi sahədə əməkdaşlıq davam edir. Bu da ondan xəbər verir ki, Qərbdən ciddi təzyiq yoxdur. Hakimiyyət status-kvonu qoruyub saxlaya bilib".

**Siyasi icmalçı Azər Rəşidoğlu xarici siyasətdə uğurlu nəticə əldə olunmadığı qənaətindədir. Onun sözlərinə görə, Azərbaycan diplomatiyasında aparılan "açıq qapı" siyasəti daha da dalana dirəndi.**

**A.Rəşidoğlunun fikrincə, daxili siyasətdə isə sərt idarəçiliyin şahidi oluruq:** "Tanınmış hüquq müdafiəçilərinin həbsi ölkədə fikir plüralizminin aradan qaldırılmasına xidmət edən amillərdən oldu. Müxalifət üçün də dəyişiklik dövrü olmadı. İqtidar opponentləri köhnə paradiqmalarla çıxış edərək "gələn il daha maraqlı olacaq", "Mənəvi qələbə bizimdir" kimi hamını təngə gətirən şüarlarla öz mövcudluqlarını qorumağa çalışdılar".

**Deputat Fəzail Ağamalı hesab edir ki, ötən il ildə ölkə prezidenti qarşıya qoyduğu vəzifələri yerinə yetirməklə uğurlar əldə edib:** "Geridə qoyduğumuz bu bir il ərzində Azərbaycanın xarici siyasətində müsbət nəticələr var.

Ölkəmizin beynəlxalq təşkilatlarla münasibətlərində, qonşu və digər dövlətlərə ikitərəfli münasibətlərində əməkdaşlıq imkanları genişlənir. Həmçinin Ermənistana qarşı diplomatiya və informasiya müharibəsində Azərbaycan öz mövqeyini qoruyub saxlayır".

**F.Ağamalının sözlərinə görə, İ.Əliyevin bu bir il ərzində daxili siyasətində də yüksək irəliləyişlər var:** "Regionlarda sosial-iqtisadi proqramlar icra olunur, yeni iş yerlərinin açılması ənənəsi davam etməkdədir. Bu istiqamətdə həyata keçirilən planlarda hər hansı geriləmə, çətinlik müşahidə olunmur.

Bu bir daha təsdiq edir ki, Azərbaycan xalqı İlham Əliyevi prezident seçməkdə yanılmayıb, namizədlər içində ən layiqli olanını seçib. Prezident də xalqın ona göstərdiyi etimadı doğruldur. Qarşıdakı 4 ildə əminəm ki, Azərbaycan nəinki Cənubi Qafqazda, dünyada inkişaf tendensiyasına güclü dövlətə çevriləcək. Eyni zamanda qarşıdakı 4 ildə Dağlıq Qarabağ probleminin həll olunacağına əminəm. Çünki proseslərin gedişi bunu deməyə əsas verir".

❑ **Emil SALAMOĞLU**



**Fəzail Ağamalı:** "Geridə qoyduğumuz bu bir il ərzində Azərbaycanın xarici siyasətində müsbət nəticələr var"



**Elxan Şahinoğlu:** "Hakimiyyət status-kvonu qoruyub saxlaya bilib, müxalifətdə isə..."

# Hakimiyyət və müxalifətin fərqi



**Azər RƏŞİDOĞLU**

**Ölkədə siyasi proseslərin durğunluq təsiri yaratmasına baxmayaraq, hər iki düşərgədə yeni hadisələr cərəyan etməkdədir. Azərbaycan hakimiyyəti geosiyasi önəm daşıyan beynəlxalq layihələrdə iştirak edir. Coğrafi şəraitin yaratdığı fürsətdən istifadə edərək Bakının əhəmiyyətini artıran iqtidar öz komandası daxilində olan qarşıdurmaların üstünü örtməyə nail olur. Baxmayaraq ki, iqtidar daxilində maraqlar daha çox toqquşur, ümumi mənafe naminə gərginliyi səngitmək, gizlətmək mümkün olur.**

Bu baxımdan, müxalifət düşərgəsində baş verənlər daha gərgin görünür. On illər boyunca eyni təşkilatda fəaliyyət göstərən insanların bir-birinə nifrət püskürməsi, "qara piar" aparması sağlam məntiqlə bir araya sığmır.

İqtidar mənsublarının bölə bilmədiyi nəsnələr az deyil. Bəzi hallarda söhbət dəyəri milyonlarla ölçülən vəsaitdən gedir. Müxalifət nəyi bölə bilmir? Azərbaycanda müxalifət təşkilatının rəhbərliyində təmsil olunmaq xüsusi imtiyazlara malik olmaq demək deyil.

Türkiyədə, Rusiyada, Avropa ölkələrində siyasətçinin müxalifət partiyalarının rəhbərliyində təmsil olunması bilinən və bilinməyən imtiyazlara sahib çıxmaq anlamına gəlir. Azərbaycanda isə tam əksinədir. Müxalifətçi olmaq həbslər, təqiblər və işsizlik deməkdir. Şübhəsiz ki, mövcud status kvonu qoruyub saxlamaq istəyən hakimiyyət kimlərisə qeyri-rəsmi himayəsi altına ala bilər. Lakin ümumilikdə götürdükdə müxalifətçilik heç bir müsbət perspektiv vəd etmir. Belə bir şəraitdə münasibətləri düşmənçilik səviyyəsinə qaldırmaq, hakimiyyətdən daha çox öz əqidədaşına nifrət püskürmək nəyə xidmət edir?

Son 20 ilin məğlubiyyəti son dərəcə əsəbi mühit yaradıb. Yüzlərlə insan onları bu acınacaqlı hala salan təbəqəyə qarşı mübarizədə öz acizliklərini ört-basdır etmək üçün elə müxalifətçi yoldaşlarına hücum təşkil edirlər.

Baş verənlər olduqca acınacaqlıdır. Kənar baxışla baxdıqda bir tərəfdə bir-birinin qanına susayan müxalifətçilər, digər tərəfdə isə bütün nifrətlərini malalamağı bacaran iqtidar dayanır. Kənar seçici kimi seçməlidir? Kim daha cəlbedici və məqbul görünür?

Bu gün bir-birlərini həvəslə çirkaba bulayan müxalifətçilər sabah iqtidar olacaqlarsa, "93-cü il sindromu" daha əcaib formada təkrarlanmayacaqmı?

Son 20 ilin uğursuzluqlarının əsas elementlərindən biri məhz bununla bağlıdır.

Hazırda müxalifətçilik düşüncəsini yaşatmaq əsas məsələ hesab edilir. Lakin minlərlə insan bezdirici məğlubiyyətdən usanmağa başlayıblar.

İnsanlar artıq 20 ilin məğlubiyyətindən bezliblər və onlara real qələbə lazımdır. Artıq "mənəvi qələbə qazandıq" deyimi işləmir. Bu baxımdan gələn parlament seçkilərində uğurlu nəticələr əldə edə bilməyəcəksə, müxalifət olduqca zəif duruma düşəcək. Yəni, məğlubiyyət sindromundan xilas üçün tamamilə yeni bir baxış, yeni bir taktika lazımdır. Amma görünən odur ki, müxalifət köhnə modelin tərəfdarı olaraq qalmaqdadır.

Dəfələrlə vurğuladığımız kimi, mövcud paradiqmalarla uğurlara imza atmaq mümkün olmayacaq. Siyasi nümunələr dəyişməlidir. Mücərrəd ideyalarla, "Rəsulzadə-Elçibəy yolu", "Biz bu seçkidə də mənəvi qələbə qazandıq", "Növbəti il daha maraqlı olacaq", "yeni dalğa gələcək" kimi şüarlarla prosesi davam etdirmək mümkün olmur. Odur ki, müxalifət partiyasındakı sədr dəyişikliyi də məhz yeni düşüncə tərzi, yeni nümunələr, yeni paradiqmalar gətiriləcəyi təqdirdə uğurlu ola bilər. Artıq tükənmiş nümunələrlə uğurlara imza atmaq olmur.

Müxalifətdə savaş baltalarının havaya qaldırılmasının kökündə uğursuzluqlar dayanır. İnsanlar son 20 ilin uğursuzluqlarının əvəzini bir-birilərindən çıxmaq istəyirlər. Təbii ki, burada xarici təsirlər də var, müxalifət daxilində cərəyan edən proseslərə kənardan- hakimiyyətdən və digər maraq qruplarından təsirlər olur. Belə proseslər isə son nəticədə müxalifətin zəifləməsinə gətirib çıxaracaq.

Çıxış yolu qaliblikdən keçir. Ya qələbə qazanmaq, ya da bütün imitasiyalara son qoyaraq, bir kənara çəkilmək lazım gəlir. Başqa yol görünmür...

YENİ MÜSAVAT
N 249 (5958) 9 oktyabr 2014



# İrəli gedib, keçmişə qayıtmaq

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Azərbaycanın müstəqilliyə qovuşduğu bu illər ərzində baş verənlərin hamımız iştirakçı olmuşuq. Kimi dost, kimi düşmən saymaqda da hər kəsin öz qənaəti formalaşıb. İndi biz faciələrimizin müəlliflərini də yaxşı tanıyırıq, bizim qismətimizə düşən ağrıları özləri üçün xoşbəxtlik payı sayanları da... Çox vaxt gözləntilərimizin əksi ilə barışdıq, nədən bizim öz torpağımız üzərində azad, sərbəst yaşaya bilmədiyimizin səbəblərini anladıq...**

Bu illər ərzində bizim qatıldığımız seçkilərə bir sıra ölkələr saxta damğası, bir sıra ölkələr də ona ən ədalətli seçkilər möhürü vurdular. Nəticədə hansı məqamda yanıldığımızı, hansı məqamlarda isə aldadıldığımızı da dərk edə bilmədik. Bax beləcə 23 ili təsəlli ilə yaşadıq. İndi bir vaxtlar meydanlarda ən uca səslə dilə gətirdiyimiz şüarları da utana-utana xatırlayırıq...

Qəribədir, gerçək dəyərlərdən nə qədər uzaq düşürüksə, bir o qədər də imitasiyalar köməyə yetir. Həbslərin, təqiblərin bu qədər pik həddə qərarlaşdığı yadınıza gəlirmi? Bu qədər də ölkədə azadlığın, demokratiyanın olduğunu dövlət rəsmiləri uca səslə dilə gətirirdilərmi? İndi Qərbdən gələn tələblər də heç kimi sərt, repressiv addımlar atmaqdan çəkindirmir. Qəribə də olsa imperiya xarabalıqlarında formalaşan avtoritar rejimlər Rusiyaya sığınmaqla Qərbi öz tələblərindən çəkindirmək istəyirlər. Bir o qədər də Rusiya prezidenti Putinin Gömrük İttifaqı və Avrasiya Birliyi ilə bağlı planlarını çox həyəcanla izləyirlər. Axı imperiyanın vurduğu yaralar hələ də sağalmayıb, hələ də rus şovinizminin acı təhqirləri yaddan çıxmayıb...

Qəribədir, Ukraynadakı olaylara, Qərbin sərt sanksiyaları ilə üzləşənə qədər bu ölkədə keçmiş imperiya təbəələrinə qarşı nifrət pik həddə çatmışdı. Hər gün bazarlarda həbs edilən, polis qarşısında diz çöküb bütün təhqirlərə dözən insanlarla bağlı süjetlər Rusiya telekanallarının gündəlik mövzusu idi. Sonra bütün qəzəb ukraynalılara qarşı yönəldi, artıq təhqir edilən özbəklər, taciklər, qırğızlar, azərbaycanlılar, moldovanlar... arxa plana keçdilər... Qəribə də olsa, keçən il hər fürsətdə tapdananları indi Rusiya dostlar sırasına qatıb... Səbəb isə çox sadədədir. Məhz bu ölkələrin köməyi ilə Qərbin ağır şərtlərindən yaxa qurtarmaq...

Rusiyanın dövlət məmurlarının Azərbaycana bu qədər ayaq açdığı yadınıza gəlirmi? Bir il əvvəlki olayları, Orxan Zeynalova görə Azərbaycana yönələn isterikanı xatırlayırsınızmı? Rusiyanın daxili işlər nazirinin hüzuruna onun necə gətirilməsini necə? Kiminsə şübhəsi vardımı ki, böyük rus şovinizmi rəsmi səviyyədə dəstəklənmir...

Hətta rus siyasətinin son 20-25 ildə təlxəyi rolunu məharətlə ifadə edən Jirinovskinin də üslubu dəyişdi. Hər fürsətdə bizim ünvanımıza təhqirlər yağdıran bu şəxs də birdən-birə siyasi səhnədə bizə havadarlıq edir. Azərbaycan rəhbərliyini tərifləyir. Azərbaycan məmurları da bu kvartetdə onu tək qoymurlar: az qala bütün dünyanın hədəfə aldığı Rusiyanın çökməyəcəyi təsəllisi ilə yaşayırlar. Qərbin sanksiyalarının Rusiyada necə iz qoyduğu isə göz önündədir - ölkədə inflyasiya, bahalaşma, ölkənin milli valyutasının öz dəyərini itirməsi, neftin az qala hər gün ucuzlaşması göz önündədir... Rusiya keçmiş müstəmləkələr hesabına düşdüyü labirintdən çıxmaq istəyir...

Açıq-aşkar hiss olunur ki, qorxu-hürkü içində olan ölkələr də kor bir qəzəbə tuş gəlməmək üçün Rusiyanın tələblərini yerinə yetirirlər. Hətta özümüzə nə qədər baha başa gəldiyinə göz yumub, Rusiyanın ehtiyaclarının qismən də olsa ödənməsi missiyasını Azərbaycan yerinə yetirir. Amma keçmiş müstəmləkələr Rusiyanın iştahını doyuracaq qədər potensiala malik deyillər. Odur ki, məhz bu ilin qışı Rusiya çox ağır ehtiyacla üz-üzə qalacaq. Təbiidir ki, bütün məhsulların Rusiya bazarlarına daşındığı bir məqamda ağırlığın bir tərəfi də bizim üstümüzə çökəcək...

Biz könüllü olaraq Rusiyanın çəkdiyi sınağa ortaq olmaq missiyasını boynumuza götürürük. Amma bütün bunlar bizim dövlət müstəqilliyimizə olan təhlükəni bir zərrə səngitmir. Rusiyanı dərin iqtisadi və siyasi böhrana sürükləyib salan Putin hər fürsətdə 2015-ci illə bağlı planlarını dilə gətirir. Hiss olunur ki, Ukrayna maneəsi də onu yeni imperiya yaratmaq iddiasından çəkindirməyib. Bunu Qərbdə də hiss edirlər. Odur ki, böyük təhlükəni önləmək üçün Qərbin siyasi liderləri də geri çəkilmək iddiasında deyil... Hələ bizi qarşıda daha ağır sınaqlar gözləyir...

# "Ərdoğan İŞİD-in əli ilə PKK-nı məhv etmək istəyir"

## Azərbaycan Kürd İctimai Birliyinin sədri: "Bərzani ilə həm iqtisadi, həm siyasi işbirliyi peşmərgənin bəzi mərhələlərdə İŞİD-ə qarşı müqavimət göstərməsinə problem yaradır"

**"Diplomat" qəzetinin baş redaktoru, Azərbaycan Kürd İctimai Birliyinin sədri Tahir Süleyman Yaxın Şərqdə baş verən proseslərlə bağlı suallarımızı cavablandırıb. T.Süleyman Suriya, İraq və Türkiyənin İŞİD siyasətini dəyərləndirib.**

***- Tahir müəllim, Bərzani ordusunun İŞİD-ə qarşı müqaviməti hansı səviyyədədir, bəziləri peşmərgənin əvvəlki qədər güclü savaşmadığını düşünür...***

- Bu gün Yaxın Şərqdə "İraq və Şam İslam Dövləti" adlı belə Allahu-Əkbər deyərək uşaq, qoca demədən kütləvi qətllər törədir, xalqların canına vəlvələ salır. Bu terror təşkilatını yaradanın kimliyi ilkin olaraq məlum olmasa da, məqsəd məlumdur.

Müsəlmanı müsəlmana qırdıraraq İslamı zəifləbib, Yaxın Şərq ölkələrindəki yeraltı sərvətlərə nail olaraq məqsədinə çatmaqdır.

Kürdüstan bölgəsində Mosuldan sonra Ərbil şəhərlərinin işğalı gündəmdə olsa da, beynəlxalq ictimaiyyətin dəstəyi ilə peşmərgə İŞİD-in hücumlarını dəf etdi, bu işğala imkan vermədi. Ona görə də terroristlər planlı şəkildə Şənqal bölgəsinə üz tutdular və işğal etdilər ki, Kobani məsələsində Kürdüstan bölgəsindən kömək gəlməsin.

Bu gün Kobani işğal olunmaqdadır. Görəsən, PKK, YPG olmasaydı bu xalqın halı necə olacaqdı? Yenə xalqı kütləvi qırğından PKK, YPG xilas etdi və bu saatlarda da dirənməkdədir. Bu gün demək olar ki, bir çox ölkələr peşmərgəni silah-sursatla təmin edir, bir sıra hərbi hazırlıqlar keçirilir, Amerika Kürdüstanda hərbi bazalarını tikməyi planlaşdırır.

Odur ki, peşmərgənin yaxşı müqavimət göstərmədiyi haqda deyilənlər qəbuledilməzdir. Özünüz də bilirsiniz, Kərkükü və ətraf türkmən əyalətlərini peşmərgələr azad etdi. Ancaq Türkiyə türkmənlərə biganə qalaraq heç bir yardım etmədi.

Bu dəqiqə əsas gərginlik və narahatlıq Suriya sərhədində olan Kobani üzərindədir. Peşmərgə Kobaniyə Türkiyə üzərindən girməlidir. Məsud Bərzaninin rəsmi müraciətinə baxmayaraq hələ Türkiyə rəsmiləri bir cavab verməyiblər. Görəsən, Şənqal kimi kütləvi qırğınlar olandan sonra Türkiyə icazə verəcək?


Tahir Süleyman

**Tahir Süleyman: "Peşmərgəni Türkiyə ərazisindən Kobaniyə girməyə qoymurlar, Şənqal kimi kütləvi qırğınlar olandan sonra icazə veriləcək?"**

Hazırda ağır döyüşlər gedir və bir neçə istiqamətdən İŞİD qüvvələri Kobaniyə daxil olmağa çalışırlar. Lakin ABŞ-ın hava hücumlarından başqa heç bir kömək yoxdur. Türkiyədən köməyə gələn kürdlərin qarşısını Türkiyə hərbçiləri tutaraq Kobaniyə keçməyə qoymurlar.

Peşmərgə isə Türkiyə ərazisindən keçib Kobaniyə daxil olmaq üçün Türkiyənin verəcəyi qərarı gözləyir. Amma Türkiyə hökumətinin PKK-ya olan münasibəti imkan vermir ki, peşmərgə Türkiyə ərazisindən Kobaniyə girsin. Bərzaninin rəsmi saytında bildirilir ki, Kürdüstan Kobani uğrunda döyüşənlər üçün silah yardımı göstərir.

***- Qeyd elədiniz ki, İŞİD-in yaradılmasının məqsədi aydındır, hansı məqsədi nəzərdə tutursunuz?***

- Türkiyə rəhbərliyinin siyasətindən, yayılan xəbərlərdən aydın olur ki, İŞİD-in aparıcı qüvvələri türk hərbçilərindən yardım alır, yaralı İŞİD-çilər Türkiyə şəhər xəstəxanalarında müalicə olunurlar. Türkiyə parlamentində də belə fikir səsləndirildi ki, bu ölkədən İŞİD üçün silah-sursat gedir. Türkiyənin onlara dolayısı ilə dəstək verməsi haqda həm Türkiyə, həm dünya mediasında video, fotogörüntülər yayımlanıb və yayımlanmaqdadır.

Sadəcə, Ərdoğanın Yaxın Şərqdə siyasəti PKK-nı İŞİD-in əli ilə məhv etməyə hesablanıb. Belə olmasaydı, Türkiyə PKK-nın Suriya ərazisinə girməsinə imkan verməzdi, bu şəraitdə ordunu Kobaniyə yeridərdi. Türkiyə, Avropa və Amerika İŞİD terrorçularının cinayətləri sayəsində İraqda yeraltı sərvətlərə sahiblənmək istəyirlər.

***- Elə o fikirlər də səslənir ki, PKK Türkiyə ordusuna qarşı dağlarda apardığı döyüşü İŞİD-ə qarşı nümayiş etdirə bilmir, "İslam Dövləti"nə uduzur. Siz necə düşünürsünüz?***

- Bunu tarix göstərəcək ki, PKK İŞİD-lə mübarizədən necə çıxacaq. İndidən proqnoz vermək çətindir. Ancaq unutmayaq ki, Avropa parlamenti bu yaxınlarda PKK-nı terror təşkilatı siyahısından çıxardı. Fransa və digər Qərb dövlətləri də PKK-nı dəstəkləyirlər, İŞİD-ə qarşı döyüşmək üçün silah verirlər. Ərdoğanın PKK-nı İŞİD-in əli ilə məhv etmək planını düzgün hesab etmirəm.

Çünki Ərdoğan söz verib ki, seçkilərdən sonra məsələ kürd xalqının haqqını verməklə bitəcək. Lakin seçkilərdən sonra əksinə oldu və məsələlər qabarıb bu həddə çatdı.

Bərzani İraq Kürdüstanında referendum keçirərək müstəqillik istəsə də, əsas məqsəd İraqdan ayrılıb Türkiyəyə birləşmək olacaq. Belə bir plan gələcəkdə Rojavada da baş verəcək. Eyni zamanda Ərdoğanla Bərzani arasında həm iqtisadi, həm siyasi işbirliyi var.

O baxımdan peşmərgənin bəzi mərhələlərdə İŞİD-ə qarşı müqavimət göstərməsində problem yaranır. Bu gün Bərzani ordusu Kobaniyə girə bilmir. Ərdoğan Kobaniyə görə bu gün Türkiyədə olacaq inqilabi mübarizəni nəzərdə tutmamışdı, bu gedişlə Türkiyə xaosa sürüklənə bilər.

Bu da illərdir Türkiyənin dağılmasına çalışan Avropa dövlətlərinə imkan verə bilər. Türkiyə çalışmalıdır ki, dünyanın bu dolaşıq durumunda ölkədəki kürd vətəndaşlarının birliyini əldə etsin.

❑ **Emil SALAMOĞLU**

# İstiqlalçı deputat prezidentə məktub yazdı

## Hacıbaba Əzimov: "Dövlət Müstəqilliyi Günü dövlət səviyyəsində layiqincə keçirilmir"

**Vahid Azərbaycan Milli Birlik Partiyasının (VAMBP) sədri, istiqlalçı deputat Hacıbaba Əzimov partiya adından "Dövlət Müstəqilliyi Günü" dövlət bayramının qeyri-iş günü statusunun bərpası və dövlət səviyyəsində təntənəli şəkildə keçirilməsi zərurəti haqqında prezident İlham Əliyevə məktubla müraciət edib. Məktubda göstərilir ki, Azərbaycan xalqının böyük tarixi nailiyyəti olan dövlət müstəqilliyi xalqımızın uzun illər ərzində apardığı ağır, lakin şərəfli mübarizəsi sayəsində əldə olunub.**

Məhz xalq hərəkatının təzyiqi və istiqlalçı deputatların apardıqları ardıcıl gərgin və qətiyyətli mübarizə nəticəsində 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilib. Həmin vaxtdan 18 oktyabr - Dövlət Müstəqilliyi Günü dövlət bayramı statusu almış, qeyri-iş günü olmuş və dövlət bayramı olaraq ölkə miqyasında qeyd edilmişdir. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildikdən sonra müstəqil Azərbaycan Respublikası dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən tanınmış, beynəlxalq birliyin subyektinə çevrilib.


Hacıbaba Əzimov

Açıq məktubda prezident İ.Əliyevin "Müstəqillik bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Biz var gücümüzlə müstəqilliyimizi qoruyuruq və qoruyacağıq" kimi fikirləri, bu il avqustun 28-də Beyləqanda ictimaiyyət nümayəndələri ilə görüşdəki çıxışında bəzi xarici dairələrin ölkədə sabitliyin pozulmasına, müstəqil Azərbaycanın asılı vəziyyətə düşməsinə cəhdlər göstərməsindən danışması və "ölkə daxilində də milli satqınlar var ki, onlar xarici anti-Azərbaycan dairələrinə öz vicdanını satıblar"- kimi ciddi iddia irəli sürməsi xüsusi olaraq vurğulandıqdan sonra yazılır ki, hazırda Azərbaycanda hətta bəzi peşə bayramlarının da təntənəli şəkildə qeyd olunmasına baxmayaraq, Dövlət Müstəqilliyi Günü dövlət səviyyəsində layiqincə keçirilmir.

H.Əzimov məktubunun sonunda dövlət başçısı İlham Əliyevi Azərbaycan xalqının ali mənafeyini əsas tutaraq ölkəmizin Dövlət Müstəqilliyi Gününün-18 oktyabrın qeyri-iş günü statusunun bərpa edilməsi ilə bağlı Milli Məclisə təklif verməyə və bu bayramın dövlət səviyyəsində geniş və təntənəli şəkildə keçirilməsi üçün zəruri tədbirlər görməyə çağırıb.

❑ **E.SEYİDAĞA**



# "Ermənistan üçün ən pis ssenari reallaşmağa başlayıb"

## Ekspertlər işğalçı ölkəyə qaranlıq perspektiv vəd edirlər, əgər o, tezliklə Rusiyanın siyasi çətiri altından çıxmasa; "Ermənistan qonşularla dil tapmasa, nicat da tapmayacaq..."

**Ermənistan heç şübhəsiz, Rusiya ilə siyasi-hərbi ittifaqda olmasaydı, Azərbaycanın 20 faizlik ərazisini üçüncü on ildir işğal altında saxlaya bilməzdi. Taleyin ironiyasına bax ki, iqtisadi-hərbi potensialı Azərbaycandan dəfələrlə zəif olan cırtdan bir ölkə Qarabağ məsələsində kiçicik güzəşti belə yaxına buraxmır. Əlbəttə ki, Rusiya amilinə görə, Moskvadan çəkindiyinə görə.**



Bəs bu vəziyyət nə vaxta kimi sürəcək, Dağlıq Qarabağ məsələsini, Ermənistanın özünü yaxın illərdə nə gözləyir, təcavüzkar Kremlin siyasi-hərbi girovluğundan qurtula biləcəkmi, qurtulacaqsa - Ermənistandan, onun formal müstəqilliyindən nə qalacaq? Bu suallar indi ən çox düşmən ölkənin siyasi-ekspert dairələrini düşündürür.

Rusiya və Ukraynada yaxşı tanınan publisist və politoloq Vitali Bortnikov bu və başqa məsələlərlə ətrafında erməni saytlarından birinə müsahibəsində öz fikirlərini bölüşüb. Ancaq onun söylədikləri çətin ki, erməniləri sakitləşdirsin.

**Məsələn, ekspert hesab edir ki, Ermənistan Avropa Birliyi ilə assosiativ sazişdən imtina edib Kremlin Avrasiya layihələrinə qoşulmaq qərarı verməklə Ermənistan dövlətçiliyinin sökülməsinin birinci mərhələsi başlayıb:** "Ona görə ki, Rusiyaya Ukrayna, Gürcüstan və Azərbaycan kimi müstəqil Ermənistan lazım deyil. Rusiya istəyir ki, Ermənistan Rusiya imperiyasının tərkibi olsun - 1991-ciilədək olduğu kimi".

**Politoloq Krımla Qarabağ arasında ciddi fərq görmür:** "Hər ikisi Rusiyanın tələsidir... Bölgədə siz Gürcüstan və Ermənistanla birgə mövcudsunuz. Odur ki, birgə yaşamağı öyrənmək lazımdır. Ancaq ona kimi, problemlər yoluna qoyulmadan real olaraq Ermənistan Respublikası adında dövlət baş tutmayacaq. Müasir Ermənistan erməni toplumunun arzu elədiyi Ermənistan deyil. Müasir Ermənistan - adı dəyişdirilmiş Ermənistan SSR-dir, hansı ki, istənilən tarixi məqamda Rusiya imperiyasının quberniyasına çevrilə bilər (artıq çevrilib - s.s.) Əgər Ermənistan Rusiyanın təzyiqlərinə qarşı duruş gətirməsə, demək, yeni rus çarına da qarşı dayana bilməyəcək. Əks halda, Azərbaycanla müharibəyə cəlb olunacaq və s."

**Ekspertin qənaətincə, Ermənistanın yalnız Rusiyadan iqtisadi asılılığına əsaslanan məntiq üzrə yaşamaq doğru deyil:** "Dalan vəziyyətindən yalnız Rusiyanı Qafqaz işlərindən kənarlaşdırmaqla çıxmaq mümkündür. Rusiya bu münaqişələrin qalmasında və davam eləməsində maraqlıdır ki, azərbaycanlılar və ermənilər həlak olsunlar, iki qonşu arasında heç vaxt qarşılıqlı anlaşma olmasın".

**Bu xüsusda təhlilçi Dağlıq Qarabağın Krım variantı üzrə Rusiyaya birləşdirilməsini də istisna eləmir:** "Artıq deyildiyi kimi, Dağlıq Qarabağ da Ukraynaya qarşı Krım məsələsi kimi Rusiyanın əlində bir tələdir. Bizə həmişə deyirdilər ki, "özünüzü sakit aparın, yoxsa vəziyyəti qarışdıra bilərik, nə deyiriksə, sakitcə onu da edin". Sizə isə deyirlər: bizin istədiyimizi edin, yoxsa Azərbaycanla konfliktdə sizə kömək edə bilməyəcəyik və Azərbaycan Dağlıq Qarabağı, hər şeyi geri alacaq. Beləcə, Ermənistanın xarici siyasəti də, daxili siyasəti də bu postulata əsaslanır".

**Politoloq Rusiyanın siyasi və təhlükəsizlik çətiri altında qaldıqca işğalçı və marionet ölkəyə yaxşı heç bir perspektiv vəd eləmir:** "Başqa maraqlar yoxdur, Rusiya ilə ümumi sərhədlər, real gömrük məkanı da olmayacaq, çünki Belarusla Qazaxıstan imkan verməyəcək ki, Dağlıq Qarabağ da bu məkana daxil olsun. Yəni böyük hesabla heç nə dəyişməyəcək, həmənki yoxsulluq, həmənki korrupsiya, həmənki cinayətkar qruplar və monopoliyalar - ayrı sözlə, son on illiklərdə yaşadığınız hansı problemlər varsa, hamısı yerində qalacaq..."

***

Azərbaycana ərazi iddiasının Ermənistana, erməni toplumuna yaratdığı ağrı-acılar, fəsadlar, blokadanın səbəb olduğu iqtisadi-maliyyə sıxıntıları isə doğrudan da ciddidir. Buna ən bariz sübutlardan biri kimi, işğalçı ölkənin iqtisadi-maliyyə göstəricilərinin ildən-ilə pisləşməkdə davam etməsidir. Bunu artıq ekspertlərlə yanaşı, yerli mətbuat da etiraf edir.

**Məsələn, musavat.com-un məlumatına görə, "Aykakan Jamanak" qəzeti bununla bağlı yazıb:** "Son dövr dərc edilən rəsmi statistik göstəricilər ölkənin iqtisadi böhran mərhələsinə daxil olmasından xəbər verir. Vəziyyət hardasa 2008-2009-cu ildəkinə çox bənzəyir. 5 il öncəki kimi, indi də Ermənistanda özəl transfertlərin azalması, daşınmaz əmlak bazarında passivlik, xarici sərmayələrin həcminin azalması, sənaye göstəricilərinin pisləşməsi müşahidə edilir".

***

Ermənistanın keçmiş baş naziri, müxalifətçi deputat Qrant Baqratyan da pessimistdir. AzadlıqRadiosunun erməni bölümünü müsahibəsində iqtisadçı bildirib ki, son vaxtlar Rusiyadan Ermənistana transfertlərin həcmi kəskin şəkildə azalıb ki, bu ölkə iqtisadiyyatına və əhalinin güzəranına çox ciddi mənfi təsir göstərir.

Sabiq baş nazirin qənaətincə, fiziki şəxslərin xaricdən pul köçürmələri Ermənistandan ötrü böyük əhəmiyyət daşıyır. Bu səbəbdən onun sözlərinə görə, iqtisadi artım və həyat səviyyəsi daha da aşağı düşüb. Baqratyanın fikrincə, üstəlik, ilin sonuna büdcənin doldurulması məsələsində ciddi problem yaranacaq. "Əfsuslar olsun ki, ən pis ssenari reallaşmaqdadır" - əlavə edib o.

Mütəxəssislər həmçinin əmindilər ki, Ermənistanın Rusiyadan iqtisadi asılılığı, sonuncunun isə Qərbin sərt iqtisadi sanksiyaları altına düşməsi vəziyyəti daha da ağırlaşdıra bilər. Ancaq belə görünür, düşmən ölkə hələ uzun müddət düşdüyü dərin quyudan çıxa bilməyəcək. Ən önəmlisi odur ki, Qarabağda müvəqqəti hərbi qələbənin eyforiyasını yaşayan Ermənistanın özü də bu quyudan çıxmaq üçün yetərli çabalar göstərmir...

# "Avropa öz " Xocalı"sını yaşaya bilər..."

## Aureliya Qriqoriuya görə, Qarabağ hadisələrinə hüquqi qiymət verilməsə, eyni faciə qitədə təkrarlana bilər



**"Azərbaycanlıların Xocalıdakı soyqırımının tanınması beynəlxalq Xocalı və Dağlıq Qarabağ tribunallarının yaradılması prosesində və insanlıq əleyhinə törədilən bu ağır cinayətlərdə bilavasitə iştirak edən və təqsirkar olan şəxslərin beynəlxalq cinayət məsuliyyətinə cəlb olunmasında mühüm mərhələdir". Bunu salamnes-a açıqlamasında Moldova Respublikasının ombudsmanı Aureliya Qriqoriu bildirib.**

**Ombudsman sağlam düşüncəli hər kəsin Xocalı soyqırımını tanımalı olduğunu söyləyib:** "Şəxsi təcrübəm əsasında bir daha deyə bilərəm ki, bu dəhşətli hadisələr haqqında obyektiv məlumat çatışmazlığı böyük problemdir. Cari ilin 17 sentyabrında Moldova parlamentinin İcmalar Palatası və mənim dəstəyimlə paytaxt Kişinyovda "Dövlətlərin ərazi bütövlüyü və insan hüquqlarının mühafizəsi" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfrans iştirakçılarına Xocalı soyqırımı haqqında qısametrajlı film nümayiş olunub. Filmin onu izləyənlərdə yaratdığı heyrəti sözlə ifadə etmək çətindir. Sirr deyil ki, bu dəhşət doğuran hadisələr haqqında məlumat erməni təbliğatı prizmasından təqdim edilirdi. Daha sonra isə bu hadisələr yumşaldılaraq təqdim olunmağa başlanıldı. Ona görə də biz indi cəmiyyətdə bu təqdimata müvafiq reaksiya görürük. İnsanlar inana bilmirlər ki, azərbaycanlılara qarşı bu heyvanlıq lap yaxın vaxtda - cəmi 20 il əvvəl törədilib".

**Xanım Qriqoriu deyib ki, Moldova parlamentində Xocalı soyqırımının tanınması məsələsinin qaldırılması ilə yanaşı, "Justice for Hodjali" ("Xocalıya ədalət") məlumat kampaniyası da keçirilməlidir:** "Bu kampaniya çərçivəsində foto və videosübutlar və digər materialların təqdim olunması ilə o qanlı hadisələrin təfərrüatını açıqlamaq lazımdır. Moldova Parlamentinin İcmalar Palatası və bir sıra digər qeyri-hökumət təşkilatları bu kampaniyada bilavasitə iştirak və öz ölkələrində Xocalıya ədalətin yaradılmasında təkid etmək niyyətlərini açıqlayıblar".

**İnsan haqları üzrə müvəkkil daha sonra əlavə edib:** "Avropada müşahidə olunan təşviş doğurucu separatçı vəziyyət fonunda qitə ölkələrində oxşar hadisələrin yaşanması üçün böyük təhlükə mövcuddur. İndi ikili standart yürütmək təcrübəsinin həyata keçirilməsini dayandırmaq və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə hüquqi qiymət vermək lazımdır. Əks halda, Avropa öz "Xocalı"sını yaşaya bilər".

Yada salaq ki, Dağlıq Qarabağ və Xocalı soyqırımı məsələsində tutduğu prinsipial mövqeyə görə zaman-zaman ermənilərin, erməni lobbisinin hücumuna məruz qalıb, terrorla hədələnib və hədələnməkdədir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 249 (5958) 8 oktyabr 2014



# Axırdan əvvəlki yer uğrunda mübarizə

Samir SARI

**Məlum olduğu kimi, futbol üzrə milli komandamız oktyabrın 10-da İtaliyanın, dörd gün sonra isə Xorvatiyanın qonağı olacaq. Bu oyunlar Avropa Çempionatı -2016-nın seçmə mərhələsi çərçivəsində keçiriləcək.**

Onu da bilirsiniz ki, ölkəmizin futbol azarkeşlərinin ən ülvi arzularından biri AÇ-nin, hətta DÇ-nin final mərhələsində oynamaqdır. İntəhası, DÇ bir yana, heç AÇ-nin qapısını da üzümüzə açan yoxdur. Gərək oynayaq, qələbə çalaq, xal qazanaq.

Əslində bu saat futbol başbilənlərimizin ən ülvi arzusu heç olmasa 3-4 xal toplamaq və qrupda axırıncı yerdə olmamaqdır. Nə yaxşı ki, Farer adaları, Lüksemburq, Lixtenşteyn, Monako, Malta, Andorra kimi bizim Sulutəpə qəsəbəsi boyda olan ölkələr var və axırıncı yeri bir qayda olaraq özləri götürürlər. Yoxsa vallahi, biabır olardıq.

Beləliklə, azarkeşlərin arzusuyla AFFA böyüklərinin milli komandamızın turnir cədvəlindəki mövqeyinə dair arzuları arasında ən azı 3 pillə var. Eyni disbalans ayrı-ayrı oyunlara dair nəticələrdə də müşahidə olunur.

Məsələn, 10-12 yaşlı azarkeşlər var, onlar bütün oyunlarda qələbə istəyirlər, baxmırlar ki, bu, Almaniyadır, İspaniyadır, İtaliyadır, deyirlər, nə olsun, onlar da 11 nəfərdir, bunlar da, bizimkilər udsunlar. Elə azarkeşin biri də bizdə var, komandamız hansısa güclü komanda ilə oynayanda hamını keçəl eləyir, deyir, qırxdır, bir əskik deyil, udmalıyıq. Əvvəllər lap radikal idi, amma iki-üç ildir dünya futboluna bələd olduqca görür ki, yox, dünyada güclülər və zəiflər var, nə olsun ki, hamısı eyni cür qəşəng futbol köynəyi geyirlər.

Ümid edirəm ki, böyüdükcə o və digərləri bütün reallıqları öyrənəcək və futbola Şahin Diniyev qədər real baxışlarla baxacaqlar.

Budur, adı çəkilən görkəmli futbol mütəxəssisimiz "Komanda" qəzetinə müsahibəsində millinin şansının aşağı olduğunu bildirib: "Heç kimə sirr deyil ki, millimizi İtaliya və Xorvatiya ilə çətin oyunlar gözləyir.... Düşünürəm ki, iki oyuna qazanılacaq 1 xal bizim üçün yaxşı nəticə sayılmalıdır".

Yəni, mütəxəssis deyir ki, iki oyuna bir xal qazansaq, gərək kepkamızı göyə ataq.

İstəyirsiniz, onun niyə belə düşündüyünü də yazım. Diniyev hesab edir ki, hər iki komandanın futbolçuları ustalıq, təcrübə və digər məqamlarda oyunçularımızdan üstündür.

Şahin bəy bunu düz deyir. Xorvatlar da, italyanlar da təcrübə, ustalıq baxımından çox güclüdürlər, hərəsi hardasa 50-60 ildir futbol oynayırlar, bizimkilər isə gəncdirlər 26-28 yaşları var, hələ nə vaxtlarıdır. Ustalıq səviyyəsinə gəlincə, onlar yekə-yekə emalatxanalarda, maldinilərin, altobellilərin yanında böyüyüblər, bizimkilər isə diniyevlərin. "Digər məqamlar"da isə bizimkilər üstün olarlar - buna heç kəs şəkk etməsin.

Adam hərdən mat qalır, düşünürsən ki, görəsən, qruplarda, eləcə də mundialların finalında 1-ci, 2-ci yer uğrunda mübarizə aparan komandaların oyunçuları nə yeyib-içirlər ki, meydanda canavar kimidirlər. Araşdırırsan, görürsən, yox, millimizin oyunçuları nə yeyib-içirlərsə, almanlar, ispanlar da ondan yeyib-içir. Hətta bəzi ziyanlı şeyləri daha az içirlər.

Bu məsələnin ölkənin kasıblığına, varlılığına da dəxli yoxdur. Ona qalsa, kasıb Kosta-Rika builki DÇ-də o cür oyun göstərə bilməzdi. Elə Xorvatiyanın özü də varlı və böyük ölkə sayılmır, amma milli komandası ispanlardan ingilislərə qədər hamının başına oyun açır.

Məndə belə qənaət formalaşıb ki, yaxşı futbol oynamaq ustalıq və təcrübə məsələsindən daha çox qeyrət, təpər məsələsidir. Oyunçular qeyrətli, təpərli, cürətli, əzmkar olsalar, istənilən div komandanın canını almaq olar.

Bir də meydanda iddialı, cəsarətli olmaq gərəkdir. Topu on halın yeddisində geriyə ötürən, heç-heçəyə çalışıb 1 xal qoparmaq istəyən komandaları həmişə meydançadan uduzub çıxan görmüşəm. Nadir istisnalar ola bilər - o da şans əsəri olub.

Bir sözlə, görək mütəxəssis nə dərəcədə haqlıdır, doğrudanmı Malta ilə qrupda axıran əvvəlki yer uğrunda mübarizə aparacağıq.

# Fərahim İlqaroğlunu döyən şəxsin məhkəməsi başladı

## Feyruz Termişi jurnalistə sui-qəsd etməsinin gerçək səbəblərini gizlətməyə çalışır; o, istintaqa verdiyi ifadəsini danmaq istəyir

**Oktyabrın 8-də jurnalist Fərahim İlqaroğlunun vəhşicəsinə döyülməsi faktına əsasən başlanan cinayət işi üzrə Nizami Rayon Məhkəməsində hakim Ramil Həsənovum sədrliyi ilə hazırlıq iclası keçirilib. Hakim Ramil Həsənovun iclası açıq elan etməsindən sonra dövlət ittihamçısı İltifat Hüseynov F. İlqaroğlunu döyməkdə təqsirləndirilən Feyruz Termişiyə yönləndirilmiş ittihamları səs-**



ifadələri səsləndirib. Daha sonra F.Termişi ifadələrdəki öz imzası və xətti ilə tanış edilib. F.Termişi ifadələrdəki imzaların və xəttin ona məxsus olduğunu təsdiqləyib.

Hakim Ramil Həsənov növbəti məhkəmə prosesini oktyabrın 22-nə təyin təyin edib. Növbəti prosesdə zərərçəkmiş Fərahim İlqaroğlu və şahid qismində iştirak edən Aqşin Salayev ifadə verəcək.

Ümumilikdə məhkəmə prosesi normal keçsə də, məhkəmə bitdikdən sonra bəzi hadisələr diqqətimizi çəkdi. F. Termişi ilə

Bundan sonra F Termişi ifadə verib: "Mən binanın qabağında dayanmışdım. Fərahim blokdan çıxdı. Yanımdan keçəndə dedi ki, "Burada niyə dayanmısan?" Sonra da getdi mindi maşına. Sonra onu çağırdım. Söhbət elədik. Söhbəti xoşuma gəlmədi, vurdum".

Hakimin F.Termişiyə "Özünüzü təqsirli bilirsinizmi" sualına cavab olaraq F.Termişi bildirib ki, "Özümü qismən təqsirli bilirəm. Bu, olmaya da bilərdi. Amma işdi də, olub".

Bundan sonra dövlət ittihamçısı təqsirləndirilən şəxsə suallar verib:

***- Siz həmin binanın qarşısına niyə getmişdiniz?***

- Qız arxasınca düşmüşdüm.

***- Necə yəni?***

- Bir qız var. Onun orada qaldığını bilirdim. Getdim ki, tanış olum.

***- Kimdir o qız? Adı nədir?***

- Adını və kimliyini bilmirəm.

***- Bəs tanımadığın bir xanımın arxasınca niyə getmişdin?***

- Tanış olmaq üçün. Bir-iki dəfə metroda görmüşdüm. Ora kimi arxasınca düşmüşdüm. Bilirdim ki, təqribi olaraq iki binadan birində qalır.

***- Sən oraya kiminlə getmişdin?***

- Aqşinlə.

***- Aqşin kimdir?***

- Dostumdur.

***- Sən deyirsən ki, qızla görüşə getmisən. Qızla görüşməyə dostunu da aparmışdın?***

- Tək getməmək üçün onu da çağırmışdım.

- Sənin dediklərin məntiqə uyğun gəlmir. Yəni inandırıcı gəlmir.

***- Fərahim Qasımovu niyə vurdun?***

- Sözləri xoşuma gəlmədi. Əsəbiləşdim, vurdum.

***- Hansı sözü?***

- "Burda niyə dayanmısan?"

***- Onu vurdun və o, yerə yıxıldı. Bəs yerdə olanda niyə vurdun?***

- Əsəbi idim. Gözüm heç nə görmürdü.

***- Fərahim Qasımov yerdə yıxılmış halda olanda sənə nə deyirdi?***

- Deyirdi ki, "Məni niyə vurursan? Mən sənə nə eləmişəm?"

**Hakim:** İnsan nə qədər qəddar ola bilər ki, artıq yerə yıxılmış birinin başına təpiklə vursun.

Daha sonra Fərahim İlqaroğlunun vəkilləri Feyruz Termişiyə sualla ünvanlayıblar. Vəkil Elçin Sadıqovun Tural Bayramov haqda verdiyi suallara əsəbiləşən Feyruz Termişi sualları cavablandırmaqdan boyun qaçırıb. Öz vəkilinin ona iradından sonra yenidən cavab verməyə davam edib.

***- Siz hadisədən sonra Fərahim Qasımovdan üzr istədiniz?***

- İstədim. Amma qayıdanda gördüm ki, əlində telefon var və kiməsə zəng vurur. Ona görə də qaçdım. Sonra da saytlarda videonu gördüm.

***- Siz öz ifadələrinizdə bildirmisiniz ki, Fərahim Qasımovu Tural Bayramovun sözünə görə vurmusunuz.***

- Mən elə söz deməmişəm. Elə şey olmayıb.

***- Axı sizin burada ifadəniz var və bu ifadəni siz, öz vəkilinizin iştirakı əsasında vermisiniz. Və qol çəkmisiniz.***

- Mən oxumamışam heç nəyi.

- Siz burada açıq-aşkar deməsiniz ki, Tural Bayramovla söhbətiniz zamanı o deyib ki, "Fərahim adında bir jurnalist var. "Neftçilər" metrosu yaxınlığında qalır. O, bizə qarşı çaşıb. Yamanca başımızı ağrıdır. Qanımızı qaraldır. İşlədiyi qəzetdə əleyhimizə yazılar yazır. Döyülesi adamdır". Siz də onun yanında hörmət qazanmaq üçün Fərahimi döymüsünüz. Bu ifadəniz əsasında Tural Bayramov, daha sonra isə deputat Elton Məmmədovun oğlu Aynar Məmmədov da dindirilib.



Bundan sonra hakim həmin istintaqda şahid qismində adı keçən Aqşin Salayevin digər otaqda görüşməsinə Penitensiar Xidmətin əməkdaşları tərəfindən şərait yaradıldı. Qanuna əsasən şahidlə təqsirləndirilən şəxsin görüşməsi yolverilməzdir.

Xatırladaq ki, F.İlqaroğlu bu il aprelin 25-də səhər işə gələrkən yaşadığı binanın qarşısında sui-qəsdə məruz qalıb.

❑ Məhəmməd TÜRKMƏN
Fotolar müəllifindir

# Din xadimləri Mövsüm Səmədova təzyiqləri pisləyir

## "Ölkədə ruhani haqq söz dediyi üçün məhbəsdədirsə, deməк, din məhbəsdədir..."

**Bir qrup din xadimi hazırda həbsdə olan İslam Partiyasının sədri Mövsüm Səmədova təzyiqlərin dayandırılması tələbi ilə müraciət hazırlayıb. Oktyabrın 7-də toplantı keçirən ruhanilər hakimiyyətdən ona təzyiqləri dayandırmağı tələb ediblər.**

Cenubnews.com saytının məlumatına görə, toplantıda çıxış edən din xadimləri Hacı Mövsüm Səmədovun həbsxanada işgəncəyə məruz qalmasını pisləyiblər. O sırada partiya sədrinin heç bir səbəb göstərilmədən 11 saylı cəzaçəkmə müəssisəsindən 12 saylı cəzaçəkmə müəssisəsinə köçürülməsinin, orada isə dərhal "karser"ə salınmasının, təyin olunan müddət bitməmiş üstünə yenə əlavə olunmasının, təzyiqlər altında saxlanmasının ciddi narahatlıq yaratdığı qeyd edilib.

Müraciətdə təqvalı bir din xadiminə, ziyalıya qarşı bu cür davranışın yolverilməz olduğu, Mövsum Səmədovun fiziki sağlamlığına təhlükə yaratdığı, ümumən ölkənin dini camiyəsində etirazları daha da artıracağı xüsusi vurğulanıb. "Ölkədə ruhani haqq söz dediyi üçün məhbəsdədirsə, demək, din məhbəsdədir" - bu da müraciətdə səslənən fikirlərdən biridir.

Müraciət ilahiyyatçılardan Sərdar Hacıhəsənli, Emil Rahimoğlu, İslam Partiyasının sədr əvəzi Elçin Manafov, Hacı İlham Əliyev, Hacı Azər Sərsanov, Hacı Atəməli Nur, Hacı Seyran Rzayev, MMDİB-inn sədri Ruhulla Novruzzadə tərəfindən hazırlanıb.



Xatırladaq ki, 2011-ci ilin yanvarında saxlanılan Mövsum Səmədəv Cinayət Məcəlləsinin 28, 214.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən terrora hazırlıq) və 278-ci (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama) maddələri üzrə ittiham edilərək 12 il müddətinə azadlıqdan məhkum edilib. Yerli və beynəlxalq hüquq müdafiə təşkilatları onu siyasi məhbus kimi tanıyır.

❑ KƏNAN

# PKK-Hizbullah qarşıdurması Türkiyəni qarışdırdı

## Güney-doğudakı iğtişaşlarda 18 nəfər öldü; PKK Atatürkün heykəlinə od vurdu; ABŞ İŞİD-i havadan zərbələrlə geri oturtdu

**Kobanidəki İŞİD hücumlarına etiraz aksiyalarında ölənlərin sayı 18-ə çatıb. Van və Diyarbəkirdə 2 gündür iğtişalar ara vermir. Şəhərdə onlarla yaralı olduğu bildirilir.**



İŞİD-in Suriya-Türkiyə sərhədindəki Kobani kürd kəndinə hücumuna etiraz olaraq Türkiyənin güney-doğu əyalətlərində oktyabrın 7-dən başlayaraq etiraz aksiyaları keçirilir. Küçələrə çıxan PKK-lılarla Hizbullah tərəfdarları arasında qarşıdurmalar səngimir. Tərəflər şəhərdə yanğınlar törədir, yaşayış, hökumət binalarına, iş yerlərinə hücumlar təşkil edirlər.

Van şəhərinin valisi Nezih Doğan şəhərdəki iğtişaşların yatırılması üçün vətəndaşlara müraciət edilsə də bəlli qrupların provokasiyalar təşkil etdiyini deyib. Vali eyni zamanda bələdiyyələri məhəllələrdəki yanğınlara müdaxilə etməməkdə suçlayıb. Yada salaq ki, Van valisi AKP-dən olsa da şəhərdəki bir çox bələdiyyələrin sədrləri kürdlərin siyasi partiyası HDP-nin təmsilçiləridir.

Türkiyə Daxili İşlər Nazirliyinin yaydığı son açıqlamada bildirilir ki, hökumət qüvvələri ilə təxribatçılar arasındakı toqquşmalarda Diyarbəkirdən 10, Mardindən 3, Siirtdən 2, Batman, Muş və Van şəhərlərinin hər birindən bir nəfər ölüb. Onların hamısı odlu silahdan açılan atəş nəticəsində həyatlarını itirib. Ölüm faktları ilə bağlı cinayət işləri açılıb, meyitlər autopsiya üçün dövlət xəstəxanalarına göndərilib.

Açıqlamada o da deyilir ki, 15 şəhərə tətbiq edilən komendant saatının nə zamana qədər davam edəcəyi olayların gedişindən asılı olacaq. Polislər məhəllə-məhəllə gəzərək səsgücləndiricilərlə vətəndaşlara komendant saatı ilə bağlı xəbər verir.

Bölgədə durum o qədər gərginləşib ki, Türk Hava Yolları yaxın tarixlərə bu istiqamətə uçaq reyslərini ləğv edib. Gecə boyu davam edən etirazlarda küçələrdəki nəzarət kameraları sındırılıb, kamera olan dirəklər uçurulub. Odlu silahla yanaşı dəmir və beton parçaları ilə silahlanan kürdlər şəhərdə çoxsaylı dağıntılar törədib.

Olay yerindən çəkilən videolarda polisin gözyaşardıcı qazdan, rezin güllələrdən istifadə etdiyi görünür. Qarşıdurma yaşanan şəhərlərin küçələrində uzunmüddətli atışma səsləri gəlir.

"Diyarbəkir və çevrəsində komendant saatı hələ bir neçə gün davam edəcək". Bu sözləri Türkiyənin kənd təsərrüfatı naziri Mehdi Eker oktyabrın 7-də yaşanan olaylarla bağlı açıqlama verərkən deyib. Nazir deyib ki, iğtişaşların qarşısını almaq üçün hökumət bütün qanuni vasitələrdən yararlanacaq: **"Diyarbəkirdə 10 nəfər həlak olub. Onların yaxınlarına başsağlığı verirəm. Çox sayda iş yerinə hücum edilib, yandırılıb, yağmalanıb. Xırda və orta sahibkarlara böyük ziyan dəyib".**



Şəhərin daxili işlər orqanları da saat 22-dən başlayaraq komendant saatı tətbiq ediləcəyi, insanların küçəyə çıxmasının yasaqlandığı haqqında informasiya yayıb. Polisin bildirişində vurğulanır ki, qərarın məqsədi 1 milyon insan yaşayan bölgədə insanların can və mal varlıqlarının təhlükəsizliyini təmin etməkdir.

Nazir iğtişaş törədənlərin təcili tibbi yardım maşınlarına, həkim briqadalarına, xəstəxanalara hücumunu da kəskin pisləyib: **"Diyarbəkirdə 3 təcili tibbi yardım maşını yandırılıb, 2-si aşırılaraq yararsız hala salınıb. Açıq-aydın görünür ki, söhbət etiraz etmək yox, təxribat törədərək sabitliyə uzunmüddətli təhlükə yaratmaqdır".**

Oktyabrın 8-də adıçəkilən şəhərlərdə dükanlar işləməyib. Dağıdılan iş yerlərinin sahibləri əmlakları ilə bağlı problemləri çözmək üçün rəsmi qurumlara üz tutub.

Şəhərlərdə gün boyu yanan avtomobillərdən barrikadalar qurulması davam edib. Polislər olaya müdaxilə edərkən çoxsaylı qarşıdurmalar yaşanıb. Pozuculuq təşəbbüsündə bulunan onlarla insan müvəqqəti saxlama yerlərinə aparılıb...

Türkiyədəki iç durumu gərginləşdirən etirazçı kürdlərin Atatürkün heykəlləri ilə insanlığa yaraşmayan davranışları olub. Güneydoğuda Atatürkün heykəlinə od vurulub, heykəlin kəllə hissəsi ilə "futbol oynanılıb". Atatürkün heykəllərinə hücum təkcə kürdlərin kompakt yaşadıqları ərazilərdə baş verməyib. İstanbulda yaşayan kürdlər də Atatürkün büstünü uçurub. Onu da vurğulayaq ki, Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkə saygı qanuniləşdirilib. Dövlətin banisinə həqarət cinayət məsuliyyəti yaradır. Ancaq AKP iqtidarı dönəmindən bu qanun faktiki olaraq işləmir.

PKK tərəfdarları ilə hizbullahçılar arasındakı atışmalarda 10 nəfər öldürülüb. Polis bölmələrinə silahlı hücum zamanı 32-si ağır olmaqla, 47 polis yaralanıb. Siirtdə əhali AKP-nin yerli qərargahına hücum edib. Çox sayda Molotov kokteyli atılan binada yanğın başlayıb. Partiya binasına ciddi ziyan dəyib.

Əhali təhlükəsizlik qüvvələrinin əraziyə girişini əngəlləmək üçün magistral yollarda barrikadalar qurub. Oktyabrın 9-da Diyarbəkir, Siirt, Van, Mardinə gəlmək istəyən təhlükəsizlik qüvvələri yerli kürdlərin hücumu ilə üzləşib. Hökumət qüvvələri etirazçıları zərərsizləşdirdikdən sonra əraziyə daxil ola bilib.

Şırnakda isə PKK-lılar etiraz olaraq məktəbləri yandırıb. 300 nəfərlik qrup orta məktəb binasına hücum edərək binaya alışdırıcı maddələr atıb. Ərazidə çəkiliş aparan jurnalistlər yaralanıb. Qızıl Ayın yardımı ilə vəzifə başındakı jurnalistlər olay yerindən uzaqlaşdırılıb. PKK-lılar təcili tibbi yardım maşınlarına da hücum edib, tibb personalını döyüb, maşınları aşırıblar.

Türkiyədəki qarşıdurmalar Avropaya da sıçrayıb. Oktyabrın 9-da Almaniyanın Hamburq şəhərində PKK tərəfdarları ilə İŞİD dəstəkçiləri arasında qarşıdurma yaşanıb. Məscidə toplanan PKK-lılar İŞİD hücumlarına qarşı etiraz aksiyası keçirmək qərarına gəlib. Onlar camenin önünə çıxarkən ərazidə 300-ə yaxın İŞİD tərəfdarı olduğunu görüb. Hər iki qrupun əlində zopalar, kəsici alətlər olub. Tərəflər arasında qısamüddətli toqquşmalar Almaniya polisinin müdaxiləsi ilə yatırılıb. Təşkilatçılar arasından bir neçə nəfərin saxlandığı bildirilir.

Bu arada MHP İstanbul II il başqanı Bülent Karataş twitter hesabından ülkücü cameəyə səslənərək olaylara müdaxilə etməməyə çağırıb. Karataş bildirib ki, MHP-nin İstanbul bölmələrinə kürdlərin hücumu ilə bağlı yayılan xəbərlər provokasiyadır.

❑ **Aygün MURADXANLI**



# Kobanidə "Stalinqrad döyüşü"

## İŞİD geri çəkilir, küçə döyüşlərində ağlasığmaz fəndlər işlədilib; Amerika bombaları kürdləri necə xilas edib?..

**3 həftədir İŞİD və kürd (YPG) silahlıları arasında Kobanidə davam edən döyüşlərdən sonra oktyabrın 8-də İŞİD qüvvələri geri çəkilib. Bu barədə "Reuters"ə Suriyadakı kürd muxtariyyətinin nümayəndəsi İdris Nassan məlumat verib.**

Qeyd edək ki, İŞİD-in son iki gündə şiddətlənən hücumdan sonra Kobaniyə daxil ola bilməməsinin əsas səbəbi beynəlxalq koalisiyanın həyata keçirdiyi hava zərbələri olub. İlk dəfə olaraq gündüz vaxtı da Kobanidəki İŞİD mövqelərini bombalayan koalisiya təyyarələri ötən gün davamlı olaraq uçuşlar həyata keçiriblər.

İŞİD 3 həftədir ki, Suriya kürdlərinin mərkəzi olan Kobaninin ətraf məntəqələrini zəbt edərək şəhərə hücum edirdi. Şəhər demək olar ki, boşaldılıb və yalnız kürd döyüşçülər, eləcə də PKK yaraqlıları qalıb. Kobaninin mərkəzində davam edən küçə döyüşləri hər iki tərəfə ağır başa gəlib. Ötən gün Suriya müxalifətinin Londonda yerləşən hüquq-müdafiə təşkilatı (MİRSAD) itkiləri açıqlayıb. Məlumata görə, ilk gündən bu yana İŞİD 219, kürd qüvvələri YPG isə173 nəfər döyüşçü itirib. Bundan başqa, 20 yerli sakin İŞİD-in Kobanini bombalaması zamanı öldürülüb.

Bu arada Türkiyə mətbuatında döyüşlərin bəzi məqamları ilə bağlı məlumatlar yayılıb. Bildirilir ki, ağır silahlar və texnika ilə hücum edən İŞİD-in qarşısında əsasən yüngül silahlara sahib YPG döyüşçüləri ilk vaxtlarda aciz qalıblar. Bu səbəbdən də İŞİD xeyli irəliləyə bilib. Ancaq sonradan Kobaninin içərisində vəziyyət dəyişib və topartanan kürd döyüşçüləri İŞİD-in ağır silahlarına qarşı daşınan minaatanlar, çiyində gəzdirilə bilən tank əleyhinə raketlər və digər yüngül silahlarla müqavimət göstəriblər. Taktika isə 1943-cü ildə Stalinqradın müdafiəsi zamanı sovet ordusunun tətbiq etdiyi küçə uğurunda savaşdan ibarət olub. Küçə savaşlarında isə daha təcrübəli və şəhərə bələd olan kürdlər üstün gəliblər. Bundan başqa, İŞİD-in tanklarını sıradan çıxarmaq üçün kürd qadın kamikadzelər özlərini partladıblar. Yalnız bir partlayış zamanı 30 İŞİD döyüşçüsü öldürülüb.

Kobani döyüşləri ilə bağlı daha bir heyrətamiz detal isə qurulan pusqu olub. Belə ki, iki gün əvvəl şəhərin kənar məhəllələrində İŞİD bayraqlarının asılması artıq şəhərin İŞİD-in əlinə keçməsi ilə bağlı xəbərlərin yayılmasına səbəb olub. Ancaq Türkiyənin "Haberturk" qəzetinin məlumatına görə, bu bayraqlar əslində tələ olub və kürdlər İŞİD bayraqlarını asmaqla onları çaşdıraraq pusquya sala biliblər. Nəticədə şəhər içindəki döyüşlər zamanı İŞİD-ə ağır zərbələr vurulub.

Kobani hadisələri beynəlxalq siyasətdə də öz təsirini buraxıb. "New York Times" qəzetinin yazdığına görə, Türkiyənin şəhərə müdaxilə etməməsi Ankara ilə Vaşinqton arasında münasibətləri gərginləşdirib. Yazıda qeyd olunur ki, Vaşinqton Ərdoğanın İŞİD-ə qarşı daha qərarlı addımlar atmasını gözləyir, eyni zamanda İŞİD-ə qarşı mübarizədə Ankaranın Əsəd şərti irəli sürməsindən narazı qalıb. Adını açıqlamayan bir amerikalı dövlət nümayəndəsi isə bildirib ki, Ankaranın ölkə sərhədlərinin bir kilometrliyində baş verən qanlı olaylara müdaxilə etməməsi narahatlıq yaradır.

Kobaniyə hücum edən İŞİD qruplarına komandanlıq edən Əbu Xalid Abdullah bildirib ki, kürdləri müsəlman saymadıqlarını və sağ qalmaları üçün müsəlmanlığı və "İslam dövləti"ni qəbul etmələrinin vacib olduğunu bildirib. "Yezidə, şiə və xristianlara etdiklərimizi kürdlərə də edəcəyik. Müqavimət göstərən kürdlərin qanları, eləcə də qadın və qızları bizə halaldır" - deyə o bildirib.

İŞİD-ə qarşı yaradılan koalisiya isə genişlənir. Son olaraq Kanada parlamenti bu haqda qərar verib. Səsvermə zamanı çıxış edən Kanadanın baş naziri Stefan Harper bildirib ki, İŞİD özbaşına buraxılsa, tez bir zamanda böyüyə bilər. Eyni zamanda baş nazir İŞİD-in terror təhdidini gizlətmədiyini və beynəlxalq aləmə təhlükə yaratdığını əlavə edib.

Qərara əsasən, Kanada ordusuna aid CF-18 döyüş təyyarələri 600 nəfərlik heyətlə birlikdə İŞİD-in bombalanmasında iştirak edəcək. Ancaq Kanada hərbi aviasiyası yalnız İraq ərazisindəki İŞİD mövqelərini vuracaq, Suriyanı bombalamayacaq.

BMT isə Kobaniyə yardım çağırışı edib. Beynəlxalq təşkilatın Suriya təmsilçisi Stafan de Mistura dünya ölkələrini İŞİD-ə qarşı mübarizədə Kobaniyə yardım etməyə çağırıb. BMT təmsilçisi bildirib ki, Kobaninin ələ keçirilməsi Türkiyəni də təhlükəyə atacaq. "Əgər İŞİD Kobaninin ələ keçirərsə, o zaman böyük bir faciə, qətliam yaşana bilər. Bundan başqa, Türkiyəni də təhdid edəcək. Qərar Türkiyənindir" - deyə BMT xüsusi təmsilçisi bildirib.

❑ **KƏNAN**

# Avropa üçün daha bir parçalanma riski

**Şotlandiyadan sonra daha bir Avropa ölkəsi bölünmə riski ilə üz-üzədir. İspaniyanın Kataloniya bölgəsi də müstəqillik referendumuna gedir. Doğrudur, yerli hökumətin bölgənin müstəqilliyi haqda noyabrın 9-na təyin etdiyi referendum haqda qərarı sentyabrın 29-da İspaniya Konstitusiya Məhkəməsi tərəfindən ləğv olunub. Ancaq buna baxmayaraq, katalonlar referendum keçirməkdə qərarlıdır.**

Hökumətin mətbuat katibi Fransesk Xoms bildirib ki, müstəqillik uğrunda mübarizə davam edəcək. Sitat: "Oyun hələ bitməyib".

İspaniya Konstitusiya Məhkəməsi qərarında bildirib ki, ayrıca bir bölgənin referendum keçirməsi ölkə konstitusiyasına ziddir. Bu barədə qərarı ispan xalqı verməlidir. Ancaq Kataloniyada referendum hazırlıqları davam edir. Kataloniya parlamenti isə konstitusiya məhkəməsinin qərarını araşdırmaq üçün komissiya yaradıb. Muxtariyyətin başçısı Artur Mas bildirib ki, "Katalon xalqının səsvermə və öz gələcəyi haqda qərar vermək arzusuna qarşı çıxmayacaq".

A.Mas bildirib ki, mərkəzi hökumət qarşı çıxsa da, Katalon xalqı səs verəcək. Qeyd edək ki, Kataloniya uzun illər İspaniya ilə müstəqillik savaşı aparıb. Ancaq sonradan katalonlar arasında bölünmə ideyasına dəstək azalıb. Lakin 2012-ci ildə keçirilən seçkilərdə yenidən millətçilər qalib gəliblər. Belə ki, seçkilərin nəticələrinə əsasən millətçi qüvvələr koalisiyası 135 yerlik parlamentdə 50 mandat, Sol Respublika Partiyası isə 21 mandat qazanıb. Bununla da əslində Kataloniyanın yenidən müstəqillik fəaliyyətlərinə start verilib. İndilikdə katalon xalqının hansı qərarı verəcəyi dəqiq bəlli deyil. Ancaq istənilən halda Kataloniyadan yenidən müstəqillik çağırışları Avropada bölünmə tərəfdarı olan qrupları hərəkətə gətirir. Bu, istər-istəməz narahatlıq yaradır. Bu tendensiyanın genişlənməsi Azərbaycan kimi bölücü fəaliyyətlərdən əziyyət çəkən ölkələr üçün də əlavə risk yaradır.

Xatırladaq ki, Şotlandiyada sentyabrın 18-də keçirilmiş müstəqillik referendumu müstəqillik tərəfdarlarının məğlubiyyəti ilə nəticələnib. Belə ki, seçicilərin 55,4 faizi Şotlandiyanın Böyük Britaniyanın tərkibində qalmasına səs verib.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 249 (5958) 9 oktyabr 2014

# Havaların kəskin soyuması qış rejiminə keçidi tezləşdirə bilər

**İlham Mirzəliyev:** "Havanın temperaturu 8 dərəcədən aşağı düşərsə, istilik sistemindən söhbət gedə bilər"

**Araz Ağayev:** "Qaza olan tələbat indidən artarsa, onun verilməsini artıracağıq"

**Asif Verdiyev:** "Qeyri-sabit hava şəraiti oktyabrın 11-dək davam edəcək"

**Bir neçə gündür ki, ölkədə hava şəraiti qeyri-sabit keçir. Havaların qəflətən soyuması qaz, istilik kimi problemləri yenidən ortaya çıxarıb. Artıq Bakının bir neçə kəndində, qəsəbəsində qaz yoxdur. Bəzilərində isə olduqca zəifdir. Havaların soyuması orta məktəblərə də təsir edib - şagirdlər soyuq sinif otaqlarında dərs keçmək məcburiyyətində qalırlar ki, bu da onların xəstələnməsinə səbəb olur.**

Azərbaycanda qış rejiminə noyabrın 15-dən keçildiyi üçün məktəblər hələ ki istiliklə təmin olunmayıb. Bir sıra ölkələrdə havalar kəskin soyuyanda qış rejiminə vaxtından əvvəl keçilir. Bəs havaların soyuq keçməsi qış rejiminə vaxtından əvvəl keçməyə gətirə bilərmi?

**"Azəristiliktəchizat" ASC-nın sədr müavini İlham Mirzəliyev bildirdi ki, əgər hava kəskin soyusa, qış rejiminə tez keçilə bilər:** "Bütün dünyada istilik sisteminin verilməsinin qaydaları var. Havanın temperaturu 8 dərəcədən aşağı düşəndə istilik sistemindən söhbət gedə bilər. Təsəvvür edin ki, indi külli miqdarda qaz, enerji işlənir. Çöldə isə havanın temperaturu 19-22 dərəcədir. Bu havada istilik sistemlərini qoşmaq olmaz. Çöldə 19-20 dərəcə istilik varsa, bu o deməkdir ki, evdə ən azı 20-24 dərəcədir. Əgər vaxtından əvvəl qar, çovğun olarsa, əlbəttə ki, birmənalı şəkildə qış rejiminə tez keçiləcək. Biz gündəlik olaraq sinoptiklərlə işləyir, məlumatlar alırıq və buna uyğun olaraq da hazırlıq işləri görürük".

**"Azəriqaz"ın mətbuat xidmətinin rəhbəri Araz Ağayev qazın tələbata uyğun olaraq tənzimləndiyini dedi:** "Hava soyuyur, qaza olan tələbat artırsa, təbii ki, verilən qazın həcmi də artırılır. Qış vaxtına keçid şərtidir. Bu, sovet vaxtında olurdu. İndi sadəcə olaraq noyabrın 15-dən qazanxanalara qazın verilməsinə başlanılır. Əgər bu gün qaza olan tələbat iki dəfə artarsa, biz ona uyğun olaraq da qazın verilməsini tənzimləyəcəyik. Yəni qazın verilməsi hansısa ayın şərti rəqəmindən asılı deyil. İndi oktyabrın əvvəlidir. Əgər qaza olan tələbat indidən artarsa, biz onun verilməsini artıracağıq".

**Bakı kəndlərində qazın kəsilməsinə gəlincə isə A.Ağayev bu problemlərin lokal xarakter daşıdığını bildirdi:** "Balaxanıda qazın olmaması yük maşınının vurulması ilə bağlıdır. Digər ərazilərə gəlincə isə oradakı problemlər lokal xarakterlidir. Yəni ümumi bir problem yoxdur. Bəzən olur ki, vətəndaşın mənzilinə gedən xətdə problem olur. Ümumi götürdükdə hansısa yaşayış məntəqəsinə qazın verilişində problem yoxdur. Əgər təbii qazın verilməsində problem yaşayan vətəndaşlar varsa, bizə müraciət etsinlər, araşdıraq. Bu vətəndaşlar ya yerli qaz istismar idarəsinə, ya da 104 qəza xidmətinə müraciət edə bilərlər".

Maraqlıdır, qeyri-sabit hava şəraiti nə vaxta kimi davam edəcək?

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun baş hidroloqu Asif Verdiyev qeyri-sabit hava şəraitinin oktyabrın 11-dək davam edəcəyini bildirdi:** "Hazırda müşahidə edilən hava şəraiti mövsümə uyğundur. Ötən günlər ərzində ən çox yağış Lənkəran-Astara bölgəsində və Böyük Qafqaz ərazilərində qeydə alınıb. Yüksək dağlıq ərazilərdə hətta qar yağması da qeydə alınıb. Yəni bu cür müşahidə olunan hava şəraiti bayaq da qeyd etdiyim kimi mövsümə uyğundur. Hazırda müşahidə olunan qeyri sabit hava şəraiti oktyabr ayının 11-i gündüz saatlarınadək davam edəcək. Belə ki, yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə arabir güclənən qərb küləyi əsəcək. Havanın temperaturu Bakı və Abşeron yarımadasında 15-19 dərəcə arasında, aran rayonlarında 15-20, dağlıq rayonlarda isə 5-10 dərəcə arasında dəyişəcək. İlkin proqnozlara əsasən ayın 11-i gündüzdən sonra isə artıq hava şəraitinin mülayimləşməsi gözlənilir və temperatur nisbətən yüksələcək".

❑ **Günel MANAFLI**

## "McDonald's"ın rəhbəri icra başçısının oğlunun həbsini istəyir

**Səbayel Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərovla "McDonald's" restoranlarının Bakı üzrə rəhbəri Maqsud Mirzəyev arasında narazılıq yaranıb. Axar.az saytına verilən məlumatda bildirilir ki, iş adamı oğlunun ölümünə səbəb olan bu qəzada icra başçısının övladı İlham Əsgərovu günahlandırıb.**

Mənbənin qeydlərinə görə, iş adamı istintaqın gedişini gözləyir. M.Mirzəyev övladının həyatına son qoyan bu qəza ilə bağlı hüquqi addımlar atmağa hazırlaşır. Sadəcə, istintaqdan narazı qalarsa, bu halda yuxarı instansiyalara müraciət etməyi planlaşdırır.

Saytın qaynağı iddia edir ki, hazırda faktla bağlı araşdırma gedir. A.Əsgərovun oğlu isə hadisə nəticəsində möhkəm xəsarət aldığına görə Türkiyədə müalicə olunur. Onun vəziyyətinin ağır olduğu bildirilir. Müalicə yekunlaşdıqdan sonra istintaq Səbayel Rayon İcra Hakimiyyətinin rəhbərinin oğlu barəsində nəticəyə gələcək.

Mənbə bildirir ki, icra başçısının bundan əvvəl də müavini bir nəfərin ölümünə səbəb olan qəza törədib. Ardınca oğlunun qəza törətməsi A.Əsgərovun karyerasına ciddi zərbədir.

## Prokurorluq şikayətləri elektron qaydada cavablandıracaq

**Baş Prokurorluq vətəndaşların şikayətlərinə elektron qaydada cavab verəcək. Bu haqda qurumun mətbuat xidmətindən redaksiyamıza daxil olan məlumatda deyilir: "Dövlət başçısının tövsiyələrinə uyğun olaraq prokurorluq orqanlarında vətəndaşların qəbulu məsələlərinə xüsusi diqqət göstərilməklə əhalinin müraciətlərinə qayğı ilə yanaşılaraq, ərizə və şikayətlərin baxılması işinin səmərəliliyinin artırılması üzrə ardıcıl və sistemli tədbirlərin görülməsi davam etdirilir.**

Vətəndaşların prokurorluq orqanlarına müraciət etmək imkanlarının elektron vasitələrdən istifadə etməklə daha da asanlaşdırılması, daxil olmuş müraciətlərə verilən cavabın onlara operativ çatdırılmasının, müraciətə baxılması vəziyyəti barədə vətəndaşın daha çevik məlumatlandırılmasının təmin edilməsi məqsədilə Baş Prokurorluğun veb-saytında Hüquqi təminat və informasiya idarəsinin İnformasiya texnologiyalarının tətbiqi xidməti tərəfindən "Müraciətlərə onlayn baxılması" funksiyası (bölməsi) yaradılıb.

Prokurorluğa müraciət etmiş vətəndaşlar həmin xidmət vasitəsilə Baş Prokurorluğun veb-saytına (www.prokurorluq.gov.az) daxil olaraq onlara proqram tərəfindən avtomatik olaraq göndərilmiş bildirişdəki koddan və xüsusi paroldan istifadə etməklə müraciətlərinə dair cavabı elektron variantda əldə edə biləcəklər".

❑ **E.HÜSEYNOV**



## "Azerfon" və "Palmali" tərəfdaşlıq müqaviləsi bağladılar

### Tərəflər arasında iki illik korporativ xidmət razılaşması imzalandı

**"Nar Mobile" ticarət nişanıyla fəaliyyət göstərən "Azerfon" şirkəti ilə "Pal Food" MMC, "Palmalife" MMC və "Xəzər Lənkəran" Futbol Klubu MMC arasında iki illik tərəfdaşlıq müqavilələri imzalandı. 1 oktyabr 2014-cü il tarixdə qüvvəyə minmiş razılaşmalara əsasən, tərəflər öz üzərilərinə qarşılıqlı korporativ xidmət öhdəliyi götürdülər. Eyni zamanda "Azerfon" şirkəti və "Xəzər Lənkəran" Futbol Klubu MMC arasında imzalanmış sponsorluq razılaşmasına görə, "Azerfon" şirkəti "Xəzər Lənkəran" Futbol Klubunun iştirakı ilə keçirilən bütün yarış və tədbirlərdə onun tərəfdaşı oldu.**

Ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini vermiş bir holdinqlə imzalanmış bu razılaşmadan son dərəcə məmnun olduğunu ifadə edən "Azerfon" şirkətinin baş icraçı direktoru Kent Maknili, müxtəlif sahələrdə ixtisaslaşmış "Palmali" şirkətlər qrupunun uğurlu fəaliyyətini yüksək qiymətləndirdi. Son illər "Nar Mobile" mobil operatorunun nəzərə çarpacaq uğurlara imza atdığını xüsusi qeyd edən şirkət rəhbəri, Azərbaycanın biznes mühitində öz yeri və çəkisi olan ən iri holdinq və şirkətlərin artıq "Azerfon" ilə əməkdaşlığa başlamalarının bunun əyani sübutu olduğunu vurğuladı.

Öz növbəsində, "Xəzər Lənkəran" Futbol Klubunun vitse-prezidenti Tuyqun Nadirov qeyd etdi ki, sözügedən müqavilələrin imzalanması qida sənayesi, turizm və idman sahələrində öz sözünü demiş müəssisələr və ölkənin aparıcı mobil operatoru arasında bütün səviyyələrdə uğurlu əməkdaşlığın təməlinin qoyulması anlamına gəlir. "Azerfon" şirkəti və "Xəzər Lənkəran" FK arasında imzalanmış sponsorluq müqaviləsinin önəmliliyi xüsusi qeyd edilərək bildirildi ki, ölkənin ən böyük azarkeş kütləsinə malik klubu ilə "Nar Mobile" mobil operatoru arasında əməkdaşlıq hər iki tərəf üçün məhsuldar və effektiv olacaqdır.

Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru olan "Nar Mobile", 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində "Nar Mobile" daima sərfəli qiymət siyasətinə sadiq qalaraq müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təkliflərini təqdim etmiş və abunəçilərin rəğbətini qazanmışdır. Münasib danışıq tarifləri ilə yanaşı, mobil operatorun müxtəlifliyi və sərfəliliyi ilə seçilən internet paketləri və abunəçilərin hər zona üzrə bir qiymət ödədiyi sadə rouminq təklifləri xüsusilə qeyd olunmalıdır. "Nar Mobile" Bakı 2015 Avropa oyunlarının rəsmi mobil rabitə təminatçısıdır.

## "Nar Mobile" ilə "Asan İmza" xidməti artıq bölgələrdə

### Abunəçilər artıq Azərbaycanın müxtəlif bölgələrində

### "Asan İmza" mobil elektron imza xidmətinə qoşula bilirlər

**"Nar Mobile" mobil operatoru göstərdiyi "Asan İmza" mobil elektron imza xidmətinin coğrafiyasını daha da genişləndirdi. Belə ki, abunəçilər artıq Şirvan, Mingəçevir, Quba, Siyəzən, Xaçmaz, Bərdə, Gəncə, Biləsuvar, Şəki, İmişli, Ağcabədi, Kürdəmir, Lənkəran, Masallı, Zaqatala, Tovuz, Cəlilabad və Şamaxıda, eləcə də Bakı şəhəri Şərifzadə küçəsi 39 ünvanda yerləşən "ASAN Xidmət-3" mərkəzində də "Asan İmza" xidmətinə qoşula bilirlər.**

Qeyd edək ki, "Asan İmza" elektron xidmətlərdə avtorizasiya və elektron sənədlərin imzalanması baxımından rahat, etibarlı və təhlükəsiz bir alətdir. "Asan imza" mobil elektron imza texnologiyasının açar üstünlükləri smart-karta və smart-kartın oxunması üçün əlavə qurğuların və proqram təminatının istifadəsinə ehtiyacın olmamasıdır. Xidmətin istifadəsi üçün autentifikasiya və elektron imza rəqəmsal açarlarının saxlanıldığı SIM-karta əsaslanan mobil telefonun mövcudluğu kifayətdir.

Əlavə məlumatı www.narmobile.az və www.asanimza.az saytlarında əldə etmək mümkündür.

Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru olan "Nar Mobile", 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində "Nar Mobile" daima sərfəli qiymət siyasətinə sadiq qalaraq müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təkliflərini təqdim etmiş və abunəçilərin rəğbətini qazanmışdır. Münasib danışıq tarifləri ilə yanaşı, mobil operatorun müxtəlifliyi və sərfəliliyi ilə seçilən internet paketləri və abunəçilərin hər zona üzrə bir qiymət ödədiyi sadə rouminq təklifləri xüsusilə qeyd olunmalıdır. "Nar Mobile" Bakı 2015 Avropa oyunlarının rəsmi mobil rabitə təminatçısıdır.


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

- **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
- **Cinsi marağın** və **cinsi aktların** azalması
- **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
- **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
- **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
- **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
- **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
- **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
- Əvvəldən **xarici cinsi üzvün** balaca olması
- **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
- **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
- **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
- **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
- Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
- **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
- Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
- Sidik aktlarının çətinlikləri və tutulmaları
- Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
- **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
- **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
- **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A «Nərimanov» m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

# Hüquq müdafiəçisi icra başçısının müavinini ittiham etdi

## Bəxtiyar Məmmədov: "Yavər Allahverdiyev açıq şəkildə torpaq alveri ilə məşğuldur"

**"İnamla hüquq" MMC-nin rəhbəri, hüquq müdafiəçisi Bəxtiyar Məmmədov Səbayel Rayon İcra Hakimiyyəti başçısının müavini Yavər Allahverdiyevin adı hallanan yol qəzası ilə bağlı araşdırma aparır. B.Məmmədov bildirir ki, araşdırmaları zamanı maraqlı faktlar əldə edib:**

"Yavər Allahverdiyevin törətdiyi yol-qəza hadisəsi tam həqiqətə uyğun bir faktdır. Araşdırmalardan mənə məlum olub ki, istintaq orqanları hansısa məmurun tapşırığına uyğun olaraq bu cinayət hadisəsinin Yavər Allahverdiyevin sürücüsü tərəfindən törədildiyi qənaətinə gəliblər. Bu qəzanın Yavər Allahverdiyev tərəfindən törədilməsini təkzibolunmaz faktlarla sübut edəcəm. Təqdim edəcəyim faktları prokurorluq və digər inzibati orqanlar təkzib edə bilməyəcəklər".


Bəxtiyar Məmmədov

**B.Məmmədov araşdırmaları zamanı Y.Allahverdiyevin digər qanunsuz əməllərini də üzə çıxardığını bildirib:** "2010-cu ildə müavin vəzifəsinə təyin olunandan bu günə qədər onun fəaliyyəti ancaq dövlət torpaqlarını satmaq, heç bir sənəd vermədən şifahi şəkildə mənzil tikintilərinə icazə verməkdən ibarətdir. Bu yolla o, külli miqdarda kapitala sahib olub. Y.Allahverdiyev bu cinayət əməllərini həmyerlisi, Səbayel İH-də tikinti şöbəsində işləyən Sahib adlı şəxsin vasitəsilə həyata keçirir.

O, Səbayel rayonu, Badamdar qəsəbəsi, 3-cü massiv deyilən ərazidə dövlət torpaqlarını açıq şəkildə hərraca çıxarıb. Hər sotunu 5 min manata satmaqla bu günə qədər artıq 5-6 hektar torpaq satıb. Onun bu gün etdiyi qanunsuzluqlar həmin torpaqlar nə vaxtsa dövlətə lazım gələndə qabarıq problemə çevriləcək. Dövlət həmin torpaqlarda ev tikən vətəndaşlara milyon manatlarla kompensasiya ödəməli olacaq".

**Hüquq müdafiəçisi bildirib ki, 2007-ci ildən etibarən Bakı Şəhər İcra Hakimiyyətinin torpaqların paylanmasının dayandırılması barədə sərəncamı var:** "Allahverdiyev bu sərəncama əhəmiyyət vermədən açıq şəkildə torpaq alveri ilə məşğuldur. Tam məsuliyyətimlə bildirirəm ki, apardığım araşdırmalardan məlumdur ki, Səbayel RİH müavini Yavər Allahverdiyevin razılığı olmadan kimliyindən asılı olmayaraq heç bir şəxs daşı-daş üstünə qoya bilməz. Bu adam Səbayel rayonu, 20-ci sahə, Ş.Allahverdiyev küçəsi dalan 1, ev 2, mənzil 5-də yaşayan Xoşqədəm Nuriyevanın hava hücumundan müdafiə üçün tam yararlı, yüzlərlə insanın qorunmasına bütün şəraiti olan yeraltı sığınacağın üst ərazisinin və həmin sığınacağa məxsus 25 kvadrat metrlik ayaqyolunun sökülərək öz yaşayış ərazisinə qatılmasını maddi maraqları zəminində bu günə qədər aidiyyəti orqanlardan gizlədir. Bu da o deməkdir ki, Y.Allahverdiyev tutduğu vəzifəni özəlləşdirməklə Səbayel RİH-in inzibati ərazisində qanuna zidd, korrupsioner cinayət əməllərini həyata keçirməyə, özü və himayədarları üçün kapital toplamaqla məşğuldur. Y.Allahverdiyevin Səbayel rayonu ərazisində yerləşən və fəaliyyət göstərən daş karxanaları ilə "dost"luq münasibəti də var".

Hüquq müdafiəçisi Y.Allahverdiyevin cinayət məsuliyyətinə cəlb olunması üçün ölkə başçısı İlham Əliyevə və aidiyyəti qurumlara müraciət etdiyini də bildirib.

❑ **E.HÜSEYNOV**

**P.S.** *Y.Allahverdiyevin də mövqeyini dərc etməyə hazırıq.*

# Köşkü oğurlanan Bakı sakini Rüstəm Usubovdan kömək istəyir

## Veronika Tarbayeva: "Nizami Quliyevin göstərişinə əsasən köşk oğurlandı"

**"Baş prokurorun 1-ci müavini Rüstəm Usubovdan xahiş edirəm ki, məni qəbul etsin. Onkoloji xəstəyəm. Məni onun qəbuluna yazmırlar. Deyirlər ki, o, şikayətçini 1 dəfə qəbul edir". Bu sözlərin müəllifi redaksiyamıza müraciət edən Bakı sakini Veronika Tarbayevadır. O deyir ki, 2012-ci ildə o vaxt Nizami rayon prokuroru olan Mahir Muradovun köməkliyi ilə qəzet köşkü kirayələyib. Köşkün aylıq kirayə haqqı 1000 manat olub və bu məbləği icarəçidən özünü Bakı Şəhər İcra Hakimiyyətinin işçisi kimi təqdim edən Nizami Quliyev alıb.**



V.Tarbayevanın sözlərinə görə, 2-ci ay üçün ondan 1500 manat icarə haqqı tələb olunub: "Nizami Quliyevdən tələb etdim ki, mənə ilk ay üçün ödədiyim kirayə haqqının qəbzini gətirsin, 2-ci ay üçün ödəyəcəyim 1500 manata görə qəbz versin. Bilmək istəyirdim ki, pulu kimə verirəm və hara, kimin cibinə gedir? Çünki Nizami Quliyev mənə heç bir sənəd göstərməmişdi, haranın işçisi olması haqda sənəd təqdim etməmişdi. Qəbzi tələb etdiyimə görə Nizami Quliyev məni hədələdi, başıma oyun açacağını deyib getdi. 2012-ci il sentyabrın 4-dən 5-nə keçən gecə Nizami Quliyevin göstərişinə əsasən köşk oğurlandı".

**Şikayətçinin sözlərinə görə, 6 ay sonra köşkün oğurlanması ilə bağlı cinayət işi başlanıb:** "Nizami Rayon Prokurorluğu CM-in 177.3.2-ci(oğurluq) maddəsi ilə cinayət işi başlayıb işi Nizami Polis İdarəsinə göndərdi. Orada 2 müstəntiq dəyişdi. Hər biri də "bu işin arxasında böyük adamlar dayanır" deyib istintaq aparmadı. Uzun şikayətlərimdən sonra işi Nizami Polis İdarəsindən alıb Bakı Şəhər Baş Polis İdarəsinə verdilər. Orada da Nizami Polis İdarəsində olanlar təkrarlanmağa başladı. İş müstəntiqləri bir-bir "gəzdi".

**Şikayətçi bildirib ki, 2013-cü ildə Rüstəm Usubovun qəbulunda olandan sonra vəziyyət dəyişib:** "Usubova vəziyyəti ətraflı danışdım və o mənə kömək etdi. Qəbulunda olandan sonra müstəntiq dedi ki, sənə 3 min manat verirlər, bir şərtlə, yaz ki, köşkdə olan malların qaytarılıb. Məbləğ 5 min manata kimi qalxdı. Müstəntiq Elnur Novruzov deyirdi ki, pulu götür, yoxsa sənə heç nə verilməyəcək. Bu işin arxasında böyük adamlar dayanıb. Mən başa düşmürəm ki, əgər kiminsə arxasında böyük adamlar dayanıbsa, deməli, o, oğurluq edə bilər?"

**Şikayətçi bildirib ki, ona oğurlanan əmlakının əvəzində kompensasiya veriblər. Amma Nizami Quliyevi oğurluğa görə cəzalandırmayıblar:** "Pulu götürdüm və bunu videoya yazdım. 2013-cü ilin aprelində cinayət işi Nizami Quliyev cəlb edilmədən xitam olundu. O, bu gün də öz işindədir. Mən Bakı Şəhər Prokurorluğuna dəfələrlə şikayət etmişəm. Orada Mircavan Kazımov adlı prokuror var, hər dəfə deyir ki, yazılı müraciət et. Yazıram, amma müraciətimə baxan yoxdur. Şəhərin ortasından, metronun "Neftçilər" stansiyasının qarşısındakı köşkü oğurlayanlar nə vaxta kimi azadlıqda qalacaqlar? Hüquqlarımızı müdafiə etməli olanlar niyə oğru və dələduzların qanunun yanından keçmələrinə imkan verir?"

**Yazıda adları çəkilən şəxslərin də mövqeyini dərc etməyə hazırıq.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# Sabah dələduzluqda suçlanan hakimin məhkəməsi olacaq

## Həsən Əliyevin əməllərinin araşdırılmasına başlanılır


Həsən Əliyev

**Oktyabrın 10-da Gəncə Ağır Cinayətlər Məhkəməsində dələduzluq və rüşvətxorluqda təqsirləndirilən keçmiş hakim Həsən Əliyev barəsində olan cinayət işi üzrə proses keçiriləcək. Ötən prosesdə H.Əliyev işə Gəncə Ağır Cinayətlər Məhkəməsində baxılmasına etiraz etmişdi. Etirazını məhkəmə sədri ilə münasibətinin yaxşı olması ilə əsaslandırmışdı. Lakin hakim etirazla bağlı vəsatəti təmin etməyib. Prosesdə iş adamı Ramazan Səlimovun vəkili isə çıxış edərək Həsən Əliyev barəsində həbs-qətimkan tədbirinin seçilməsi haqda vəsatət verib. Məhkəmə bu vəsatəti də təmin etməmişdi.**

Qeyd edək ki, həmin cinayət işi üzrə materiallar baxılmaq üçün əvvəlcə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. İş hakim Azər Orucovun icraatına verilib. Lakin hazırlıq iclasında A.Orucov bildirib ki, hakim tərkibi bu işə baxmaq istəmir. A.Orucov deyib ki, o özü və heyətdə olan hakimlər Ələvsət Abbasov və Əlisoltan Osmanov təqsirləndirilən Həsən Əliyevlə iş yoldaşı olublar. O qeyd edib ki, bu hal işin baxılmasına təsir etməsə də, cəmiyyətdə yanlış fikir yarada bilər. Etiraza Bakı Apellyasiya Məhkəməsində baxılaraq, iş Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib. İttiham aktına görə, Rusiyadan gələn iş adamı Ramazan Səlimov işə düzəlmək üçün 2011-ci ildən tanıdığı Elman Məmmədova müraciət edib. E.Məmmədov isə onu Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Həsən Əliyevlə tanış edib. Həsən Əliyev R.Səlimovdan icra başçısı təyin etdirəcəyi vədi ilə 600 min manat pul alıb. Lakin sonradan pulu qaytarmayıb. Bundan sonra R.Səlimov polisə şikayət edib. Şikayət əsasında cinayət işi başlanıb və E.Məmmədov həbs olunub. İstintaq dövründə Həsən Əliyevə qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla dələduzluq törətmə) maddəsi ilə bərabər, Cinayət Məcəlləsinin 312-ci (rüşvət vermə) maddəsi ilə də ittiham elan olunub. Lakin barəsində həbs-qətimkan tədbiri seçilməyib. Prezident İlham Əliyev Həsən Əliyevin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqda sərəncam imzalayıb. Buna səbəb kimi Həsən Əliyevin qanunvericiliyin tələblərini dəfələrlə kobudcasına pozması göstərilib. Həsən Əliyev isə ittihamları qəbul etmir.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Direktor əlil vətəndaşın övladını niyə məktəbə götürmür?

## Heydər Əliyev Liseyinin direktoru Fikrət Xəlilovdan şikayət var

**Qəzetimizin ötən sayında ikinci qrup əlil Ələkbər Əliyevin Heydər Əliyev adına Lisey tərəfindən aldadıldığı haqda yazmışdıq. Şikayətçi liseyin ona bu il birinci sinfə getməli olan qızını qəbul edəcəyini desə də, sonradan bu sözündən imtina edib.**

Onun sözlərinə görə, son 10 gündə hər gün liseyə gedərək, direktor Fikrət Xəlilovun qəbuluna düşmək istəyib, ancaq cəhdləri nəticəsiz qalıb. Şikayətçi son olaraq da Prezident Administrasiyası Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadəyə məktub ünvanladığını bildirdi. Həmçinin Xətai Rayon Təhsil Şöbəsinin rəisi Ülfət müəllimin də qəbuluna düşdüyünü, lakin heç bir müsbət dəyişiklik olmadığını bildirdi. Çarəsiz ata dərs ilinin başlanmasından bir aya yaxın vaxt keçsə də övladının hələ də məktəbə qəbul edilməməsindən narahatdır: "2-ci qrup əliləm, özüm oxumamışam. Fəhləlik edərək ailəmi güclə dolandırıram. Mən qızımın yaxşı məktəbdə oxumasını istəyirəm. Ancaq dərs ilinin başlanmasından 1 ay ötüb. Qızım hələ də əlinə çanta alıb məktəbə getməyib. Bunun səbəbkarı isə Xətai rayonu ərazisində yerləşən Heydər Əliyev adına liseydir. Bununla bağlı Prezident Administrasiyasında Fatma xanımın qəbulunda oldum. Mənə bu problemi həll edəcəyini desə də, heç bir müsbət dəyişiklik olmadı. Həmçinin təhsil şöbəsində Ülfət müəllimin qəbulunda da oldum. O da mənə 4 günə xəbər edəcəyini bildirdi. Ancaq bir xəbər yoxdur. Mehriban Əliyevanın qəbuluna yazılmışam. Əgər alınsa, ayın 10-da qəbula düşüb dərdimi demək istəyirəm".

❑ **Günel MANAFLI**

# YENİ MÜSAVAT

## Son səhifə

N 249 (5958) 9 oktyabr 2014




## İkimərtəbəli evini iPhone 6 telefonla dəyişir

Amerikanın Detroyte şəhərindəki daşınmaz əmlak saytlarından biri ilginc elan yayıb. Həmin elanda qeyd edilib ki, bir kişi öz ikimərtəbəli evini almağı və ya onu iPhone 6 Plus telefonla dəyişməyi təklif edib. Kərpicdən hazırlanmış evdə üç yataq otağı var. Bir neçə ay əvvəldən satışa qoyulan evin qiyməti isə 5 min dollar olub. Avqust ayında evin qiyməti 3 min dollara düşüb. Bu səbəbdən də ev sahibi onu mobil telefonla dəyişməyə qərar verib. Məlumatlara görə, adı açıqlanmayan ev sahibi bu evi 2010-cu ildə, 41 min dollara alıb və onu kirayə vermək istəyib. Amma daha sonra öyrənib ki, əvvəlki sahibi bu evi cəmi 103,5 min dollara alıbmış. Şəhərdəki obyektlər bir-bir müflis olandan sonra isə ümumiyyətlə bu evi kirayə götürmək istəyən olmayıb. Bununla belə, son elanla 4 nəfər maraqlanıb. Hətta potensial müştərilərdən biri deyib ki, ev ona bəzi artıq əşyalarını yerləşdirmək üçün lazımdır. Odur ki, o, ev qarşılığında iPhone 5 telefonu təklif edib. Daha iki namizəd isə ev üçün 850 və 700 dollar təklif ediblər.

Detroyt şəhəri 2013-cü ilin 3 dekabrında müflis elan edilib. Həmin vaxt şəhərin borcları 18,5 milyard dollara çatıb. Büdcə kəsirləri isə 280 milyon dollar təşkil edib.

# 16 min 400 ayaqqabısı olan qadın



ABŞ-ın Kaliforniya şəhərində yaşayan Darlene Flynne boş yerə "Ayaqqabıcı qadın" deyilmir. Flynn 16 min 400 ədəddən ibarət ayaqqabı, ayaqqabıya aid aksessuara malikdir. Buna görə də sözügedən sahədə rekord qazanıb. 2006-cı ildə kolleksiyasındakı ayaqqabı əşyalarının sayı 7 min 765 ədədə çatmışdı. Amma o gündən bu yana kolleksiyanın həcmi iki dəfə artıb. Flynnin kolleksiyasında ayaqqabı şəklində mebellər, paltarlar, balışlar, telefonlar, üzərində ayaqqabı şəkli olan geyim və aksessuarlar var. Hətta kovboy çəkməsi formasında bir tualet fırçası və Sindirellanın şüşədən ayaqqabısına bənzər bir ayaqqabı da var. Flynnin ayaqqabı kolleksiyasının toplam məbləği 500 min dollardır. Flynn belə bir kolleksiya sahibi olmasının səbəbini özü də bilmir: "Ayaqqabıları sevirəm və hesab edirəm ki, bu sevgi nəzarətdən çı-

# Şuluq uşağınızı bizə gətirin, cəzalandıraq!

İngiltərədə yerləşən Black Lion pivə barının sahibləri qəribə elanla diqqət çəkib. BBC Nevs xəbər verir ki, barın qabağındakı plakata "Sözəbaxmayan uşaqlarınızı bizə gətirin, stola bağlayarıq" sözləri yazılıb. Elanda həmçinin qeyd edilb ki, bədbəxt hadisələrdən və travmalardan qaçmaq üçün uşaqlarınız ortada qaçışanda restoranın işçilərinə müraciət etmək mümkündür. Bu halda sonuncular uşaqların sakit dayanması üçün onları stola bağlayacaq. Müəssisəsinin rəhbəri Nikki Brodin deyib ki, əslində bu, məsum bir zarafatdır: "Bizim bar köhnə dəbdə hazırlanıb. Bu elan isə keçmiş və xeyirxah bir britaniya yumoruna can vermək üçündür. Heç vaxt heç kimi incitmək niyyətimiz olmayıb".

Pivə barının facebook səhifəsində isə bu elanla bağlı ciddi etirazlar yerləşdirilib. Bəzi istifadəçilər bar rəhbərliyini vəhşilikdə suçlayaraq onlardan polisə şikayət ediblər.






## Bu göbələk bütün xəstəlikləri sağaldır

Yaponiyada "ölümsüzlük" mənasını daşıyan Reyşi göbələyi başda xərçəng olmaqla, insanı bir çox xəstəliklərdən qoruyur, ömrü uzadır. Artıq Reyşi göbələyinin çayı və şorbası ilə yanaşı, qəhvəsi də satışa çıxarılıb. Göbələyin faydalarını isə mütəxəssislər belə qruplaşdırıb: xərçəng riskinə qarşı qoruyucu təsirləri var. Xərçəng risk qrupunda olan şəxslər *(ailəsində xərçəng xəstəsi olan, stres altında və ya hava çirkliliyi şəraitində işləyənlər)* bundan xüsusilə istifadə etməlidir. Bu göbələk immunitet sistemini gücləndirir, genetik, yoluxucu xəstəliklərə qarşı insanları qoruyur. Qan dövranını sistemləşdirməyə yardım edir. Beləliklə, inkfarkt, damarlarda tıxanma, iflic kimi risklərin də qarşısını alır. Bədəndə yığılan toksinləri də təmizləyir. Qandakı oksigen miqdarının artımına və qan axınının düzənlənməsinə kömək edir. Beləliklə, dəriyə gələn oksigen miqdarında artım baş verir, dəri daha da gözəlləşir.




**QOÇ** - Qurulan yeni əlaqələr istər fəaliyyət zəminində, istərsə də qarşılıqlı münasibətlərdə sizə böyük səmərə verəcək. Amma hər şeydən əvvəl sağlamlığınızın qayğısına qalmalısınız. Bu gün səfərə çıxmayın.

**BUĞA** - Günün ilk yarısında səhhətinizlə bağlı problemlərin həlli ilə məşğul olun. Sonrakı müddətdə isə planlarınızın əksəriyyəti qaydasına düşməyə başlayacaq. İmkan varsa, ailə üzvlərinizə sürprizlər edin.

**ƏKİZLƏR** - Əgər hansısa uğursuzluqla rastlaşırsınızsa, bunun səbəbini başqalarında deyil, özünüzdə axtarın. Yaxın on gündə görəcəyiniz sənəd işlərini dəqiqləşdirin. Saat 16-dan sonra sizə ehtiyac duyanlara baş çəkin.

**XƏRÇƏNG** - Bu gün gələcək büdcənizi rahatlamaq üçün əhəmiyyətli sövdələşmələrdə iştirakınız labüdləşəcək. Belə görüşlərdə və qonşuluq münasibətlərində gərginliyə yol verməyin. Özünüzü soyuqdəymədən qoruyun.

**ŞİR** - Ulduzlar qarğış və söyüşlərdən uzaq olmağı, falçı və cadugər yanına getməməyi məsləhət görür. Çünki indi sizin ruhi saflaşma prosesinizdir və gərək Tanrıya xoş getməyən addımlardan yayınasınız.

**QIZ** - Saat 15-17 arası sizin üçün təhlükəli vaxtdır. Bu səbəbdən də həmin vaxt daha çox neytrallıq nümayiş etdirməyiniz lazım gələcək. Günün qalan hissəsində isə iş və maliyyə məsələlərində uğurlar olacaq.

**TƏRƏZİ** - Ətrafınızı dəyişməkdənsə, özünüzü dəyişməyiniz daha asan olar. Gün ərzində özünüzü gümrah aparın, hər kəslə dil tapmağa çalışın. Əmin olun ki, bunu bacarsanız, axşama fərqli bir insan olacaqsınız.

**ƏQRƏB** - Ümumi mənzərəyə görə yaxşı gün demək olar. Əqidə və ideyalarınızdakı doğruluğu, saflığı qorusanız, belə də olacaq. Sevgidə təşəbbüskar və mərhəmətli olun. Keçmişinizdən hər zaman dərs götürün ki, uduzmayasınız.

**OXATAN** - Daha çox istirahət edin. İndi konfliktlərə girişməkdənsə, qarşılıqlı münasibətləri mülayimləşdirmək daha sərfəlidir. Onsuz da sidq-ürəklə "dost!" deyib çağırdığınız adamlar kifayət qədər deyil.

**OĞLAQ** - Təəssüf ki, ixtiyarınızda olan bu tarixdə hansısa ciddi müvəffəqiyyətə nail olacağınız gözlənilmir. Ələlxüsus da günün birinci yarısında. Amma naşükürlük etməyin, yeni həftəyə böyük ümidlər bəsləyən.

**SUTÖKƏN** - Gözlədiyiniz xoş məqamların vaxtı yetişməkdədir. Bu səbəbdən evdə oturmaqdan vaz keçin. Sizə daha çox ünsiyyət lazımdır, hətta yaxın ünvanlara səfər də olar. Hamı bu gün sizi anlayacaq.

**BALIQLAR** - Uzaq yola çıxmaqdan, riskli pul sövdələşmələrində iştirak etməkdən çəkinin. Bu iki amildən başqa bütün sahələrdə müvəffəqiyyət sizinlə olacaq. Gecəni öz evinizdə keçirin. Sevgisiz qalmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# İki əli və iki ayağı ilə yazır



Çində yaşayan Çen Siyuan adlı qadının qəribə özəlliyi bütün dünyanı şoka salır. Qadın eyni zamanda iki əli və iki ayağı ilə yazı yaza bilir. Bu zaman onun beyninin funksiyaları rəsmən 4 hissəyə bölünür. Hər iki əli və hər iki ayağı ilə məharətlə, səhvsiz yazan qadın "Ginnesin Rekordlar Kitabı"na düşməyə iddialıdır. Amma müşahidəçilər onun bu qabiliyyətini "heç bir işə yaramayan qabiliyyət" kimi xarakterizə edirlər.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.650